Управляющим органом реализации Плана развития может быть Минэкономразвития, отвечающее за экономическую политику в правительстве. Условием успеха плана становится реализация новой функции - управление каждым мероприятием на уровне бизнес-планов и бизнес-процессов, принятых на корпоративном уровне. Это потребует нового уровня организации, квалификации и ответственности правительственных менеджеров, которые будут совмещать бизнес-процессы и возможности центральных органов власти. Это касается:

- организации госзаказов и госзакупок «без откатов»;

- отбора и сопровождения проектов для финансирования через государственные банки;

- отбора и сопровождения проектов для финансирования через банк развития за счет целевой эмиссии;

- адресной поддержки создания новых малых предприятий в приоритетных сферах производства;

- вывода предприятий госсектора на высокодоходный уровень;
- мониторинга и помощь в управлении крупными проектами импортозамещения и производства продукции для новых экспортных рынков;
- управления проектами бюджетных капиталовложений;
- других действий по бизнес-управлению ресурсами дополнительных инвестирований и организации новых производств товаров и услуг для обеспечения запланированного роста ВВП.

Литература

[1] Андрианов В.Д. Эволюция основных концепций регулирования экономики от теории меркантилизма до теории саморегуляции /В.Д. Андрианов. – М.: ЗАО «Издательство «Экономика», 2008. – 326с.
[2] Державне регулювання економіки України: методологія, напрями, тенденції, проблеми /за ред..д-ра екон. наук М.М.Якубовського.К.:НДЕІ Міністерства економіки України, 2005. – 410с.
[3] Жаліло Я.А. Економічна стратегія держави у нестабільних ринкових економічних системах: Монографія / Я.А. Жаліло. – К. : НІСД, 1998. – 144с. – (Сер. «Економічні стратегії»; Вип. 6). – Бібліогр.: С. 138-142.
[4] Желюк Т.Л. Управління довгостроковим розвитком національної економіки: методологічні та прикладні аспекти / Т.Л. Желюк. Монографія. – Тернопіль: Економічна думка ТНЕУ, 2010. – 512с.
[5] Карпінський Б.А., Божко С.М. продуктивність і сталий розвиток економіки: Монографія / Б.А.Карпінський, С.М. Божко. Львів: Логос, 2004. 274с.
[6] Майєр Джеральд М., Раух Джемс Е., Філіпенко Антон Основні проблеми економіки розвитку / М. Майєр Джеральд ,Е. Раух Джемс К.: Либідь, 2003. – 688с.
[7] Промисловий потенціал України: проблеми та перспективи структурно-інноваційних трансформацій/[Відпов. ред. канд. екон. наук Ю.В. Кіндзерський] – К. : Ін-т економіки та прогнозування НАН України, 2007. – 408с.
[8] Скрипниченко М. І. Секторальні та міжнародні моделі економічного розвитку / М.І. Скрипниченко. – К.: Фенікс, 2004. -256с.
[9] Стратегія економічного і соціального розвитку України (2004-2015 роки) «Шляхом Європейської інтеграції» / Авт. кол.: А.С. Гальчинський, В.М. ГЕєць та ін.; Нац. Ін-т стратег. дослідж., Ін-т екон. прогнозування НАН України. – К.: ІВЦ Держкомстату України, 2004. – 416с.

Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri, İl 3, Cilld 3, İyul – Sentyabr, 2015, səh. 29-37
Scientific Reviews in Azerbaijan State University of Economics, Year 3, Volume 3, July -September, 2015, pp. 29-37

PERSPECTIVES OF FUTURE ECONOMIC COOPERATION BETWEEN AZERBAIJAN, GEORGIA AND TURKEY

A.Y.Rzayev

PhD, Head of International Economics Department of UNEC, Grand PhD candidate

Məqalə redaksiyaya daxil olmuşdur 28 avqust 2015; Çapa qəbul edilmişdir 25 sentyabr 2015; elektron çap edilmişdir 6 oktyabr 2015.
The article was received 28 Augast 2015; accepted 25 September 2015; published online 6 October 2015.

Abstact

The article is about the state of regional economic relations of Azerbaijan, Turkey and Georgia. The actual geo-economic situation around the region of the three countries is analyzed that revealed a large geo-economic interdependence between the countries. Analysis of the current state of trade and financial flows between the three countries show that the trade between the three countries show low and almost no influence onto the growth of their GDP. The dynamics and volatility of foreign direct investments allow to make conclusion that frequently such decisions are driven by political rather than by economic factors. The countries need to foster cooperation between their businesses on a micro level in a form of intra-industry cooperation. This will allow fill the FDI between the countries with more economic grounds and decrease its volatility.

Key words: Azerbaijan, Georgia, Turkey, geo-economics, foreign economic relations.
Jel Classification: F15

AZƏRBAYCAN, GÜRCÜSTAN VƏ TÜRKİYƏ ARASINDA REGİONAL İQTİSADİ ƏMƏKDAŞLIĞIN GƏLƏCƏK PERSPEKTİVLƏRİ

Xülasə

Məqalə Azərbaycan, Gürcüstan və Türkiyə arasında regional iqtisadi əməkdaşlığın muasir vəziyyətinə həsr edilmişdir. Region ətrafında təşəkkül tapmış geoiqtisadi vəziyyətin təhlili bu üç ölkə arasında ciddi geoiqtisadi qarşılıqlı asılılığın olduğu barədə nəticəyə gəlməyə imkan verir. Ölkələr arasında mövcud ticarət və maliyyə axınlarının təhlili bu ölkələrin qarşılıqlı ticarətinin onların ÜDM-lərinin artmasına zəif təsir göstərdiyini nümayiş etdirir. Birbaşa xarici investisiyaların dinamikası və volatilliyi bu cür qərarların daha çox siyasi, nəinki iqtisadi motivlər üzərində verildiyi barədə nəticəyə gəlməyə imkan verir. Ölkələrə mikro səviyyədə və sahədaxili əmək-

daşlıq formatında öz biznes strukturları arasında qarşılıqlı əlaqələri inkişaf etdirmək tövsiyə olunur. Bu ölkələr arasında birbaşa xarici investisiyaların motivlərini iqtisadi fundamentlə doldurmağa və eyni zamanda investisiyaların volatilliyini azaltmağa imkan yaradacaqdır.

Açar sözlər: Azərbaycan, Gürcüstan, Türkiyə, geoiqtisadiyyat, xarici iqtisadi əlaqələr.

ПЕРСПЕКТИВЫ ДАЛЬНЕЙШЕГО ЭКОНОМИЧЕСКОГО СОТРУДНИЧЕСТВА МЕЖДУ АЗЕРБАЙДЖАНОМ, ГРУЗИЕЙ И ТУРЦИЕЙ

Резюме

Статья посвящена региональному экономическому сотрудничеству между Азербайджаном, Грузией и Турцией. Анализ существующей геоэкономической ситуации вокруг региона обнаружил серьезную геоэкономическую взаимозависимость между этими странами. Анализ существующих товарных и финансовых потоков между странами показал, что торговые отношения этих стран оказывают очень низкое влияние на рост их ВВП. Динамика и волатильность прямых иностранных инвестиций позволяет сделать вывод о том, что часто такие решения мотивированы политическими, нежели экономическими соображениями. Странам необходимо развивать взаимоотношения между их бизнес структурами на микроуровне в форме внутриотраслевого кооперирования. Это позволит заполнить мотивы прямых иностранных инвестиций между странами экономическим фундаментом, что в свою очередь уменьшит их волатильность.

Ключевые слова: Азербайджан, Грузия, Турция, геоэкономика, внешнеэкономические отношения.

Nowadays, in the period of restructuring of global economic space and the mere architecture of international economic relations when the liberalization of international trade faces protectionist strategies of countries regional economic cooperation between the countries becomes an important instrument of preserving both goals. Therefore an intensification of regional economic cooperation between Azerbaijan, Turkey and Georgia is gaining a special urgency.

An economic cooperation between the three countries needs to be considered through two perspectives one being the usual foreign economic relations and another one is the geo-economic perspective.

There are several prevailing trends in the geo-economic space nowadays. First is re-division of labor in a global perspective as West (USA and founding countries of EU) being the Center of the geo-economic space is leaving the industrial era towards

the knowledge economy and specializes on sale of knowledge in a form of technology and know-how aiming at collecting innovation related geo-economic rent from the world. The competition within the Center will need soon to be viewed through the technological division of labor. At the same time we eye vision the rise of the so-called New East with China and countries around it as new soon to be industrial countries or the world manufacturers. Therefore there is no surprise that the trade between the two enclaves increases and diversifies at a high speed.

There are three more interesting virtual regions on the geo-economic space – South specializing at delivering raw materials and primary goods, these are the countries participating in fuel and agricultural cartels; Deep South – these are the areas of social collapse participating in illegal drug (Golden Triangle - region that overlaps the mountains of three countries of Southeast Asia: Myanmar, Laos and Thailand; Golden Crescent – the area located at the crossroads of Central, South, and Western Asia overlapping Afghanistan, Pakistan, partly Nepal and Iran; Golden Star – Columbia, Ecuador, Peru, Bolivia) and weapons trade; disorientated and I would say "mal orientated" Russian world.

Picture 1. The place of Azerbaijan, Georgia, Turkey in the geo-economic division of the world



The above described regions create certain gravitation in the geo-economic space that can be observed in the example of enlargement of EU or Customs Union of Russia, Kazakhstan, Belarus. Therefore along with other manifestations the geo-

economic competition among nations takes a form of pushing the competitor, to put it mildly, unattractive region and cutting it from the attractive one.

One important point needs to be underlined here is that each of these regions has got its own center or the core, the semi-periphery and the periphery. Using the language of spatial economy the core exploits both semi-periphery and periphery whereas semi-periphery exploits the periphery. Entrance and future participation in the to any of the regions (here then we talk about the attractive ones) lays via the periphery. Here we can understand the reluctance of EU in accepting Turkey and as this country will be heading towards semi-periphery with perspectives to join the core therefore bypassing the periphery.

The situation with Ukraine is slightly different as the country seems to having made a choice between the core of Russian world in favor of periphery of EU that is quite attractive for EU. Attractive is a key word here as the country needs to be attractive for a geo-economic sub-region to get accepted for cooperation.

Stepping from these grounds the interdependence of Azerbaijan, Georgia and Turkey takes an eye visioning form and an economic cooperation between our three countries transforms into joint geo-economic competition and is headed at finding our niche in the geo-economic space. Our niche seems to be in between the West and East that form the geo-economic axle of the world with a hopeful gravitation towards West rather than East.

Improving our transit capacity as well as participating in energy security of EU creates a favorable gravitation for our nations.

The second trend is related with direct competition in the world market and gaining a share from the world income. The competition in the world markets gets very tense and we observe the market to transform into an oligopoly as the multinational companies start viewing the world as a single market for operation. Some nations join their resources in a form of clusters and deliver to world market joint products to compete with market leaders – a good example is Airbus. Clustering can also be viewed as integration on a micro level that accelerate intra industry trade and tightens up the relations between the participating nations. It is in one hand allows the countries to compete on the world stage that they may not be able to do alone and on the second hand boosts intra regional trade therefore improving the living standards of their citizens. The Baku-Tbilisi-Kars railway as well as energy related transport projects are in fact the clusters that our free nations form and come up to the world with their services. In our opinion this kind of cooperation needs to be extended into industry, science as well as other service areas.

An economic cooperation between the three nations along with strategic goals described above is certainly expected to aim at raising living standards of their citizens by effecting allocation of resources, decreasing the unemployment, raising

GDP and GDP per capita. When looking at trade data between the three countries we witness a quite a diverse picture. Foreign trade turnover of Azerbaijan and Georgia with Turkey make less than 0,1% of the total trade volume of this country [1] whereas Azerbaijan tops the list of export partners of Georgia and is number 3 in imports after Turkey and China [2].

Georgian exports to Azerbaijan show a strong positive trend and needs to play a key role in decreasing the negative trade balance of Georgia. There is definitely a room for such an increase as the share of Georgian imports in total import of Azerbaijan is 1% [3].

Diagram 1.



Georgian exports and imports by countries

Chart 1. ***Georgian exports to Azerbaijan***



The share of both Turkey and Georgia in total exports of Azerbaijan equals to 2% whereas imports of Turkey to Azerbaijan comprises 13% of total imports of our country [3].

Table 1.Openness indexes of economies of Turkey, Azerbaijan and Georgia towards each other

	2005	2006	2007	2008	2009	2010	2011	2012	2013
GEO/AZ	0,031	0,033	0,032	0,039	0,034	0,040	0,044	0,051	0,052
AZ/GEO	0,024	0,020	0,016	0,017	0,013	0,014	0,016	0,019	0,019
TR/AZ	0,001	0,001	0,003	0,002	0,002	0,001	0,002	0,003	0,002
AZ/TR	0,044	0,037	0,051	0,029	0,023	0,018	0,027	0,030	0,027
GEO/TR	0,039	0,052	0,054	0,058	0,059	0,059	0,064	0,062	0,060
TR/GEO	0,001	0,001	0,001	0,002	0,002	0,002	0,002	0,002	0,002

The table is calculated based on statistical data of the three countries

In order to identify the possible directions of improvement of intra-regional economic cooperation between the countries we carried out some calculations based on the statistical data provided by the governments of the three countries. Firstly we calculated indexes of openness of economies towards each other based on trade turnover. The openness of Georgian economy towards partners increases. The same cannot be stated about the other two economies.

For further analysis we calculated the correlation coefficients for foreign trade turnover of countries with each other with their GDP and between the indicators of their GDP.

Table 2.Correlation coefficients between indicators of GDP of Turkey, Azerbaijan and Georgia

	Azerbaijan	Georgia	Turkey
Azerbaijan	1	0,98	0,96
Georgia		1	0,96
Turkey			1

As we observe from the Table 2, there is tight correlation between GDP indicators of countries which means concurrence of business cycles of our countries.

Table 3. Correlation coefficients between the foreign trade turnovers of Turkey, Georgia, Azerbaijan

	Азербайджан	Georgia	Турция
Азербайджан	1	0,12	0,75
Georgia		1	0,78
Турция			1

The results of the Table 3 are revealing very strange results. The correlation between the foreign trade turnovers of countries are very week. This means the foreign trade success of countries does not get shared between them and indicates the low level intra-industry trade and cooperation.

Table 4. Correlation coefficients of GDP indicators of Turkey, Georgia, Azerbaijanand their trade with each other

	FTT with Turkey	FTT with Georgia
GDP of Azerbaijan	0,81	0,95

	FTT with Turkey	FTT with Azerbaijan
GDP of Georgia	0,99	0,98

	FTT with Azerbaijan	FTT with Georgia
GDP of Turkey	0,83	0,96

An analysis reveals a tight correlation of GDP of the three countries with their trade with each other except between Turkey and Azerbaijan. In other words bilateral trade between these two countries does not much influence their GDP indicators. Therefore we can state that there is a definite room for government intervention in this sphere.

All previous analysis had been carried based on flow of goods between the countries. However the financial flows are also very important. The share of Turkey in the FDI to Azerbaijan the last 10 years was approximately 2% not showing much dynamics throughout the years except 2013 when it rose to 4%.

The share of Turkey in the FDI to Georgia is 5%, in three quarters of 2014 raised to 8% however the trend line has a declining slope. The share of Azerbaijan in FDI

to Georgia in 2013 was 9%, in three quarters of 2014 raised to 24% with an obvious upwards slope of the trend line. We constructed the trend lines of FDI in absolute amounts to Azerbaijan and Georgian economy and extracted the linear equations.

FDI of Turkey to Azerbaijan



The share of Turkey in FDI to Azerbaijan



FDI of Turkey to Georgia



FDI of Azerbaijan to Georgia



We observe an upwards slope of the trend line for Azerbaijan and downward slope of the trend line for Turkey. The equation for Turkey reveals yearly decrease of 2842 thousand dollars a year. The equation for Azerbaijan reveals yearly increase of 11226 thousand dollars a year. The negative second part of both equations indicates high unevenness. But the R^2 coefficient is very low in both cases which may indicate that not all investment decisions are based solely on economic basis and there are other factors heavily influencing them.

The same is almost true if we make the same analysis for the dynamics of shares of Azerbaijan and Turkey in FDI of Georgia.

Results and propositions

1. The three countries heavily depend on each other geo-economically and together create a favorable gravitation in the geo-economic space.
2. The trade turnover between the countries certainly has a room for increasing. The governments need to actively increase the degree of openness of countries towards each other.
3. The countries may increase their share in the world trade by clustering and joint competition. Clustering will increase the FDI and may fill it with more economic grounds and provide for an integration on a micro level.

Sources of statistical data

[1] http://www.turkstat.gov.tr/PreTablo.do?alt_id=1046

[2] http://www.geostat.ge/index.php?action=page&p_id=134&lang=eng

[3] http://www.stat.gov.az/source/trade/

Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri, İl 3, Cilld 3, İyul – Sentyabr, 2015, səh. 38-47
Scientific Reviews in Azerbaijan State University of Economics, Year 3, Volume 3, July -September, 2015, pp. 38-47

MİLLİ İQTİSADİYYATA XARİCİ İNVESTİSIYALARIN CƏLB EDİLMƏSİ ŞƏRAİTİNDƏ MƏSRƏFLƏRİN UÇOTU VƏ TƏHLİLİNİN YENİDƏN QURULMASININ OBYEKTİV ZƏRURİLİYİ

N.İ.Cəfərov
i.e.n., b/m., ADİU (UNEC)
nazim.jafarov@inbox.ru
Tel.: (+994 50) 641 43 48

Məqalə redaksiyaya daxil olmuşdur 21 avqust 2015; Çapa qəbul edilmişdir 10 sentyabr; online-da çap edilmişdir 6 oktyabr 2015
Received 21 August 2015; accepted 10 September 2015;
published online 6 October 2015

Xülasə

Bu tədqiqatın əsas məqsədi ölkə iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsində uçotun və təhlilin yenidən qurulmasının obyektiv zəruriliyinin əsaslandırılmasından ibarətdir. Tədqiqatın metodologiyasını nəzəri, praktik və müqayisəli təhlil üsulları təşkil edir. Tədqiqat nəticəsində müştərək xarici firmaların vasitəsilə investisiyaların ölkə iqtisadiyyatına cəlb olunması yolları aşkarlanmışdır. Tədqiqatın məhdudiyyətləri daha geniş məlumat bazasına olan tələbdir. Tədqiqatın praktik əhəmiyyəti ilk növbədə xarici investisiya cəlb edilməsi şəraitinə xərclərin düzgün aparılmasıdır. Tədqiqatın elmi yeniliyi respublikada fəaliyyət göstərən müştərək uçot və hesabatın Avropa ölkələrinin standartları əsasında aparılmasındadır.

Açar sözlər: investisiya, özəlləşdirmə, mülkiyyət, bazar iqtisadiyyatı, azad iqtisadi zonalar.
Jel Classification: M41, Q56

OBJECTIVE NEED ADJUSTMENT OF ACCOUNTING AND ANALYSIS COSTS UNDER ATTRACTING FOREIGN INVESTMENTS INTO THE NATIONAL ECONOMY

Abstract

The main goal of this study - to prove the objective need for reorganization of accounting and analysis in order to attract foreign investment into the country. It is emphasized that the methodology and analysis should be structured in such a way as to create conditions for the formation of information about foreign investment. This information should be aimed primarily at meeting the needs of external users. It is shown that the method of cost accounting for investments are not fully adequate

generates information that can be used to analyze the efficiency of investment spending.

Key words: investments, privatization, market economy, free trade zone.

ОБЪЕКТИВНАЯ НЕОБХОДИМОСТЬ ПЕРЕСТРОЙКИ УЧЕТА И АНАЛИЗА ЗАТРАТ, В УСЛОВИЯХ ПРИВЛЕЧЕНИЯ ИНОСТРАННЫХ ИНВЕСТИЦИЙ В НАЦИОНАЛЬНУЮ ЭКОНОМИКУ

Резюме

Основная цель данного исследования - обосновать объективную необходимость переустройства учета и анализа для привлечения в страну иностранных инвестиций. Подчеркивается, что методология учета и анализа должна быть построена таким образом, чтобы она создавала условия для формирования информации об иностранных инвестициях. Эта информация должна быть направлена в первую очередь на удовлетворение потребности внешних пользователей. Показывается, что методика учета расходов на инвестиции не полностью формирует адекватную информацию, которую можно использовать для анализа эффективности инвестиционных расходов.

Ключевые слова: инвестиции, привитизация, рыночная экономика, зоны свободной торговли.

Giriş. İstehsal xərclərinin uçotunun səmərəli təşkili, onların təhlili xeyli dərəcədə xərclərin və maya dəyərinin iqtisadi mahiyyətinin düzgün dərk edilməsindən, təsnifatın elmi, praktik cəhətdən əsaslandırılmasından asılıdır. Qarşıda duran başlıca problemlərdən biri də məsrəflərin uçotunun və təhlilinin təkmilləşdirilməsi, onların beynəlxalq standartlara uyğunlaşdırılmasıdır. İstehsal məsrəflərinin uçotu və təhlilini təkmilləşdirmədən real bazar münasibətlərinə keçmək mümkün deyil, çünki uçot və təhlil müasir bazar iqtisadiyyatının mühüm atributlarındandır.

Bazar iqtisadiyyatına keçid hər şeydən əvvəl mülkiyyət münasibətlərinin əsaslı surətdə dəyişdirilməsinə gətirib çıxarmalıdır. Belə ki, respublikamızda özəlləşdirmə prosesinin həyata keçirilməsi nəticəsində müxtəlif mülkiyyət formalarına aid çoxlu sayda müəssisələr meydana gəlmiş, milli iqtisadiyyata xarici investisiya axını başlamış, onların səmərəli fəaliyyəti üçün müvafiq normativ-hüquqi baza yaradılmışdır.

1991-ci ildən başlayaraq Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən “Özəlləşdirmə haqqında”, “İcarə haqqında”, “Mülkiyyət haqqında”, “Səhmdar cəmiyyəti haqqında”, “Mühasibat uçotu haqqında” və s. kimi xüsusi qanunlar qəbul olunmuş, Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı təsdiq olunmuşdur. Müəyyən çatışmazlıqlara

baxmayaraq göstərilən qanunlar və digər sənədlər, respublikada mülkiyyət çoxnövlüyünün təmin olunması baxımından, tam hüquqi baza hesab olunur. Ona görə də bu proses həm sənayenin müxtəlif sahələrində, həm də kənd təsərrüfatında özəlləşdirmə haqqında qanun tələblərinə uyğun olaraq intensiv şəkildə gedir. Artıq birinci mərhələdə 2000-ci ilin birinci yarısına qədər Azərbaycan Respublikasında 17 minə yaxın dövlət müəssisəsi özəlləşdirilmiş və 700-ə qədər səhmdar cəmiyyəti yaradılmışdır. 1997-ci ildə Azərbaycan vətəndaşlarına 7 milyon 183 min 803 ədəd dövlət özəlləşdirmə çeki verilmişdir. Eyni zamanda özəlləşdirmə prosesində xaricilərin iştirakı təmin edilmiş və xarici sərmayəçilərə 19 milyon ədədə yaxın özəlləşdirmə opsionu satılmış və Dövlət Əmlak Komitəsinin məlumatlarına görə büdcəyə 50 milyard manatdan çox vəsait daxil olmuş, xarici investorlar təxminən 200 milyon dollarlıq özəlləşdirmə çeklərinə sahib olmuşdur.

Bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq iqtisadiyyatda bir sıra neqativ hallar da baş vermişdir. Belə ki, respublikamızın bazar iqtisadiyyatı istiqamətində atdığı kövrək addımların qısa təcrübəsi göstərir ki, bazar iqtisadiyyatına keçid ölkəmizdə iqtisadi böhran, istehsalat sahəsində maliyyə sisteminin pozulması və pul tədavülünün çətinləşməsi, əmtəə-pul mübadiləsinin qeyri-tarazlığı və inflyasiyanın güclənməsi ilə müşayiət olunmuşdur. Bazar iqtisadiyyatına keçid şəraitində bəzi müvafiq qanunların olmaması, mövcud qanunlara riayət olunmaması istehlak bazarının pozulmasına, ekoloji şəraitin pisləşməsinə səbəb olmuşdur. Bank kreditləri üzrə yüksək nominal faizi sürətlə dövr edən kapitalın valyuta ilə ehtikarlığına əlverişli şərait yaratmışdır. Bütün bunlar isə iqtisadiyyatımızın tədricən dağılmasına gətirib çıxarırdı. Nəticədə 1991-1993-cü illərdə iqtisadiyyatın idarə edilməsində tam hərcmərclik hökm sürür, bir-birinə zidd olan qərarların qəbul edilməsi xalqın sərvətinin dağılması və israfçılıq üçün əlverişli şərait yaradırdı.

Təhlil göstərir ki, ümumi məhsulun real həcmi 1993-cü ildə 1990-cı illə müqayisədə 2 dəfə azalmış, sənaye istehsalı 63%, kənd təsərrüfatı istehsalı isə 47% aşağı düşmüş, sürətli inflyasiya prosesi nəticəsində əhalinin həyat səviyyəsi 3,6 dəfə aşağı enmişdir.

Məlumdur ki, iqtisadiyyatda köklü islahatların aparılmasında başlıca şərt ictimai siyasi sabitliyin olmasıdır. Belə bir şərait ölkədə yalnız 1993-cü ilin ortalarında bərqərar oldu. 1993-1996-cı illərdə makroiqtisadi sabitliyin təmin olunması və iqtisadiyyatda struktur dəyişikliklərin aparılması tədbirlərini nəzərdə tutan Hökumət Proqramı həyata keçirildi.

Aparılan işlərin nəticəsində sənayedə istehsalın azalması 1995-ci ildəki 17 faizdən 1999-cu ildə 6 faizə enmiş, tənəzzül tempi 2 dəfədən çox aşağı salınmış, bir sıra sahələrdə isə azacıq da olsa, iqtisadi artım əldə edilmişdir.

2000-ci ildə ümumi daxili məhsulun artım tempi 7%, bütün sahələr və mənbələr üzrə investisiya 7,7 trilyon manata yaxın olub. İqtisadi tədbirlər silsiləsində mühüm

əhəmiyyət kəsb edən amil idarəetmə strukturunun bazar iqtisadiyyatı tələblərinə uyğun olaraq təkmilləşdirilməsi olub. Belə ki, bir sıra nazirliklərin ləğv edilməsi, səhmdar cəmiyyətlərin yaranması yeni strukturda bazar tipli təsərrüfat tiplərini meydana gətirib. Lakin unudulmamalıdır ki, müsbət meyllərə iqtisadi siyasət alətləri ilə möhkəm baza yaradılması yeni çətinliklərin meydana gəlməsi ilə nəticələnə bilər.

Dövlət iqtisadiyyatda prioritetləri dürüst müəyyənləşdirməsə, hazırkı tələblərdən irəli gələn sənaye və kənd təsərrüfatı siyasəti yeritməsə, rəqabət qabiliyyətli məhsulların istehsalı və reallaşdırılmasına himayədarlıq etməsə, ağır sosial-iqtisadi nəticələrlə qarşılaşa bilərik.

Bazar iqtisadiyyatına keçidlə əlaqədar xarici kapitalın milli bazara cəlb edilməsinin kompleks sistemini formalaşdırmaqla beynəlxalq təsərrüfat əlaqələrini daha da inkişaf etdirmək mümkündür. Belə ki, respublikada bazar infrastrukturunun yaradılması və onun dünya bazarı ilə əlaqələndirilməsinin səmərəli yollarının aşkar olunması xarici iqtisadi fəaliyyətin düzgün təşkil edilməsindən çox asılıdır. Milli bazara xarici investisiyaların cəlb edilməsi mövcud xalq təsərrüfatı strukturunda istehsal geriliyinin aradan qaldırılmasına, rəqabətin inkişafına təsir göstərəcək yeni iş yerlərinin yaradılmasına və əhalinin sosial vəziyyətinin yüksəldilməsinə səbəb ola bilər.

Payı 30%-dən çox olan və aparıcı iqtisadiyyat sahələrində fəaliyyət göstərən xarici investorlar 5 il ərzində vergidən azad edilir, sonrakı 5 ildə isə 50% güzəştlə vergi ödəyirlər.

Bununla əlaqədar olaraq qeyd etməliyik ki, müəyyən sahə üzrə kontraktların imzalanması birbaşa həmin kontraktlarla əlaqədar investisiyaların başqa sahələrə də axınına yardımçı olur.

Eyni zamanda müqavilələrdə birbaşa nəzərdə tutulmayan, lakin onun gerçəkləşməsi ilə əlaqədar bir çox işlər və müvafiq sifarişlər ortaya çıxır ki, bu da investisiya müqavilələrinin infrastrukturunu təşkil edən işlərdir. Məsələn, buraya xarici mütəxəssislərin respublikamızda yaşamaları üçün dünya standartlarına uyğun yaşayış yerlərinin tikilməsini, restoranların, kafelərin, çamaşırxanaların, avtoservisin, hətta bərbərxananın dünya standartlarına uyğun təşkil edilməsini tələb edir. Eyni zamanda bu xidmət sahələrinin yaradılması üçün sərmayə qoyuluşları başqa mənbələrdən gəlir. Bağlanmış müqavilələrin tərkib hissəsi olan yüzlərlə, minlərlə müxtəlif işlər və sifarişlər ortaya çıxır ki, bunların icrası əksər hallarda tender yolu ilə müəyyənləşdirilir. Həmin tenderlərdə isə bir yox, bir neçə şirkət iştirak edir ki, bunların da çoxu məcbur olur ki, ölkəmizin bu və ya digər ərazisində ofislər açsınlar və yerli işçilərin və şirkətlərin xidmətlərindən istifadə etsinlər. Bütün bunlar isə riskli yatırımlardır. Çünki tenderdə iştirakçılardan biri qalib ola bilər ki, onun sərmayəsi müvafiq kontraktın sayəsində ödənilir. Digərlərinin isə xərclərinin böyük qismi Azərbaycanın (vergilər yolu ilə) və Azərbaycan vətəndaşlarının qazancı olur.

Bütün bunlar göstərir ki, xarici investisiyanın respublikamıza axınının təmin edilməsi,son nəticədə sosial-iqtisadi inkişafın mühüm mənbəyinə çevrilir. Fikrimizi sübüt etmək üçün faktlara müraciət edək.

Belə ki, 1992-ci ilə kimi respublikada yox dərəcəsində olan xarici investisiya ölkə prezidenti H.Ə.Əliyevin apardığı düzgün siyasət nəticəsində 1995-2001-ci illərdə 6,9 milyard ABŞ dolları olmuşdur. 2001-ci ildə respublikamızda adambaşına 135 dollar xarici investisiya düşmüşdür. Xarici investisiyanın 71%-i neft-qaz sənayesinin, 29%-i isə qalan sahələrin payına düşür. İqtsadiyyatın mühüm inkişaf amili olan bu göstəriciyə görə Azərbaycan nəinki MDB ölkələrinin, hətta bazar iqtisadiyyatı prinsipləri əsasında çoxdan fəaliyyət göstərən Şərqi Avropa ölkələrini də ötüb keçmişdir.

Xarici ölkələrin təcrübəsi göstərir ki, investisiya qoyuluşu iri istehsaldan çox sahibkarlığın inkişafına istiqamətləndirilir. Qeyd edək ki, sahibkarlıqda bir iş yerinin dəyəri iri sənaye müəssisələrinə nisbətən 10 dəfə az, elmi-texniki yeniliklərə həssaslıq isə dəfələrlə yüksəkdir. Eyni zamanda inkişaf etmiş ölkələrin iqtisadi strukturunda kiçik istehsal müəssisələri 80%-dən çox olmaqla, ölkədə ümumi milli məhsul istehsalının 50%-ə qədərini təmin edir. Müxtəlif mülkiyyət formalarının yaranması ilə əlaqədar olaraq, iqtisadiyyatın strukturunda tədricən kiçikhəcmli istehsal müəssisələrinin sayı çoxalır. İqtisadiyyatda struktıır dəyişikliklərinin iri müəssisələrə nisbətən tez reaksiya verən, mobilliyi, dinamikliyi və kiçikhəcmli olması ilə fərqlənməsi günün vacib məsələlərindəndir.

Azərbaycanın xarici investisiyalarından istifadə etmək ölkənin beynəlxalq əmək bölgüsündə iştirakı və kapitalın sahibkarlığın istifadəsiz sahələrinə axması ilə bağlıdır. Xarici kreditlərin və humanitar köməyin dövlət orqanları vasitəsilə tələb olunması investisiyalardan səmərəli istifadə edilməsini çətinləşdirir və dövlət borcunun artmasına gətirib çıxarır. Buna görə də, xarici kapitalın ölkəyə cəlb edilməsi azad və qarşılıqlı partnyorlar əsasında, yeni iqtisadi əməkdaşlıq formasında, yəni müştərək firmaların yaradılması formasında aparılması daha məqbul hesab edilir.

Ümumiyyətlə, müştərək firmalar xarici partnyorlarla təsərrüfat-hüquqi əməkdaşlığın elə bir formasıdır ki, bunun əsasında birgə istehsal bazası yaradılır, Azərbaycan müəssisələrinin və xarici partnyorun mülkiyyətində olan məhsul istehsal olunur. Müştərək müəssisələrin ümumi mülkiyyətinin olması, onu beynəlxalq təsərrüfat əməkdaşlığının digər formalarından fərqləndirir (məsələn: beynəlxalq birlik və təşkilatlardan, kooperasiyalı və kompensasiyalı müqavilələrdən, barter ticarətindən və s.).

Xarici partnyorlara məxsus olan təşkilati idarəetmə səviyyəsinin yüksək olmasını nəzərə alaraq, müştərək firmalar respublikada iqtisadi mühitin formalaşmasına bilavasitə təsir edə bilmir, bazar münasibətlərinin formalaşmasını artırır və müəssisənin müstəqilliyini, real işgüzarlığını təmin edir. Bununla əlaqədar xarici sahibkarın müştərək firmaların işləməsində marağı olduğu üçün onu qabaqcıl iqtisadi prinsiplər sisteminin həyata keçirilməsinə məcbur edir.

Müştərək firmalar yarandığı vaxtdan etibarən daxili təsərrüfat mexanizminin xarici iqtisadiyyatla birləşməsinə hazır olan bir özəl qurum kimi çıxış edir, milli iqtisadiyyatın daha açıq halda formalaşmasına kömək edir. Xarici partnyorun mövcud olması müştərək firmaya xarici rəqabətin təsir etməsinə səbəb olur. Burada əsas əhəmiyyətli məsələ bununla əlaqədardır ki, birgə sahibkarlıq xarici iqtisadi əlaqələrdə, mikroiqtisadi səviyyədə, beynəlxalq əmək bölgüsündə iştirak etmək üçün özünə möhkəm baza formalaşdırmış olur. Bundan başqa, müştərək müəssisələr inzibati amirlik şəraitində iqtisadiyyatımızın bütün mərhələlərində kök salmış daxili bazarın formalaşmasına bir əngəl olan inhisarçı strukturun kökündən laxlamasına gətirib çıxarır.

Müştərək firmalar Azərbaycanın ixrac potensialını inkişaf etdirmək məqsədi ilə investisiyalardan intensiv istifadə etmək, idxalı dəyişdirmək, daxili bazarı çatışmayan məhsullarla doldurmaq imkanına malik olmaqla yanaşı, özündə olan elmi-texniki nailiyyətlərin tətbiq edilməsini, xarici idarəetmə təcrübəsinin cəlb edilməsini qısa müddətdə təşkil etmək imkanına malikdir. İqtisadiyyatımızda bu prosesin fəallaşdırılması daxili bazarın zəif inkişaf etməsi və onun müxtəlif əmtəə və xidmətlərə ehtiyacı olması, işçi qüvvəsi dəyərinin aşağı düşməsi, elmi-texniki potensialdan zəif istifadə edilməsi ilə əlaqədar olaraq qarşıda duran vacib məsələdir. Müştərək müəssisələrin bir spesifik cəhətini də göstərmək lazımdır ki, bu da kreditlər üzrə əməliyyatların aparılmasının səmərəliliyi ilə bağlıdır. Belə ki, müştərək müəssisələrin çoxmərhələli metodla inkişaf etdirilməsi əksər dövlətlərdə geniş yayılmışdır. Bu metod belədir ki, razılaşdırılmış ümumi məbləğin hamısı deyil, mərhələ-mərhələ alınması vəsaitin borc almış şəxsdə dondurulmasını aradan götürür və kreditdən istifadə olunmasına verilən faiz birdəfəlik götürülən məbləğə nisbətən az olur.

Qeyd etmək lazımdır ki, müştərək müəssisələrin böyük hissəsi kiçik müəssisələr formasında (işçilərin sayı 15-50 nəfər olmaqla) təsis olunur. İnkişaf etmiş ölkələrin iqtisadiyyatında belə müəssisələr yüksək xüsusi çəkiyə malikdir. Kiçik və orta müəssisələr ABŞ-ın ümumi daxili məhsulunıın 40%-ni istehsal edir. Yaponiya iqtisadiyyatındakı bütün müəssisələrin 99,2%-i bu qrup müəssisələrin payına düşür. 1990-cı ildə Böyük Britaniyada 2,4 mln-a qədər kiçik müəssisə (24-ə qədər işçisi olan) var idi. Bunlar ölkədə fəaliyyətdə olan xüsusi şirkətlərin 96%-ni təşkil edirdi.

Ümumiyyətlə, bazar iqtisadiyyatı yönümlü ölkələrin təsərrüfatında müştərək firmalar kiçik müəssisələr kimi aşağıdakı funksiyaları həyata keçirir: a) eyniadlı məhsulun istehsalçılarının sayını artırmaqla rəqabəti təmin edir. Məhz rəqabət mexanizminin saxlanılmasında onlar əvəzedilməz rola malikdirlər; b) istehlakçıların dəyişən tələbatını tez təmin edir, yüksək mobilliyə və çevikliyə malikdirlər, bazarın tələblərinə operativ reaksiya verirlər, tələb olan ən cüzi dəyişikliyi belə hiss edirlər və s.) ixtira və kəşflərin, texnoloji yeniliklərin (innovasiyaların) istehsala tətbiqində əvəzsizdirlər.

Hazırda Respublikamızda fəaliyyət göstərən müştərək müəssisələrin təcrübəsi göstərir ki, onlar elmtutumlu məhsulların, eləcə də uzunmüddətli istifadə olunan istehlak

məhsullarının istehsalı istiqamətində dərin bir irəliləyişə malik olmamışlar. Elmi texniki əməkdaşlıq sahəsində maraqlı olan xarici firmalar ölkəyə hələlik çox az cəlb edilmişdir.

Aşağıdakı cədvəldə 1994-2000-ci illərdə Azərbaycan Respublikasında fəaliyyət göstərən müştərək müəssisələrin təsərrüfat fəaliyyətini xarakterizə edən məlumatlar verilmişdir. Göründüyü kimi, müştərək müəssisələr əsasən 1996-cı ildən başlayaraq geniş vüsət almış və 2000-ci ildə onların sayı 1247-yə çatmış, yaxud 5,2 dəfədən çox artmışdır. Bu müəssisələrdə işləyənlərin sayı da artmış, 6174 nəfərdən 21426 nəfərə çatmışdır. Həmin müəssisələrdə istehsal olunan məhsul (xidmətin) satışından əldə olunan gəlirlər də xeyli çoxalmışdır (10,5 dəfədən çox). İstehsalla məşğul olan müştərək və xarici müəssisələrin sayı onların ümumi sayının 1994-cü ildə 37,7%-ni, 1997-ci ildə 33,9%-ni, 2000-ci ildə isə 23,5%-ni təşkil etmişdir. Lakin işləyənlərin böyük əksəriyyəti, yəni 1994-cü ildə 88,9%, 2000-ci ildə 65,5% məhz istehsal təmayüllü müəssisələrdə çalışmışlar.

Bununla belə, göstərmək lazımdır ki, hazırda respublikamızda yaradılmış müştərək və xarici müəssisələrin fəaliyyət dairəsi istənilən səviyyədə deyil. Müştərək müəssisələrin fəaliyyətini məhdudlaşdıran təşkilati, normativ, hüquqi maneələr tam aradan qaldırılmamış, onların hərtərəfli və məqsədyönlü fəaliyyətinə şərait yaradılmamışdır. Göstərmək lazımdır ki, müştərək müəssisələri xarakterizə edən tam, daha geniş statistik məlumatlar yoxdur. Qeydiyyatdan keçən müştərək müəssisələr haqqında Azərbaycan Dövlət Statistika Komitəsi 1994-1999-cu illər üzrə verdiyi məlumatlardan yararlanaraq, müəyyən bir təhlil aparmaq mümkün deyil. Fəaliyyət göstərən müəssisələrin və orada işləyənlərin sayı, məhsul satışından toplu halında 1996-1997-ci illər üçün və yalnız istehsal və qeyri-istehsal bölmələr üzrə verilmişdir. Apardığımız hesablamalara görə müştərək müəssisələrin Nizamnamə fondu 122,0 min ABŞ dollarına çatır ki, bu məbləğin də 49,5%-i xarici kapitaldır.

Cədvəl. Azərbaycan Respublikasında 1994-2000-ci illərdə fəaliyyət göstərən müştərək və xarici firmaların əsas iqtisadi göstəriciləri

İllər	Müəssisələrin sayı				Onlarda işləyənlərin sayı				Məhsul satışından gəlir			
	cəmi		onlardan		cəmi		o cümlədən		cəmi		o cümlədən	
	miq-darı	%	İstehs-al sferası	Qeyri-istehsal sferası	nəfərlə	%	İstehsal sferası (nəfər)	Qeyri-istehsal Sferası (nəfər)	Milyon. man	%	İstehsal sferası (mln.m)	Qeyri-istehsal Sferası (mln.m)
1994	236	100,0	89	147	6174	100,0	4935	1239	21.314,2	100,0	18948	2365,3
1995	293	124,1	110	183	7027	114,3	4481	2549	31.868,9	149,5	7976,9	23892,0
1996	468	198,3	173	295	12340	199,8	7093	5217	53285,5	250,0	12542,5	40743,0
1997	717	303,8	243	474	15421	250,8	7533	7888	83800,5	393,2	18341,1	65459,4
1999	1247	528,4	294	953	21426	348,6	8844	12582	223492,5	1048,5	146745,6	76746,9
2000	1247	528,4	294	953	21426	348,6	8844	12582	223910,0	1050,5	146745,6	77164,4

1995-ci il üçün olan statistik məlumata görə respublikamızda dünyanın əksər ölkələri ilə yaradılmış müştərək müəssisələr qeydiyyata alınmışdır. O cümlədən, Türkiyə (360 müəssisə), İran (199), Rusiya (58), Almaniya (34), Böyük Britaniya (14), İsveçrə (14), Belçika, Danimarka, Fransa, Çin və s. ölkələrlə

Nizamnamə kapitalı böyük olan birgə müəssisələr içərisində aşağıdakılar seçilir: "Azkilatar" (227 min dollar), "Azər Çin" (216 min dollar), "Anar - Vahid" (211 min dollar), "Milad" (60 min dollar), "Azot - konsalitinq" (40 min dollar), "Bakmil" (38 min dollar).

Azərbaycanda fəaliyyət göstərən müştərək müəssisələrin böyük qismi xidmət sferasındadır. Onlar öz işlərini əsasən bu istiqamətlərdə cəmləşdirmişlər: Beynəlxalq turizm (Hotel); turist kruizlərinin təşkili; müxtəlif növlərdə xarici turistlərə xidmət və s.; ictimai iaşə; xaricdən göndərilən maşın və dəzgahlara xidmət; sosial məişət xidməti; avia, maşın servisi; pərakəndə ticarət obyektləri; xarici ticarət reklamı; məsləhət xidməti; xarici ticarət vasitəsi; bank işi; sığorta, informasiyaların yaranması və s.

Respublikada fəaliyyət göstərən digər firmaların sahələr üzrə quruluşunun təhlili göstərir ki, müştərək müəssisələrin böyük əksəriyyəti yüngül sənaye, geniş xalq istehlakı malları ilə məşğuldurlar. Kənd təsərrüfatı avadanlıqları, eyni zamanda kənd təsərrüfatı və yeyinti məmulatları istehsalı ilə məşğul olan firmalar da azlıq təşkil etmir.

Təhlil göstərir ki, respublika üzrə müştərək firmaların 941-i Bakı şəhərinin payına düşür, inzibati rayonların isə demək olar ki, cəmi bir neçəsində müştərək müəssisə fəaliyyət göstərir. Müştərək firmaların bu cür ərazi quruluşunu şərtləndirən səbəblər bunlarla əlaqələndirilə bilər ki, Bakı şəhəri daha böyük istehsal potensialına malikdir, burada istehsal və qeyri-istehsal infrastrukturu yüksək dərəcədə inkişaf etmişdir; yüksək səviyyəli mütəxəssis və fəhlə kadrları burada cəmlənmişdir; rayonların əhalisi isə əsasən kənd təsərrüfatı istehsalına istiqamətləndirilmişdir və burada zəruri informasiyanın və biliklərin əldə olunması ilə bağlı bir çox problemlər mövcuddur.

Bütün bunlara görə dövlətin regional siyasəti iqtisadi rayonlarda müxtəlif təsərrüfatçılıq formalarının inkişafına, onların istehsal potensialından səmərəli istifadəyə və xarici bazara rəqabət qabiliyyətli malların çıxarılması imkanlarının genişləndirilməsinə daha çox yönəlməlidir. Respublikanın iqtisadi inkişaf səviyyəsinə görə nisbətən geri qalmış iqtisadi rayonlarında müştərək və xarici investisiyalı müəssisələrin təşkilinə dövlətin tənzimləmə mexanizminin təsiri gücləndirilməlidir.

Eyni zamanda respublika xarici investisiyaların ölkəyə cəlb edilməsində mühüm əhəmiyyətə malik olan müştərək və 100%-li xarici firmaların formalaşması, fəaliyyəti və inkişaf perspektivləri haqqında ayrıca dövlət siyasəti aparılmalıdır. Xarici investisiyaların cəlb edilməsini stimullaşdırmaq, onun çevik idarə edilməsini təmin etmək məqsədi ilə "Azad iqtisadi zonalar haqqında", "Konsorsium müqavilələri haqqında" qanunlar qəbul olunmalı, "Xarici investisiyaların qorunması haqqında" qanuna əlavə və dəyişikliklər edilməli, birbaşa xarici investisiyalar üçün genişmiqyaslı infor-

masiya sistemi təşkil olunmalı, xarici investisiyaların iştirakı ilə yaradılan müəssisələrin Azərbaycan Respublikası ərazisində qeydiyyatı sistemi sadələşdirilməli, yerli və xarici investisiyalar üzrə təkmilləşdirilmiş statistik hesabat sistemi sadələşdirilməlidir və s.

Müştərək firmalara respublika hökuməti tərəfindən daimi qayğı göstərilməli, dəstəklənməlidir. Bu belə müəssisələrin inkişafına səbəb olur. Partnyorlar arasında bağlanmış müqavilənin şərtləri bu müqavilənin bütün müddət ərzində və hətta bağlandıqdan sonra qanunvericiliklə subyektlərin vəziyyətini pisləşdirən şərtlər müəyyən edildikdə belə, əgər bunlar müqavilə şərtlərinin dəyişdirilməsi barədə razılığa gəlməlidirsə, qüvvəsini saxlamalıdır. Dövlət orqanları qanunvericilikdə yol verilən hallardan başqa, fəaliyyətə başçılıq edən subyektlərin işlərinə qarışmamalı, onların hüqüqlarını pozan aktlar qəbul etdikdə bu müəssisələrə dəyən zərəri tam həcmdə ödəməlidirlər.

Qeyd olunduğu kimi, xarici investisiyaların respublika iqtisadiyyatına cəlb edilməsi və burada müştərək müəssisələrin yaradılması bir çox cəhətdən müvafiq uçot, hesabat və təhlil sisteminin formalaşması və inkişafı ilə bağlıdır. Deyilənlər, xüsusilə istehsal məsrəflərinin uçotu və təhlilinə aiddir. Araşdırmalar göstərir ki, son dövrlərdə, bütövlükdə uçot, hesabat və təhlil sistemində nəzərəçarpacaq metodoloji və praktik işlər görülsə də, xərclərin uçotu, məhsulun maya dəyərinin kalkulyasiyası metodları və qaydaları, xərclərin iqtisadi səmərəliliyinin təhlili metodikası və göstəricilər sistemində ciddi dəyişikliklər baş verməmişdir. Halbuki, xarici firmalar, eləcə də müştərək müəssisələr üçün investisiya qoyuluşu üçün hər şeydən öncə xərcdir. Xərclərin düzgün uçotu və təhlili onların nə dərəcədə səmərəli və mənfəətli olması haqqında lazımi və obyektiv informasiya verməlidir. Əks halda heç bir xarici firma investisiya riski etmək istəmir. Beləliklə də xərclərin uçotu və təhlilinin yenidən qurulmasının zəruriliyi meydana çıxır.

Nəticə

Xərclərin uçotunun səmərəli təşkilinin mühüm şərtlərindən biri onların elmi cəhətdən əsaslandırılmış təsnifatıdır. Araşdırmalar göstərir ki, MDB ölkələrində o cümlədən də Azərbaycanda xərclərinin təsnifatı, demək olar ki, eyni əlamətlər üzrə aparılır. Bu da ondan irəli gəlir ki, keçmiş Sovet məkanında xərclərin vahid uçot sistemi olmuş və onların təsnifatı da eyni cür aparılır. Qərb uçot sistemində isə istehsal xərclərinin vahid təsnifatı aparılmalıdır.

Araşdırmalar göstərir ki, müştərək müəssisədə istehsala məsrəflərin uçotu, məhsulun maya dəyərinin tərkibi və maya dəyərinin kalkulyasiyası mövcud normativ sənədlər və təlimatlar çərçivəsində aparılır. Zənnimcə bu, daha düzgündür, çünki bəzi iqtisadçıların təklif etdikləri kimi, respublikada fəaliyyət göstərən müştərək müəssisələrdə uçot və hesabın qərb ölkələrində mövcud olan standartlar əsasında

aparılması ölkəmizdə vergiqoymanın, maliyyə və audit nəzarətinin vahid qaydalarının tətbiqinə imkan verər.

Ədəbiyyat

[1] Seyfullayev S.M., Abbasov İ.M. Bazar münasibətlərində iqtisadi təhlil. Bakı, Ergün 1993, 176s.
[2] "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunu, Biznesmenin bülleteni, № 2, 1995, Bakı.
[3] "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının qanunu, Bakı 24 mart, 1995.
[4] "Müəssisələr haqqında" Azərbaycan Respublikasının qanunu, 1 iyul 1994-cü il.
[5] Əliyev R.B. İqtisadi təhlil nəzəriyyəsi, Bakı, 2000.
[6] Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında əsasnamə, 19 sentyabr, 1995-ci il, № 15.
[7] Abbasov Q.Ə. İstehsal xərclərinin uçotu, "Maliyyə və uçot", iyun №3-4;5-6;19, 1990.

Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri, İl 3, Cilld 3, İyul – Sentyabr, 2015, səh. 48-58
Scientific Reviews in Azerbaijan State University of Economics, Year 3, Volume 3, July -September, 2015, pp. 48-58

THE IMPACT OF MANAGERIAL POLITICS AND ENVIRONMENTAL FACTORS TO THE SHAPE OF ORGANISATIONAL STRUCTURE

M.F.Garayev
Visiting Lecturer, ASEU
Human Resources specialist, SOCAR
Tel: (+99477) 9100009
e-mail: mahirqarayev@yahoo.co.uk

Məqalə redaksiyaya daxil olmuşdur 20 avqust 2015; Çapa qəbul edilmişdir 15 sentyabr 2015; elektron çap edilmişdir 6 oktyabr 2015.
The article was received 20 Augast 2015; accepted 15 September 2015; published online 6 October 2015.

Abstract

Organisational design involves crucial, subtle and highly challenging processes in occurring simultaneously within contemporary work structuring in order to achieve the overall strategic goals of an organisation. The current business processes pressure on firms to redesign their organisational structure in order to correspond to continuous business challenges. The aim of the paper is, through analysing contingency theory and strategic choice from contemporary business perspective, provide managers an essential guideline while design or restructuring organizations. In the paper, the author initially administered detailed analysis method to define advantages and disadvantages of both approaches to organisational design, and then applying theoretical comparative method to the findings, determined to the what extent both: environmental contingencies and managerial choice impact on organisational structuring. The main drawback of the article is that the issue is mainly studied from theoretical perspective. Furthermore, the lack of information about local companies polices on organisational design decision making is another constrain of the research. However, filling a big gap on the topic in local academic literature, the study will provide a robust base for researchers to learn this strategic issue and contribute to managers while designing organizational structures.

Key words: organisational design, contingency theory, strategic choice, network structures, contextual constraints

Jel Classification: L16

İDARƏETMƏ QƏRARLARI VƏ ƏTRAF MÜHİT AMİLLƏRİNİN ŞİRKƏTLƏRİN TƏŞKİLATİ STRUKTURUNUN FORMALAŞDIRILMASINA TƏSİRİ

Xülasə

Beynəlxalq təşkilatların yaranması və fəaliyyət göstərməsinin digər daşlıca səbəbi ondan ibarətdir ki, siyasi, iqtisadi və sosial həyatın müxtəlif sahələrində meydana çıxan və bütün dünya ölkələrinin birgə fəaliyyət göstərməsini tələb edən qlobal miqyaslı problemlər mövcuddur: bunlar - insan haqlarına əməl etmək, demoqrafik, ekoloji (iqlimin dəyişməsi, su ilə təchizetmə) problemlər, kosmosun istifadə edilməsi, dünya iqtisadiyyatının qeyri-sabitliyi və s. Təşkilatların bir çoxu bu yaxud digər problemlərin böhran halında kəskinləşməsi zamanı meydana gəlir, onların bir qismi öz maraqlarına malik olan yeni ölkə qruplarının dünya səhnəsinə çıxması ilə bağlıdır, bu ölkələr – müstəmləkə sisteminin dağılması nəticəsində meydana gəlmiş, inkişaf edən, yaxud keçid iqtisadiyyatına malik olan ölkələrdir.

Məqsəd və vəzifələrindən asılı olaraq beynəlxalq iqtisadi təşkilatlar bir neçə qrupa bölünür. Birinci qrupa beynəlxalq münasibətlərin ümumi şəkildə tənzim edilməsini həyata keçirdən təşkilatlar daxildir, bu – BVF, Dünya Bankı və ÜTT-r. Müəyyən məsələlər üzrə qərar və tövsiyyələr işləyən təşkilatların ikinci qrupa aid edilir (misal üçün BMT-nin komitələri, komissiyaları, fondları və proqramları). Məlumatın toplanmasını təmin edən və iqtisadiyyatın aktual problemləri üzrə statistik və elmi-tədqiqat xarakterli materialları hazırlayan təşkilatlar üçüncü qrupa daxil edilir.

Müəyyən təşkilatlar isə yuxarıda sadalanan funksiyaların hamısını yerinə yetirir.

Qərb tədqiqatçısı X.A.Şreplerin də təklif etdiyi təsnifatda beynəlxalq təşkilatlar üç əsas qrupa bölünür:

1) beynəlxalq kommunikasiya vasitələrinin tənzim edilməsi kimi xüsusi texniki məsələlərin həlli ilə məşğul olan inzibati təsisatlar;

2) beynəlxalq mübahisələr üzrə araşdırma, qərar çıxartma yaxud mübahisə iştirakçılarının barışdırılması institutları;

3) kollektiv təhlükəsizliyin təmin olunması və bir çox məsələlər ətrafında əməkdaşlıq aparmağa köməklik göstərən ümumi xarakterə malik olan beynəlxalq təşkilatlar.

Bununla yanaşı, beynəlxalq təşkilatların ümumdünya və regional səviyyələr üzrə bölgü mövcuddur. Fəaliyyəti müxtəlif qitələri əhatə edən bütün təşkilatlar birincilərə aid edilir (misal üçün BMT-nin təsisatlar sisteminin institutları). İkincilərə isə, misal üçün regional inkişaf banklarını aid etmək olar. Bir regionda bir sıra beynəlxalq təşkilat fəaliyyət göstərə bilər, onların burada toplanması və fəaliyyət istiqamətləri həmin regionda yaşayan ölkələrin tələbatı və sosial-iqtisadi problemləri ilə əlaqədardır.

Milli valyutaların sabitliyinin təmin edilməsi, ticarətdə maneələrin aradan qaldırılması, beynəlxalq iqtisadi münasibətlərin ən vacib problemləri ilə əlaqədar onların öyrənilməsi və ölçü götürülməsi və i.a., - ölkələrarası iqtisadi əməkdaşlıq sahəsində fəaliyyət göstərən təşkilatların əsas məqsədini bildirir. Beynəlxalq maliyyə institutları beynəlxalq təşkilatları sırasında xüsusi yerə malikdir. Dövlət və regionların, onlar arasında əməkdaşlığın inkişaf etməsi problemlərinin beynəlxalq millətüstü səivyyədə həll etmək, mürəkkəb və ziddiyyətli xarakterə malk olan dünya təsərrüfatının bütövlüyü və sabitliyinin təmin olunması – bu qurumların yaradılmasında əsas məqsəddir. Hərtərəfli təhlil nəticəsində beynəlxalq maliyyə təşkilatlarının apardığı fəaliyyətinin konkret məqsədlərini fərləndirmək olar:

- dünya iqtisadiyyatının sabitləşməsi naminə maliyyə, siyasi, intellektual imkanların birləşdirilməsi;
- dünyanın ayrı-ayrı ölkə və regionlarının iqtisadi inkişafına yardım göstərilməsi;
- dünya təsərrüfatının qlobal problemlərinin həll edilməsi, onun inkişafının strategiya və taktikasının birgə işlənməsi və koordinasiyası.

Dünya iqtisadiyyatının inkişafında əhəmiyyətinə görə üç əsas beynəlxalq iqtisadi təşkilatın adı çəkilir, bunlar - BVF, Dünya Bankı və ÜTT-r. Onlardan ikisi, yəni – BVF, Dünya Bankı hələ 1944-cü ildə keçirilmiş Bretton-Vud konfransında yaradılmışdır (onları müvafiq olaraq tez-tez Bretton-Vud institutları kimi təqdim edirlər). Ekspertlər dəfələrlə belə bir fikir söyləmişlər ki, 1944-cü ildə həmin təşkilatlara verilmiş bu mandat müharibədən sonrakı on il ərzində dünya iqtisadiyyatının inkişaf meylləri və şəraitinə tam şəkildə uyğun idi. Eyni zamanda 1960-cı

illərdə dünya xəritəsində meydana gəlmiş bir çox inkişaf edən ölkələrin inkişafına köməklik göstərilməsi məsələlərini və XX əsrin sonuncu onilliklərində şəxsi kapitalın böyük transsərhədlərdən keçirilib ötürülüb keçirilməsi ilə səciyyələnən maliyyə-valyuta problemlərini həll etmək işinə BVF və Dünya Bankı tam şəkildə hazır olmamışdır. Nə 1970-ci və ondan sonrakı illər ərzində BVF-nun nizamnaməsində aparılan düzəlişlər, nə də 1990-cı illərdə bu təşkilatların apardığı siyasətin müəyyən dərəcədə təkamülü prinsip etibarilə vəziyyəti dəyişməmişdir. Bretton-Vud qurumlarının tənzimetmə imkanları, vasitə və tövsiyyələri hələ ki, məhdud halda mövcuddur. Dünya təsərrüfatının beynəlxalq səviyyədə tənzim edilməsində və qloballaşma dövründə mövcud olan bazarın qlobal uğursuqluqları kimi son illər ərzində bir ölkədən digərinə sürətlə keçən və dünyanın müxtəlif bölgələrində baş verən maliyyə böhranlarının neytrallaşdırılmasında onların fəaliyyəti müasir tələblərə tam şəkildə cavab vermir. Bir çoxları belə fikir söyləyirlər ki, 1990-cı illərin ortaların da və ikinci yarısında beynəlxalq maliyyə təşkilatları baş vermiş həmin böhranların təbiətini düzgün qiymətləndirməmiş və onların əhatə etdiyi ölkələrə operativ şəkildə kömək göstərə bilmədikdən sonra böhranlı hallar digər ölkələrdə yayılmağa başlanmışdır.

Digər bir cəhəti qeyd edək. Müharibədən sonra son 20-30 il ərzində kəskinləşmiş, faktiki fasiləsiz davam edən dünyanın borc böhranı onunla bağlı olan sürətli kreditləşməyə ehtimal edilən tələbatın olması ilə müqayisədə BVF-nun maliyyə ehtiyatlarının tədricən nisbətən tükənməsi baş verirdi. Ş.Fişerin apardığı hesablamalara görə, əgər 1945-ci ildən sonra Fondun maliyyə imkanları dünyanın ən çox inkişaf etmiş ölkələrə məxsus olan gəlirin dinamikasına uyğun olaraq artmış olsaydı həmin maliyyə indiki zamanla müqayisədə üç dəfə artıq olmalı idi. Onların dünya ticarətinin artım templərinə onların uyğun olduğu təqdirdə isə BVF-a məxsus olan ehtiyatları 9 dəfə artırmaq, yəni 2,5 trln.dollara qədər çatdırmaq tələb olunardı [8, s.96].

Nəticədə BVF və DB-n fəaliyyət və strategiyasında islahatların aparılması və onların dünyanın yeni iqtisadi şəraitinə uyğunlaşması zəruriyyəti siyasi simasından asılı olmayaraq tədqiqatçıların bir çoxu tərəfindən qəbul olunur. Misal üçün, bu məsələyə dair Rusiya tədqiqatçısı A.Elyanov haqlı olaraq qeyd edir ki, "dünya təsərrüfat münasibətlərinin inkişafında bazar və tənzimetmə amillərinin birləşməsini optimallaşdırmağa və inkişaf edən və keçid iqtisadiyyatına malik olan xeyli sayda dövlətin istinad etdiyi əsasları dağıtmağa çalışan qeyri-mütəşəkkil qüvvənin mənfi təsirini dəf etməyə yönəlmiş" qlobal səviyyədə digər tənzimetmə "modelindən istifadə olunmasını tələb edir"[9, s.13] Refleksivlik nəzəriyyəsini işləyən və ona istinad edən C.Soros maliyyə, o cümlədən, qlobal bazarlara immanent şəkildə xas olan qeyri-müəyyənlik və qeyri-sabitlik haqqında fikir söyləyir və bununla əlaqədar belə nəticəyə gəlir ki, "özünü tənzimetmə mexanizminə tam amilə arxayın olmağımıza baxmayaraq maliyyə bazarlarının sabitliyi dövlət institutları tərəfindən təmin olunmalıdır" [10, s. 14] BVF-nun ekspertləri isə "yeni beynəlxalq maliyyə

memarlığının" yaradılması zəruriyyəti haqqında söhbət açır.

XX əsrin sonunda Bretton-Vud institutlarının apardıqları fəaliyyətini yüksək səmərəliliyi ilə seçilməməsi Amerikanın Miras Fondunun ekspertləri tərəfindən təqdim edilmiş göstəricilərdə öz təsdiqini tapır. Onların fikrincə, böhranların baş verməsi təhlükəsinin aradan qaldırılması istiqamətində BVF və DB heç kimə ciddi köməklik göstərə bilməmişdir. 1986-1997-ci illər ərzində BVF-nun köməklik göstərdiyi 54 ölkədə adam başına düşən MMG-nin artımı həmin 12 il ərzində cəmi 4% təşkil etmişdir. Eyni zamanda kömək almaq məqsədilə BVF-a müraciət etməyən ölkələr də həmin müddət ərzində adam başına düşən MMG-n göstəriciləri 24%-ə qədər artmşdır. Son 30 il ərzində Dünya Bankı 68 ölkəyə köməklik göstərmiş və onların bir çoxu iqtisadi yüksəlik baxımından elə bir ciddi uğur qazana bilməmişdir, hər biri orta hesabla 1,4 mlrd.dollar məbləğində yardım almış 20 ölkədə adambaşına düşən MMG-in miqdarı 21,7% aşağı düşmüşdür.

Bu formada qiymətləndirilən nəticələr onunla izah edilir ki, yardımı alan ölkələr zəruri dəyişikliklərin aparılması üçün stimullardan əl çəkir, borc verən qurum kimi çıxış edən beynəlxalq maliyyə təşkilatların köməyinə arxalanan hökumətlər riskli və məsuliyyətsiz iqtisadi siyasətin aparılmasına imkan yaradırdılar. Fonda məxsus vəsaitlərin dağıdılmasına göz yuman BVF-nun ekspertləri tərəfindən verilən tövsiyələr islahatların məcburi qəbul etdirilməsinə gətirib çıxardırdı. Bu islahatlar yardım qəbul edən ölkələrin hazırki vəziyyətinə və itisadi inkişafın tələblərinə heç də həmişə cavab verməmiş və bir çox hallarda onların mövcud olandaxili problemlərini mürəkkəbləşdirmişdir.

Beynəlxalq maliyyə təşkilatları tərəfindən ayrılan vəsait ancaq gündəlik büdcə kəsirinin ödənilməsinə sərf edildiyi təqdirdə yardım qəbul etməsinin yeganə nəticəsi ondan ibarət olmuşdur ki, xarici borc öhdəliklərinin artırılması hesabına bu ölkələrdə mövcud olan iqtisadi şərait müvəqqəti olsa belə yaxşılaşmışdır. Onların artması ilə borclar üzrə faizin ödənişi və sonrakı ödənişlər zəruriyyəti milli iqtisadiyyatların inkişaf imkanlarını məhdudlaşdırırdı. Gündəlik problemlərini müstəqil həll edən dövlətlər borc götürməməklə öz iqtisadiyyatını çətinə salmayaraq bir çox hallarda daha əlverişli inkişaf imkanlarına malik olmuşlar.

Son illər ərzində regional dövlətlərarası təşkilatların yaradılmasında sözün müəyyən mənasında partlayış baş vermişdir. Burada Şanxay əməkdaşlıq təşkilatının, Şərqi Asiya forumunun (Çin, Yaponiya, Cənubi Koreya), Avrasiya iqtisadi birliyinin (Rusiya, Belorusiya, Qazaxıstan, Qırğızıstan, Tacikistan), Çin və ASEAN ölkələri və həmçinin, Yaponiya və Sinqapur arasında yaradılan azad ticarət zonalarının və digərlərinin adını çəkmək olar. Belə ki, Çin və ASEAN arasında azad ticarət zonasının yaradılması 10 il ərzində həyata keçirilməlidir.

Müasir zamanda baş verən inkişafı xas olan digər yeni əlamət artıq fəaliyyətdə olan, yaxud yeni yaradılan təşkilatların müxtəlif istiqamət və müxtəlif məqsədli

xarakter daşımasının malik olduğuna keçidi ifadə edən meyeltmə – müasir inkişafın digər yeni cəhətlərindən biridir. Məsələn, diskussiyaların predmeti ancaq iqtisadi məsələləsi olan əvvəlki illərdən fərqli olaraq 2001-ci ildə Asiya-Sakit okean iqtisadi əməkdaşlıq forumu (ASİƏ) tərəfindən keçirilmiş sammitdə beynəlxalq terrorizmə müqafimət göstərmək haqqında böyük siyasi məsələ ilk dəfə müzakirə edilmişdir. Bu yeniliyin baş verən hadisələrə reaksiyanın verildməsi yaxud sabit xarakterə malik olmasının araşdırılması vacib əhəmiyyət kəsb edir.

Nəticə

Belə qənaətə gəlmək olar ki, qloballaşmanın hərəkətverici qüvvələri qlobal proseslərin daha konkret amillərin təcəssüm edir. Dünya iqtisadiyyatında qloballaşma proseslərinin yaranması və təkamülünə təsir göstərən əsas amillər srasında aşağıdakıları göstərmək mümkündür:

- ölkələr arasında iqtisadi qarşılıqlı asılılığın kəskin şəkildə güclənməsi; dünya birliyindən tam şəkildə təcrid olunmaq və inkişafında tənəzzülə uğramaq təhlükəsi olmadan heç bir ölkə hal-hazırda dünya iqtisadiyyatından kənarda qala bilməz; son zamanlar praktik olaraq bütün dünya ölkələrində iqtisadiyyatın açıqlıq səviyyəsi sürətlə artır; kapitalın ölkələrarası hərəkəti və beynəlxalq ticarətin artması sayəsində dünyanın iqtisadi məkanı çərçivəsində baş verən proseslərin milli iqtisadiyatlara təsir etməsi daha intensiv şəkildə özünü birüzə verir.
- aqrar-xammal məhsulları ilə mübadilənin beynəlxalq ticarət çərçivəsində sıxışdırılması və hazır məhsullar ilə ölkələrarası mübadilə payının artması zamanı beynəlxalq əmək bölgüsünün yeni keyfiyyət halının formalaşması; bir sahə daxilində aparılan ticarətin əhəmiyyəti artır;
- dünya maliyyə bazarının milli seqmentləri arasında əlaqələrin güclənməsi və daha da inteqrasiyalı qlobal maliyyə bazarının formalaşması;
- müxtəlif ölkələrdə yerləşən və ərazi cəhətdən bir-birindən ayrılmış təsərrüfat həyatının fərdi və ictimai subyektləri arasında daimi əlaqənin saxlanması üçün şərait yaradan informasiya və telekommunikasiya inqilabı;
- rəqabət aparmaq üçün yerli üstünlüklərin daha da səmərəli istifadəsinə nail olmağa gətirib çıxardan bütün dünyada istehsal və digər bölmə və filialların yerləşdirilməsi böyük texnoloji və maliyyə imkanlarına malik olan transmilli korporasiyaların fəaliyyət dairəsini qlobal şəkildə genişləndirmişdir;
- inkişaf edən və keçid iqtisadiyyatına malik olan ölkələrin beynəlxalq miqyasda kreditlərin verilməsi, sərmayə qoyulması və əmək miqrasiyası proseslərinə və beynəlxalq ticarətə cəlb olunma səviyyəsinin artması;
- dünya iqtisadiyyatı subyektlərinin strukturunun mürəkkəbləşməsi, yəni, milli dövlət və özünün fəaliyyət dairəsinə görə əsasən milli kompaniyalarla yanaşı, bütün dünyada TMK və TMB-lər, beynəlxalq iqtisadi təşkilatlar, regional təşkilatlar, o

cümlədən, inteqrasiya birlikləri və eyni zamanda qeyri-dövlət təşkilatları, iri şəhərlər və hətta ayrı-ayrı insanlar da fəallıq nümunəsi göstərir.

Ədəbiyyat

[1] Шишков Ю.В. Мировая финансовая система: необходимость реформ// Мэ и МО.1999.№11.с.3-4

[2] Кузнецов В. Что такое глобализация?// МЭ и МО. 1998. №2. С.17

[3] Ohmae K.The Bordless World; Power and Strategy in the interlinked Economy. Fontana, 1990.

[4] Badie B. La fin des territories. Paris, 1995.

[5] Черковец О. Глобализация сотрудничества или конкуренции?// Экономист.2002.№10.

[6]La Porta R, Loper-de-Silanes F.,Shlepifer A.,Vishny R.Quality of Qovernment//NBER, Workinq Paper N6727. Cambrid ge, 1998.P.7,37.

[7] Государства в меняющемся мире: Отчет о мировая развитии за 1977г. Всемирный банк, 1997. С.1

[8] Fisher S. On the Need for Need for an International Lender of Last Resort//Journal of Economic Perspectives. 1999. N4. P.96

[9] Эльянов А. Глобализация и расслоения развивающихся стран// МЭ и МО. 2000.№6.с.13

[10]Сорос Дж.Открытое общества. Реформируя глобальный капитализм. М.,2001.с.14

Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri, İl 3, Cilld 3, İyul – Sentyabr, 2015, səh. 71-89
Scientific Reviews in Azerbaijan State University of Economics, Year 3, Volume 3, July -September, 2015, pp. 71-89

AZƏRBAYCAN RESPUBLİKASINDA SAHİBKARLIĞIN İNKİŞAFININ İNSAN POTENSİALINA TƏSİRİNİN TƏDQİQİ

T. Nəcəfova
i.e.n. AMEA İİ
e-mail: tarana1@mail.ru

Xülasə

Tədqiqatın əsas məqsədi sahibkarlığın inkişafının insan potensialına təsirini öyrənməkdən ibarətdir. Bunun üçün ölkəmizdə sahibkarlığın formalaşması və inkişaf tendensiyası analitik ümumiləşdirilmişdir. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, ölkədə sahibkarlığın inkişafı istiqamətində atılan önəmli addımlar, sağlam biznes mühitinin daha da əlverişli olması üçün yaradılan real şərait bütün istiqamətlərdə olduğu kimi, sosial-iqtisadi sahədə də yüksək nəticələrin əldə edilməsinə şərait yaratmışdır. Tədqiqat işi əsaslı və sistemli təhlil üsulları əsasında yerinə yetirilmişdir. Tədqiqatın elmi yeniliyi və orijinallığı: maliyyə mənbələrinin əlçatan olmasını təmin etmək üçün ilk növbədə sahibkarlara dövlət dəstəyi proqramında bir sıra struktur dəyişikliyi edilərək fondu daha işlək və şəffaf hala gətirmək vacibdir.

Açar sözlər: sahibkarlıq, iqtisadi inkişaf, insan potensialı, innovasiya, iqtisadi mühit.
JEL Classification Codes:

STUDY OF BUSINESS DEVELOPMENT IN AZERBAIJAN REPUBLIC FOR HUMAN POTENTIAL

Abstract

The main objective of the study to examine the effects on the human capacity development of entrepreneurship in Azerbaijan. To do this analytically summarizes trends in the formation and development of entrepreneurship in our country. As a result of the study, it was found that taken in the direction of the development of entrepreneurship in the country, important steps, the real conditions created for more favorable healthy business environment, as well as in all directions, created the conditions for the achievement of good results and the socio-economic area. The research work was carried out on the basis of a thorough and systematic methods of analysis. Novelty and originality of research: to ensure the availability of financial resources in the first place, bringing in a more efficient and transparent form of funds allocated in the program of state support to entrepreneurs, through a series of structural changes in the program.

Keywords: entrepreneurship, economic development, human capital, innovation, and economic environment.

ИССЛЕДОВАНИЕ ВЛИЯНИЯ РАЗВИТИЯ ПРЕДПРИНИМАТЕЛЬСТВА НА ЧЕЛОВЕЧЕСКИЙ ПОТЕНЦИАЛ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

Резюме

Основная цель исследования в изучении влияния на человеческий потенциал развития предпринимательства в Азербайджанской Республике. Для этого аналитически обобщены тенденции формирования и развития предпринимательства в нашей стране. В результате исследования, было установлено, что предпринятые, в направлении развития предпринимательства в стране, важные шаги, реальные условия, созданные для более благоприятной здоровой бизнес-среды, также как и по всем направлениям, создали условия для достижения высоких результатов и в социально-экономической сфере. Исследовательская работа была выполнена на основе методов основательного и системного анализа. Научная новизна и оригинальность исследования: для обеспечения доступности финансовых источников, в первую очередь, приведение в более эффективную и прозрачную форму фонда, выделенного в программе государственной поддержки предпринимателям, путем ряда структурных изменений в этой программе.

Ключевые слова: предпринимательство, экономическое развитие, человеческий потенциал, инновация, экономическая среда.

Giriş. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş iqtisadi islahatların, özəlləşdirmə siyasətinin başlıca məqsədi bazar iqtisadiyyatına keçidin şərtlərindən olan özəl bölmənin yaradılması, sahibkarlığın formalaşdırılması ilə yeni iş yerlərinin açılması idi. Bu siyasəti daha geniş və əhatəli davam etdirməklə iqtisadiyyatın liberallaşmasını və çoxşaxəli istiqamət üzrə inkişafını təmin etmiş Prezident İlham Əliyev sahibkarlığın inkişafı istiqamətində güclü siyasi iradə nümayiş etdirir.

Ölkə iqtisadiyyatının inkişafı bir sıra beynəlxalq təşkilatlar tərəfindən hazırlanan hesabatlarda da öz müsbət əksini tapmışdır. Belə ki, “Qlobal Rəqabətlilik Hesabatı”na əsasən Azərbaycan MDB ölkələri arasında 1-ci yerdə olmuşdur. Son hesabatda ölkəmiz 144 ölkə arasında 38-ci yerə yüksəlmişdir. Hesabatda əks etdirilmiş bəzi göstəricilər üzrə isə xüsusilə yaxşı nəticələr əldə edilmişdir. Belə ki, “makroiqtisadi sabitlik” göstəricisi üzrə ölkəmiz dünya sıralamasında 9-cu, “əmək bazarının səmərəliliyi” göstəricisi üzrə isə 33-cü olmuşdur.

Son “Doing Business” hesabatında isə ölkəmiz 189 ölkə arasında 80-ci olmuşdur. Hesabatın aparıldığı 10 göstəricidən 4-ü üzrə Azərbaycan dünya ölkələrinin sıralamasında “ilk 35”-liyə daxil olmuşdur. Belə ki, “biznesə başlamaq” göstəricisi

üzrə ölkəmiz dünyada 12-ci, "əmlakın qeydiyyatı" göstəricisi üzrə 10-cu, "müqavilələrin icrası" göstəricisi üzrə 31-ci, "vergilərin ödənməsi" göstəricisi üzrə isə 33-cü yerə layiq görülmüşdür.

Bununla yanaşı, Azərbaycan iqtisadiyyatının vəziyyəti beynəlxalq reytinq agentlikləri tərəfindən də yüksək qiymətləndirilmişdir. Belə ki, "Moody's" Beynəlxalq Reytinq Agentliyi Azərbaycanın uzunmüddətli kredit reytinqi üzrə proqnozu sabit kimi qiymətləndirilmişdir.

"Standart & Poor's" Reytinq Agentliyi Azərbaycanın xarici və daxili valyutada uzunmüddətli suveren kredit reytinqini bir daha "BBB-" səviyyəsində təsdiq etmişdir.

Eyni zamanda, "Fitch Ratings" Agentliyi Azərbaycanın yerli və xarici valyutada uzunmüddətli suveren investisiya reytinqini "sabit" proqnozu ilə "BBB-" səviyyəsində saxlamışdır.

Sahibkarlığın inkişafında pozitiv meyllər. Ölkə iqtisadiyyatında və onun əsasını təşkil edən sahibkarlığın inkişafı sahəsində müşahidə edilən pozitiv meyllər iqtisadiyyatın daha da şaxələnərək genişlənməsinə imkan yaradır. Ötən illər ərzində həyata keçirilmiş tədbirlər nəticəsində özəl sektorun payı Ümumi Daxili Məhsulun həcmində 81,9% təşkil etmiş, məşğulluqda payı 74,3 %-ə, vergi daxilolmalarında 70,4%-ə çatmışdır. Kənd təsərrüfatı, sənaye, tikinti, ticarət, nəqliyyat, rabitə kimi istehsal və xidmət sahələrində qeyri-dövlət bölməsinin payı 70,0- 99,8% arasında olmuşdur.

2014-cü ildə ölkədə müəssisə və təşkilatların sayı artmaqda davam etmiş və 9130 yeni müəssisə dövlət qeydiyyatından keçmişdir. 2014-cü il ərzində müəssisələrin sayı 9,9 faiz artaraq, 2015-ci il yanvarın 1-i vəziyyətinə 94563 vahid olmuşdur. Hesabat dövründə müəssisələrin 53,4 faizi Bakıda, 46.6 faizi digər bölgələrdə fəaliyyət göstərmişdir.

2014-cü ildə hüquqi şəxs yaratmadan fərdi sahibkarlıq formasında fəaliyyət

göstərən fiziki şəxslərin sayı 519860 vahidə çatmışdır. Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin əsas hissəsi Bakıda (34,3 faiz), qalan hissəsi isə digər iqtisadi rayonlarında qeydiyyata alınmışdır.

Ölkədə sahibkarların ümumi bölgüsünə görə onların 15,5 faizini hüquqi şəxslər, 84,5 faizini isə fiziki şəxslər təşkil edir. Fiziki şəxslərin əsas hissəsi ticarət, nəqliyyat, xidmət və kənd təsərrüfatı sahələrində fəaliyyət göstərmişdir.

Məşğulluq və işsizlik. 2014-cü il dekabrın 1-i vəziyyətinə muzdla işləyənlərin sayı 1507,7 min nəfər, o cümlədən iqtisadiyyatın dövlət bölməsində 883,7 min nəfər, qeyri-dövlət bölməsində isə 624,0 min nəfər təşkil etmişdir. İqtisadiyyatın neft sektorunda 36,4 min nəfər, qeyri-neft sektorunda isə 1471,3 min nəfər çalışmışdır. Muzdla işləyənlərin tərkibində qeyri-kənd təsərrüfatı sahəsində əmək fəaliyyəti ilə məşğul olanlar 1463,4 min nəfər təşkil etmişdir.

Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 22,1 faizi məhsul istehsalı sahələrində, onlardan 6,8 faizi tikintidə, 6,2 faizi emal sənayesində, 3,0 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində, 2,4 faizi mədənçıxarma sənayesində, 2,0 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahəsində, 1,7 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sahəsində məşğul olmuşdur.

Xidmət sahəsində çalışanların 22,5 faizi təhsil, 18,8 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 8,7 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,7 faizi dövlət idarəetməsi və müdafiə, sosial təminat, 4,9 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,8 faizi istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət, 3,8 faizi peşə, elmi və texniki fəaliyyət, 2,0 faizi maliyyə və sığorta fəaliyyəti, 1,8 faizi informasiya və rabitə, 1,6 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 1,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,1 faizi digər sahələrdə xidmətlərin göstərilməsi və 0,8 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar sahələrində cəmlənmişdir.

2015-ci il yanvarın 1-i vəziyyətinə məşğulluq xidməti orqanları tərəfindən ölkə üzrə rəsmi işsiz statusu verilmiş şəxslərin sayı 28,7 min nəfər olmuş, onların 39,4 faizini qadınlar təşkil etmişdir. İşsizliyə görə müavinətin orta məbləği 289,2 manat olmuşdur.

Qadın sahibkarlara verilmiş dövlətin güzəştli kreditləri. Müasir mərhələdə respublikada qadınların iqtisadi sferada öz potensiallarını artırması üçün müxtəlif həvəsləndirici və təşviqedici tədbirlər görülür. Qadınların biznes sahələri yaratması üçün güzəştli kreditlərin verilməsi, evdar qadınların sahibkarlığa cəlb olunması da bu tədbirlərdəndir. Eyni zamanda, respublikanın ucqar və dağlıq regionlarında, məcburi köçkünlərin sıx məskunlaşdığı ərazilərdə yaşayan qadınların özəl biznes və aqrar təsərrüfatlarını yaratması üçün də tədbirlər həyata keçirilir. Bunun nəticəsidir ki, son illərdə qadın sahibkarların sayının artdığı müşahidə olunur.

Sahibkarlıq fəaliyyətinin və kiçik biznesin inkişafının yeni iş yerlərinin yaradılması, işsizliyin azaldılması və məşğulluğun təmin edilməsi sahəsində səmərəli vasitə olduğunu nəzərə alsaq, mövcud və potensial qadın sahibkarların inkişaf proseslərindən kənarda qalmadığı təmin edilir. Sahibkarlığa Kömək Milli Fondunun vasitəsilə 2014-cü il ərzində 703 qadın sahibkara 9.3 milyon manat dövlətin güzəştli kreditləri verilmişdir. Verilmiş güzəştli kreditlər hesabına 1377 yeni iş yerinin yaradılması imkanı yaranmışdır.

Sahibkarlığa Kömək Milli Fondu regionlarda və Bakı şəhərinin qəsəbələrində "Sahibkarlığın güzəştli kreditləşdirilməsi məsələləri"nə dair işgüzar forumlar çərçivəsində qadınların sahibkarlıq fəaliyyətinə cəlb olunması və xüsusilə evdar qadınların məşğulluğunun təmin edilməsi məqsədi ilə xalçaçılıq, tikişçilik və digər daha çox qadın əməyinə ehtiyac duyulan sahələrdə nümunəvi inestisiya layihələri hazırlayır və onlara təqdim edir. Bu istiqamətdə təşviqat işlərinin aparılması öz

səmərəsini verməklə yanaşı, qadınların bizneslə məşğul olmaq sahəsində lazımi bilik və informasiyanı əldə etmələrinə geniş imkanlar açır.

2014-cü il martın 17-də Bakı Biznes Mərkəzində İqtisadiyyat və Sənaye Nazirliyinin təşkilatçılığı ilə qadınların sahibkarlıq fəaliyyətinə cəlb olunmasının stimullaşdırılmasına dair tədbir keçirilmişdir. Tədbirin keçirilməsində əsas məqsəd qadınların sahibkarlıq fəaliyyətinə cəlb olunmasının stimullaşdırılması, dövlətin güzəştli kreditlərindən istifadə imkanlarının təşviq edilməsi, güzəştli kreditlərin verilməsi mexanizmi və nümunəvi investisiya layihələri barədə təqdimatların keçirilməsi olmuşdur.

Hazırda qadınlar iqtisadiyyatın müxtəlif sahələrində çalışırlar və əldə olunan iqtisadi uğurlara öz töhfələrini verirlər. Qadınların iqtisadi sahədə fəallığının daha da artırılması üçün həvəsləndirici və təşviqedici tədbirlər görülür. Onların sahibkarlıq fəaliyyətinə cəlb olunması üçün müxtəlif treninqlərin təşkil olunması, biznes sahələri yaratması üçün güzəştli kreditlərin verilməsi, evdar qadınların sahibkarlığa cəlb olunması da bu tədbirlərdəndir.

Sahibkarlığın inkişafına dövlət dəstəyi. Dövlət proqramlarının yerinə yetirilməsi ilə özəl sektora dövlət dəstəyi artırılmış, ölkə iqtisadiyyatının neft amilindən asılılığının azaldılması məqsədilə yeni istehsal sahələri yaradılmış işsizliyin azaldılması, əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsi təmin edilmişdir. Daxili bazarımızın yerli xammallarla təmin edilməsi, yeni istehsal sahələrinin yaradılması, iş yerlərinin açılması, hazırda 6 faiz olan yoxsulluq səviyyəsinin aşağı salınması, 5,2 faiz olan işsizliyin minimuma endirilməsi başlıca vəzifə kimi diqqətdə saxlanılır.

Bölgələrdə və iri yaşayış yerlərində sahibkarlığın inkişafına bütünlükdə ölkə iqtisadiyyatının yüksəlişi irihəcmli istehsal gücünə malik sənaye müəssisələrinin yaradılması, iş adamlarına maddi, mənəvi, hüquqi dəstəyin verilməsi kiçik və orta sahibkarlığın güclənməsi üçün başlıca amildir.

Son illərdə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən iş adamlarına 1 milyard 200 milyon manat güzəştli kredit verilmişdir. ÜDM-də 83 faiz payı olan sahibkarlığın inkişafı, bazar iqtisadiyyatı yolu ilə inkişaf edən Azərbaycan üçün bu göstərici düşünülmüş siyasətin uğurlu, məntiqi nəticəsidir. Ötən il 2419 sahibkarlıq subyektinə biznes fəaliyyətini yaxşılaşdırmaq üçün 218 milyon manat güzəştli kredit verilmişdir ki, bunun 128 manatı iş adamları tərəfindən qaytarılmış vəsait hesabına olmuşdur. Kreditlərin əsas hissəsi- 68 faizi aqrar sektorun, 32 faizi isə sənaye və turizmin inkişafına yönəldilmişdir. Nəticə olaraq 2012-ci ildə iqtisadiyyatın inkişafına yönəldilmiş investisiyaların həcmi 22,1 milyard ABŞ dolları təşkil etmişdir. Onun 13,3 milyardı daxili, 8,8 milyard dolları isə investorların vəsaiti olmuşdur. Düşünülmüş siyasətin nəticəsidir ki, ötən il qeyri-neft sektoru 9,7 faiz, kənd təsərrüfatı 6 faiz artmışdır. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında qeyd olunduğu kimi

başlıca məqsəd Azərbaycan məhsullarının dünya bazarlarına çıxarılması imkanlarından maksimum yararlanmaq, ixracyönümlü məhsul istehsalına diqqəti artırmaqdır.

Bu inkişafa nail olmaq üçün artıq baza formalaşıb. İstehsal prosesi üçün əsas amil olan enerji ilə təchizat təmin edilib. Son illərdə 1500 meqavat gücündə yeni elektrik stansiyaları inşa olunub. Nəhəng infrastruktur layihəsi olan Taxtakörpü su anbarının tikintisi başa çatdıqdan sonra 10 minlərlə hektar əkin sahəsinin suvarılması mümkün olacaq. Bu layihəyə daxil olan 25 meqavat gücündə elektrik stansiyası da inşa ediləcək. Bölgələrin qazlaşdırılması 90 faizə çatdırılacaq. 2035-ci ilədək əhalinin dayanıqlı, keyfiyyətli içməli su ilə təminatı üçün ciddi addımlar atılır. Əhalinin, xüsusilə ərzağa olan ehtiyacı tamamilə yerli məhsullar hesabına ödənilir. Bu sahədə elə bir ciddi problem yoxdur. Demək olar ki, bazarımızı yerli potensial hesabına təmin edən, sahibkarların, fermerlərin istehsal etdikləri yerli məhsullar keyfiyyət baxımından da idxal olunan malları qabaqlayır.

Belə ki, əhalinin ət və ət məhsulları, süd və süd məhsulları, meyvə-tərəvəz məhsulları ilə təminatı 90 faiz təşkil edir. Azərbaycan özünü əsas ərzaq məhsulları ilə 100 faiz təmin etsi üçün yeni texnologiyalar tətbiq olunmalı, bütün proseslər kompleks həllini tapmalı, sahibkarlara dəstək artırılmalı, qanunsuz müdaxilələrin qarşısı alınmalıdır.

Son illərdə artan iqtisadi imkanlarımız nəzərə alınaraq sənaye, tikinti sahəsində ən çox ehtiyac duyulan inşaat materiallarının da daxili mənbələr hesabına ödənilməsi başlıca hədəf kimi müəyyənləşdirilir.

Ölkə daxilində istehsal olunan malların xarici bazarlara yol açması, rəqabət qabiliyyətli, beynəlxalq standartlara layiq görülmüş məhsul istehsalının artırılması başlıca hədəf götürülməklə bu sahədə həyata keçirilən investisiya proqramına uyğun layihələrin həyata keçirilməsi başlıca şərtdir. Təsadüfi deyil ki, Dünya İqtisadi Forumunun hesabatlarında Azərbaycan rəqabətqabiliyyətli məhsul istehsalına görə 46-cı, MDB-də birinci yeri tutur.

Ölkəmizdə biznes mühitinin daha da yaxşılaşması üçün dövlət dəstəyinin artırılması, təkmil hüquqi bazanın formalaşması Dövlət proqramlarına uyğun bölgələrdə istifadəyə verilən fabrik və zavodlarda, emal müəssisələrində ən müasir texnologiyaların tətbiqi, istehsal olunan məhsullara xarici bazarlarda tələbatın artması göstərir ki, dünya iqtisadiyyatının ayrılmaz parçası olan Azərbaycan iqtisadiyyatı dinamik inkişaf yolunda inamla irəliləyir, sənayeləşmə proqramının həyata keçirilməsi istiqamətində önəmli addımlar atılır. Fəaliyyətini genişləndirən Sumqayıt Texnoparkında olduğu kimi Balaxanıda, Gəncədə də eyni profilli müəssisələrin açılması, aqrar sahəni azot gübrəsi ilə təmin edəcək zavodun inşası, Sumqayıt Kimya Parkının yaradılması başlıca hədəflərdəndir. Ölkədə metallurgiya sənayesinin inkişafı üçün Daşkəsəndə mövcud olan zəngin filiz yataqlarından səmərəli istifadə, 50 min ton yüksək keyfiyyətli məhsul

istehsal edən Gəncə aliminium zavodunun işə başlaması ilə bu qiymətli metala olan tələbat da daxili imkanlar hesabına ödənilir.

"Hazırda ölkəmizdə istehsal olunan sement daxili tələbatın 44 faizini təmin edir. Gələn il sementə tələbat 75, 2015-cü ildə 125 faiz olacaqdır. Buna görə də Azərbaycanda yeni sement zavodlarının tikilməsi Dövlət proqramlarında da nəzərdə tutulur. "İndi sement bazarları üçün mübarizə gedir.

Əhalinin məşğulluq səviyyəsinin artmasında önəmli rola malik, 500-dən artıq iş yeri olan müəssisə Cənubi Qafqaz regionunun sement sənayesində yeni dövrün başlanğıc mərhələsi hesab edilir.

Ekoloji təhlükəsizliyin təminatı üçün Avropada geniş yayılan və tətbiq olunan quru üsulla sement istehsalının yanacaq sərfiyyatı və ətraf mühitə təsiri baxımından sərfəli olduğundan müəssisədə istehsal prosesləri yeni texnologiyalar, beynəlxalq standartlar səviyyəsində qurulmuşdur.

Müəssisənin tam gücü ilə işləməsi nəticəsində sement istehsalı 30 faiz artaraq 1,3 milyon tondan 1,7 milyon tona, klinker istehsalı isə 1,24 tona çatdırılacaq.

"Holcim-Azərbaycan" yeni sement zavodunun istifadəyə verilməsi Azərbaycan -İsveçrə dostluğunun rəmzi olmaqla ölkəmizin etibarlı investor kimi tanınmasını bir daha təsdiqləyir.

Bir neçə il bundan əvvəl ölkədə sənayeləşmə proqramının perspektivlərindən söz açılanda ilk növbədə xarici bazarlarda təmsil oluna biləcək səviyyədə istehsal sahələrinin yaradılması başlıca hədəf kimi nəzərdə tutulurdu. Son illərdə ölkə miqyasında istifadəyə verilən emal müəssisələri kimi tikinti materiallarının istehsalı ilə məşğul olan iri şirkət və müəssisələrin açılması da proqram əsasında həyata keçirilən layihələrdəndir. Naxçıvanda istehsal gücü 300 min ton olan sement zavodunun istifadəyə verilməsi də daha çox ehtiyac duyulan bu tikinti materialına tələbatın ödənilməsinə doğru atılan addımdır. 1 milyon ton sement istehsal edəcək Ağstafa zavodu isə istifadəyə hazırdır. Qaradağ rayonunda əlavə olaraq 2 milyon ton gücündə sement zavodunun inşası ilə Azərbaycan bu sahədə ixrac imkanlarını genişləndirəcək. "Qarşıda metallurgiya sənayesinin dirçəldilməsi məsələləri dayanır.

Sahibkarlığın inkişafı iqtisadiyyatın və insan kapitalının formalaşmasına və inkişafına verilən böyük töhfədir. Dünyanın ən sürətlə inkişaf edən ölkələrindən biri olan Azərbaycanda sahibkarlığın inkişafına dövlət tərəfindən göstərilən diqqət və qayğı gözəl biznes mühitinin yaradılması üçün çox yaxşı imkanlar açmışdır. Ölkədə iqtisadi siyasətin prioritet istiqamətlərindən olan sahibkarlığın inkişafı istiqamətində ardıcıl olaraq dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi, bu sahəyə dövlət dəstəyi mexanizmlərinin genişləndirilməsi, biznes mühitinə dair qanunvericiliyin və inzibati prosedurların təkmilləşdirilməsi, maarifləndirmə və bir sıra kompleks tədbirlər həyata keçirilir.

Azərbaycanda yaşayıb fəaliyyət göstərən xarici iş adamları kimi, biz, əksər dünya ölkələrində hökm sürən maliyyə böhranının Azərbaycanın iqtisadi və siyasi sabitliyinə heç bir təsir göstərmədiyini maraqla izləyirik. Şübhəsiz, ölkənin sabitliyinin etibarlı əllərdə olması, Azərbaycan iqtisadiyyatının və siyasi sisteminin yaxşı idarə olunması dünyanı bürüyən maliyyə böhranından yan keçməyə imkan verib.

Azərbaycanda inkişafa təkan verən əsas amillərdən biri də ölkədə sahibkarlığın inkişafına yönəldilən diqqət və sahibkara göstərilən qayğıdır. Bu sahədə də ulu öndər Heydər Əliyev tərəfindən çox möhkəm təməl yaradılmışdır. Dövlətin qayğısını həm yerli, həm də xarici iş adamları əyani hiss edirlər. Ölkədə siyasi sabitliyin qarantına çevrilən sahibkarlar təbəqəsinin fəaliyyətinə geniş imkanların yaradılması, iqtisadiyyatın inkişafında onların geniş potensialından maksimum istifadə edilməsi vacib sayılır. Azərbaycanda müasir sahibkarlığın inkişafı bilavasitə 1993-cü ilin ortalarından başlamışdır. Həmin dövrdə ulu öndər Heydər Əliyev demokratik həyat tərzinin diktə etdiyi gerçəklik kimi bazar iqtisadiyyatı prinsiplərinə sadiq qalaraq Azərbaycanın yeni dövr üçün prioritetlərini müəyyənləşdirmiş və ölkənin iqtisadi siyasətinin təməlini qoyulması istiqamətində bir sıra böyük işlər görmüşdür. Yüksək rəqabətliliyi, istehlakçı tələbatına tez uyğunlaşması, çevikliyi, yeniliyi, istehsalatda və müəssisələrin idarə edilməsində yeni üsulların, müasir texnologiyaların istifadəsinə meyil etməsi ilə səciyyələn sahibkarlığın inkişafını təmin edən faktorlar Azərbaycanda çoxkomponentlidir. Ölkədə infrastruktur yüksək tələblərə cavab verəcək səviyyədə yenidən qurulur, müasir standartlar əsasında yollar çəkilir, fasiləsiz enerji, bir sıra rekonstruksiya tədbirləri və digər quruculuq işləri sahibkarların daha geniş fəaliyyətinə imkan yaradır.

Ölkədə sahibkarlığın inkişafı istiqamətində atılan önəmli addımlar, sağlam biznes mühitinin daha da əlverişli olması üçün yaradılan real şərait bütün istiqamətlərdə olduğu kimi, sosial-iqtisadi sahədə də yüksək nəticələrin əldə edilməsinə şərait yaratmışdır. Özəl sektorun inkişafı ilə bağlı dövlət başçısının verdiyi fərman və sərəncamların hər biri sahibkarlığın genişləndirilməsində mühüm bir addıma çevrilir. Azərbaycan Prezidentinin 1997-ci il fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa dövlət köməyi proqramı" tətbiq edilməyə başlanmışdır. Bu proqramda qeyd edildiyi kimi Azərbaycan Respublikası Sahibkarlığına Kömək Milli Fondu, Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi və rayonlarda sahibkarlığın inkişafı mərkəzləri yaradılmışdır. Dövlət tərəfindən Sahibkarlığa Kömək Milli Fondunun fəaliyyətinin təkmilləşdirilməsinə və genişləndirilməsinə xüsusi önəm verilir və bu diqqətin nəticəsidir ki, son illərdə fondun işini tənzimləyən normativ-hüquqi aktlara edilən dəyişikliklər nəticəsində onun təkmil fəaliyyət mexanizmi formalaşdırılmış və dövlət büdcəsindən güzəştli kreditlərin verilməsinə ayrılan vəsaitlərin həcmi artırılmışdır. Azərbaycanda özəl bölmənin

inkişafında, sahibkarlığa dövlət maliyyə dəstəyinin gücləndirilməsində Sahibkarlığa Kömək Milli Fondunun işinin səmərəli təşkili xüsusilə əhəmiyyətlidir.

Ümumiyyətlə, Azərbaycanda sahibkarlıq mühitinin formalaşması üçün vacib olan "Sahibkarlıq fəaliyyəti haqqında", "Müəssisələr haqqında", "Səhmdar cəmiyyətləri haqqında", "Haqsız rəqabət haqqında", "Əmək birjası haqqında", "Lizinq kompaniyaları haqqında" qanunlar və bazar iqtisadiyyatının hüquqi mexanizminin qurulmasını təmin edən digər qanunlar qəbul olunmuşdur.

Sahibkarlığın inkişafı Azərbaycan iqtisadiyyatının neft sektorundan asılılığının azalması, yeni istehsal müəssisələrinin istifadəyə verilməsi və sair sosialyönümlü problemlərin həlli üçün geniş imkanlar açmışdır. Qeyri-neft sektorunun inkişaf etdirilməsində sahibkarlığın rolu böyükdür. Təsadüfi deyil ki, dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biri məhz özəl sektorun hərtərəfli dəstəklənməsi, onun daha da genişlənməsi üçün əlverişli mühitin yaradılması, bu sahədə müxtəlif yardım və təşviq mexanizmlərinin tətbiq edilməsidir.

Yüzlərlə rəqabətqabiliyyətli məhsul istehsal edən müəssisələrin yaradılması, çoxminli sahibkarlar sinfinin formalaşması məhz biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması, yerli və xarici investisiyaların, müasir texnologiyaların, idarəetmə təcrübəsinin cəlb edilməsi nəticəsində mümkün olmuşdur. Sahibkarlığı stimullaşdıran əsas amillər - güzəştli kreditlər, fermerlərə subsidiyaların ayrılması, texnikanın lizinq yolu ilə verilməsi və sairə bir daha sübut edir ki, ölkənin seçdiyi yol bazar iqtisadiyyatı, liberal iqtisadiyyat yoludur. Bütün bunlar imkan verir ki, Azərbaycan məhsullarının xarici bazarlara ixracı daha da artsın, işsizliyin səviyyəsi minimuma endirilsin.

Şübhəsiz, sahibkarlığa dəstək ölkənin uğurlu inkişafını təmin edir. Dövlət başçısı daim sahibkarlarla görüşür, müəssisələrin açılışlarında iştirak edir, hər bir yerdə yerli icra orqanlarının rəhbərləri, icra başçıları, vəzifəli şəxslərə sahibkarlara kömək göstərmələrini tövsiyə edir. 2012-ci ildə sahibkarlığın inkişafı üçün ayrılmış güzəştli kreditlərin həcmi artmış, Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına 2419 sahibkarlıq subyektinə 218 milyon manat güzəştli kredit verilmiş, güzəştli kredit vəsaitlərinin daha məqsədəuyğun yerləşdirilməsinə və sahibkarlıq subyektlərinin bu kreditlərdən səmərəli istifadə etməsinə əlverişli şərait yaradılmışdır. Bunun da 128 milyon manatı və ya təqribən 60 faizi qaytarılan vəsaitlər hesabına olmuşdur. Kreditlərin 68 faizi aqrar sektorun, 32 faizi isə sənaye və turizmin inkişafına ayrılmışdır, bu isə 9100-dək yeni iş yerinin kreditlər hesabına yaradılması deməkdir.

Təkcə 2 il ərzində ölkə iqtisadiyyatına 37 milyard dollar vəsait qoyulmuşdur ki, əvvəlki dövrdəki investisiyalar da əlavə edilsə, görərik ki, Azərbaycanda nə qədər böyük işlər görülür.

Ölkə iqtisadiyyatının təsərrüfat subyektləri, digər tərəfdən də iqtisadi əlaqələr ölkəyə investisiyanın cəlb edilməsi üçün baza rolunu oynayır. Burada qarşıya qoyulan

əsas məqsəd sərmayələrin cəlb edilməsi ilə yanaşı onların səmərəli istifadəsidir. Bundan əlavə xarici sərmayədarlarla birlikdə ölkəyə adətən yeni texnologiyaların və iş üsullarının da gətirildiyini nəzərə alsaq, xarici investorların ölkə üçün əhəmiyyəti özünü daha qabarıq büruzə verir. Azərbaycanda xarici investorların fəaliyyət göstərməsi üçün əlverişli şərait yaradılmışdır. Yerli investorlar kimi, xarici investorlar da ölkə iqtisadiyyatına maraq göstərir, bu sahənin inkişafına öz töhfələrini verirlər.

Şübhəsiz, bu investisiyaların təşkilində dövlət siyasəti həlledici rol oynayır. Dünya İqtisadi Forumunun hesabatında Azərbaycan dünyanın 50 ən rəqabətqabiliyyətli iqtisadiyyatları qrupuna daxil olmuş və son üç ildə olduğu kimi, MDB ölkələri arasında birincilik mövqeyini saxlamışdır.

Sahibkarların potensial imkanlarının reallaşdırılmasına dəstək və biznesin müasir formalarının təşviq edilməsi, xarici sərmayələrin Azərbaycana cəlb edilməsi baxımından bir çox dövlətlərin rəsmi və işgüzar dairələrinin iştirakı ilə keçirilən biznes forumlar, konfranslar xüsusi əhəmiyyət kəsb edir. Ötən il yerli və xarici iş adamlarının və beynəlxalq tərəfdaşların iştirakı ilə 107-si xaricdə, 201-i isə daxildə olmaqla keçirilən 308 tədbir ölkədə istehsal olunan rəqabətqabiliyyətli qeyri-neft məhsullarının mövcud və potensial xarici bazarlara ixrac imkanlarının daha da genişləndirilməsi məqsədi daşımışdır.

Gənc sahibkarlara verilmiş dövlətin güzəştli kreditləri. Azərbaycan Respublikasında sosial-iqtisadi, elmi-mədəni, təhsil və digər sahələrdə gənclərin daha fəal iştirakının təmin edilməsi, aparılan işlərin yeni səviyyəyə yüksəldilməsi istiqamətində sistemli tədbirlər həyata keçirilir. Bu baxımdan ölkə iqtisadiyyatının rəqabətə davamlılıq qabiliyyətinin artırılması üçün gəncliyin innovativ potensialından geniş istifadə olunması məqsədəuyğundur.

Gəncliyin inkişafında növbəti mərhələnin təmin edilməsi məqsədilə Dövlət Başçısının 2011-ci il 7 iyul tarixli Sərəncamı ilə "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı təsdiq edilmişdir. Dövlət Proqramının əsas məqsədi ölkədə gənclər siyasətini daha da inkişaf etdirmək, gənclərin menecment sahəsində fəal iştirakına şərait yaratmaq, gənc mütəxəssislərin işlə təminatı və digər sosial-iqtisadi problemlərinin həllini təmin etməkdir.

Bununla yanaşı, Dövlət proqramının əsas vəzifələrindən biri də gənclər arasında sahibkarlığın inkişaf etdirilməsidir. Bununla əlaqədar, Sahibkarlığa Kömək Milli Fondu respublikada gənclərin sahibkarlıq fəaliyyətinə cəlb olunmasının stimullaşdırılması, gənc sahibkarların biznes əlaqələrinin genişləndirilməsi, onların innovasiya və müasir texnologiyaların tətbiqinə əsaslanan sahibkarlığa istiqamətləndirilməsi və s. bu kimi istiqamətlərdə məqsədyönlü fəaliyyətini davam etdirir. Bundan əlavə, kiçik sahibkarlığın, o cümlədən xırda ailə təsərrüfatlarının, gənc sahibkarların, güzəştli kreditə ehtiyacı olan digər az təminatlı şəxslərin maliyyələşdirilməsi Fondun əsas prioritetlərindəndir.

Fondun vasitəsilə 2014-cü il ərzində 1249 gənc sahibkara 49.7 milyon manat dövlətin güzəştli kreditləri verilmişdir. Verilmiş kreditlər hesabına isə 2403 yeni işyerinin yaradılması imkanı yaranmışdır.

İqtisadiyyatda insan potensialı. İqdisadiyyatda kadrların rolunu qiymətləndirmək çox çətindir. Ölkəmizin iqtisad elmində həmişə belə bir fikir qeyd olunmuşdur ki, zəhmətkeş işçi məhsuldar qüvvələrin əsasıdır. İlk beşilliklərin məşhur şüarı da var idi: «Kadrlar hər şeyi həll edir!». İxtisaslı kadr olmadan heç bir müəssisə öz məqsədlərinə nail ola bilməz. Aydındır ki, kadrlar – ilk növbədə təhsili və professional hazırlığı, istehsalat təjrübəsi və praktiki səriştəsi olan iş qüvvəsi, başqa sözlə işçilərin ixtisaslı hissəsidir. Müəssisələrin kadrları – əməyə müsbət münasibətlə dəqiq yönəlmiş insanlardır. Başqa sözlə «müəssisənin kadrları» anlayışı müəssisənin «işçi qüvvəsi» anlayışından dardır. Bura əmək kollektivinin tərkibinə təsadüfi və ya məjburi (məhkəmənin qərarı və s) düşən iş qüvvəsi daxil deyil. Bazar münasibətləri şəraitində iqtisadiyyatın, müəssisələrin rəqabət qabiliyyətliliyi ilk növbədə kadrlarala, onların maraqlandırılması dərəjəsi ilə, kadr potensialının səmərəli istifadə olunmasını təmin edən əməyin təşkili formaları ilə müəyyənləşir.

XX əsrin son 30 ilində xariji kompaniyalar «insan resurslarına» öz münasibətlərini köklü surətdə dəyişmişlər. Onda iqtisadi uğurun əsas amilini görürdülər.

İnsanlara qoyulan vəsaitlərə təkjə məjburi vəsait, istehsal xərjləri kimi deyil, ilk növbədə təşkilin inkişafına, iqtisadi müəvəfəqiyyətlərə nail olmağa vəsait qoyuluşu kimi baxılmağa başlandı.

Kadrların formalaşması işçi qüvvəsinin təkrar istehsalı prosesinə əsaslanır. Təbii-tarixi səbəblərdən işçi qüvvəsinin (həm də kadrların) formalaşması prosesi onun təkrar istehsalının ilkin və müəyyənediji fazası kimi çıxış edir. O, fəaliyyətdə olan işçilərin əmək qabiliyyətinin saxlanılması və bərpasını, əhalinin təbii artımı hesabına istehsala yeni zəhmətkeşlərin qatılmasını daxil edir. Zəhmətkeşlərin ümumtəhsil və ixtisas hazırlığı (hüquqi, iqtisadi, psixoloci və ekoloci daxil olmaqla), ixtisas və sosial-mədəni səviyyəsinin yüksəldilməsi xüsusi yer tutur. Kadr potensialının normal təkrar istehsalı maddi və mənəvi dəyərlərin istehlakının elə səviyyəsini tələb edir ki, hansılar əməkdə sərf olunan enercinin bərpasını, müasir həyatın tələblərinə, elmi-texniki tərəqqiyə, əmək bazarında rəqabətliliyə uyğun qabiliyyətlərinin gələjək inkişafını təmin edir.

Bir çox dövlət müəssisələri 90-jı illərdə öz fəaliyyətlərinin perspektivlərini itirərək, kadr hazırlığını, işçilərin ixtisasının artmasını dayandırmışlar. Bu məsələ ilə yaranan xüsusi müəssisələrdə marağın olmaması və ya maliyyə vəsaitlərinin çatışmazlığı ujbatından məşğul olmurlar. 90-jı illərin birinji yarısından dövlət təhsil müəssisələri, xüsusilə orta ixtisas və ibtidai peşə-texniki tədris müəssisələri öz fəaliyyətlərin xeyli ixtisar etmişlər.

Yüksək ixtisaslı kadrlar, elmdən, sənayedən, xüsusilə maşınqayırmadan ticarət vasitəçilik sferasına getmişlər, o iş yerlərinə ki, hansılar onların ixtisaslarına javab vermir, mürəkkəb deyil, lakin yüksək ödənişlidir. Yüksək ixtisaslı kadrların böyük sayı xarijə köçmüşdür. («beyin axını»)

Kiçik müəssisələrın insan kapitalının ölkə iqtisadiyyatının inkişafında rolu və yeri. Kiçik müəssisələr ilk növbədə müəssisə və birliklərin tərkibindən struktur və istehsal vahidlərinin, eləcə də istehsal bölmələrinin ayrılması, yaxud da səhm qoyulması əsasında yaradıla bilər. Muasir şəraitdə sonuncu yol daha optimal hesab edilir. Kiçik müəssisələr dövlət, ictimai kooperativ müəssisələr, xüsusi şəxslər, həmçinin mülkiyyətin digər formalarına əsaslanan təşkilatlarla birlikdə təsis edilə bilər.

Kiçik müəssisələr həm respublikanın daxili bazarlarının əmtəə və xidmətlərlə dolması, inhisarçılığın ləğv edilməsi və rəqabətin bütünsahələrdə genişlənməsində, həm də təşəbbüskar insanların yaradıcılığının üzə çıxması, mövcud əmək və aterial ehtiyatlarının istehsala cəlb olunması və əhalinin tələbatının hərtərəfli təmin olunmasında, eləcə də insan kapitalının inkişafında mühüm rol oynayır. Eyni zamanda, kiçik müəssisələr respublikanın bazar münasibətlərinə keçməsi, bazar mexanizminin təkmilləşdirilməsi, istehsalçılarla istehlakçılar arasında birbaşa iqtisadi əlaqələrin yaranması, həmçinin iqtisadi islahat və istehsalın texnoloji quruluşunun yenidən qurulmasının başlanğıc dövründə yaranmış artıq işçi qüvvəsinin özünə cəlb edilməsi və nəhayət, əhalinin gəlirlərinin və alıcılıq qabiliyyətinin yüksəlməsində böyük əhəmiyyət kəsb edirlər.

İqtisadi ədəbiyyatların bir hissəsində xırda və kiçik müəssisələri aşağıdakı kimi qruplaşdırırlar:

1) Xırda müəsisələr - bunlara bəzən təkadamlıq müəssisə də deyilir. Belə müəssisələrdə sərmayə sahibi də, iş sahibi də, iş gördürən də, qərar verən də, qazanc sahibi də bir nəfər olur. Bu cür müəssisələr azsaylı işçi ilə kiçik müəssisələrə də çevrilə bilirlər. Qazancın, risqin bir şəxsə aid olduğu belə müəssisələrdə idarəetmə sadədir və qərarvermə çevikdir.

2) Kiçik müəssisələr isə aşağıdakı kimi qruplaşdırılır. Yəni, müəssisənin fəaliyyət dairəsindən asılı olaraq, işləyənlərin sayını nəzərə alıb, onlara kiçik üəssisələr adı verilir. Bu, sənaye sahəsində işləyənlərin sayı 50-yə qədər, tikintidə 25-ə qədər, nəqliyyatda 15-ə qədər, ticarət və xidmət sahəsində isə 10-a qədər olan müəssisələrdir. Bu müəssisələrdə idarəetmə sərbəstdir, idarəedici sahibkar ola bilir, müəssisənin səmərəsi bir şəxsə və ya kiçik qrupa mənsubdur, müəyyən bir ərazidə fəaliyyətdədir, Sahibkar və işçilər ərazidə yaşayanlardır, əsas göstəriciləri orta böyüklükdə olan müəssisələrdən aşağıdır.

Azərbaycanda isə Nazirlər Kabinetinin sahibkarlıq subyektlərinin təsnifatı aparılan zaman kiçik müəssisələrə işçilərinin orta illik sayı sənaye və tikintidə 50 nəfərə, kənd təsərrüfatında 25 nəfərə, topdan satışda 15 nəfərə, pərakəndə satış,

nəqliyat, xidmət sferalarında 10 nəfərə qədər olanlar, illik dövriyyəsi isə sənaye və tikintidə 500 min manata, kənd təsərrüfatında 250 min manata, topdan satışda 1 milyon manata, pərakəndə satış, nəqliyyat, xidmət sferalarında 250 min manata qədər olanlar aid edilir.

Avropa Birliyində isə kiçik sahibkarlıq subyektlərinə içilərinin sayı 50 nəfərə qədər, illik dövriyyəsi və ya aktivlərinin balans dəyəri 10 milyon avroya qədər olanlar şamil olunur.

Dövlət Statistika Komitəsinin yanvar 2013-ci ilin məlumatlarına əsasən hesabat dövründə Azərbaycanda kiçik sahibkarlığın kiçik sahibkarlığın əlavə dəyərdəki hissəsi 1,620,0 milyard AZN olub təşkil edib. Bu da əvvəlki illə müqayisədə 782% artım deməkdir.

Kiçik sahibkarlıq subyektlərinin əsas makro-iqtsadi gostəriciləri

	2007	2008	2009	2010	2011	2012	2013
Yaradılmış əlavə dəyər, milyon manat	449,2	718,7	844,8	1 120,0	1 227,0	1 346,5	1 620,0
Ümumi mənfəət, milyon manat	41,7	51,9	65,8	78,3	85,3	122,8	165,4
İşçilərin orta illik sayı, min nəfər	92,1	103,2	105,9	93,2	90,2	95,5	109,0
Orta aylıq nominal əmək haqqı, manat	170,7	182,1	195,2	207,0	222,2	263,3	303,5
Əsas kapitala investi-siyalar milyon manat	289,4	371,2	289,3	276,3	737,6	531,6	486,5
Dövriyyə, milyon manat	1 653,5	2 475,7	2 910,1	3 835,5	4 208,5	5 100,6	6 072,6

Mənbə: DSK məlumatları

Dünya Bankının illik hesabat sənədlərində qeyd olunur ki, iqtisadi inkişaf səviyyəsindən və yerləşdiyi coğrafi məkandan asılı olmayaraq, əksər dünya ölkələrində iqtisadi fəaliyyətin əsas hissəsi kiçik sahibkarlığa aiddir. Hətta iqtisadi cəhətdən keçid dövrünü yaşayan bir çox ölkələr öz iri tipli müəssisələri ilə tanınsalar da, hazırda həmin dövlətlərdə fəaliyyət göstərən iqtisadi subyektlərin böyük əksəriyyəti kiçik müəssisələrdir. Əgər qeyri-formal sektorda olan müəssisələri də buna əlavə etsək onda onların sayı xeyli artıq ola bilər.

Belə qeyd edək ki, bir sahibkara və daxili resurslara malik olan kiçik müəssisələrdə idarəetmə böyük tipli şirkətlərə nisbətən daha asandır. Dünyanın inkişaf etmiş və inkişafda olan 54 ölkəsində Dünya Bankının ekspertləri tərəfindən aparılan tədqiqatlar onu göstərir ki, inkişaf etməkdə olan ölkələrdə kiçik və orta sahibkarlığın dirçəlməsi səbəblərinin əsasında instisional faktorlar dayanır. Kiçik müəssisələrin daxili imkanlarını səfərbər edərək, inkişafı dövlətin biznes mühitinin inkişafını dəstəkləyən siyasəti ilə bağlıdır. Həmçinin bir çox dünya ölkələrinin hüquq mexanizmlərindəki çatışmazlıqların olması, bazar iqtisadiyyatının inkişafını əngəlləyən

amillərdəndir və həm də götürülmüş borcların qaytarılması üzrə lazımi məhkəmə sisteminin olmaması kiçik sahibkarlığın inkişafında problemlər törədir. Bu cəhətdən kiçik tipli müəssisələr instisional faktorların nizamlılığından daha çox asılıdır.

Kiçik sahibkarların səmərəli fəaliyyət göstərmək imkanları iri istehsalla müqayisədə bir sıra üstünlüklərə malikdir. Bunlar aşağıdakılardan ibarətdir: 1) yerli bazarlara məsafə baxımından yaxınlıq; 2) istehlakçıların (müştərilərin) tələbatlarına maksimum uyğunlaşma; 3) iri firmalar üçün əlverişli olmayan xırda partiyalarla məhsul istehsalı; 4) idarəetmədə paralel səviyyələrin ixtisar edilməsi və s.

Təcrübə göstərir ki, xırda partiyalarla istehsal şəxsi istehlak sferasında tələbatların fərdiləşməsinə və diferensiallaşmasına imkan yaradır. Kiçik sahibkarlığın fəaliyyətiningenişləndirilməsi iqtisadiyyatın sağlamlaşdırılması üçün əlverişli şərait yaradır; rəqabət mühitinin inkişafı; əlavə iş yerlərinin yaranması; struktur yenidənqurulmasının fəallaşması və istehlak sektorunun genişlənməsini təmin edir.

Kiçik sahibkarlıq subyektlərinin sayı (iqtisadi fəaliyyət növləri üzrə, ilin sonuna)

	2007	**2008**	**2009**	**2010**	**2011**	**2012**	**2013**
İqtisadiyyatın bütün sahələri üzrə - cəmi	**196 972**	**204 960**	**205 028**	**207 120**	**223 547**	**248 288**	**260 563**
ondan fiziki şəxslər – fərdi sahibkarlar	**182 268**	**186 491**	**186 765**	**192 588**	**210 643**	**234 634**	**246 102**
o cümlədən:							
kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq	3 804	4 045	4 040	3 953	3 897	3 973	3 997
fiziki şəxslər - fərdi sahibkarlar	2 488	2 613	2 571	2 618	2 593	2 451	2 334
sənaye	4 973	4 787	4 750	4 616	4 457	4 326	5 173
fiziki şəxslər - fərdi sahibkarlar	2 856	2 775	2 806	2 643	2 628	2 505	3 369
tikinti	2 189	2 234	2 197	1 534	1 501	1 755	1 936
fiziki şəxslər - fərdi sahibkarlar	488	543	621	560	580	727	924
ticarət; nəqliyyat vasitələrinin təmiri	128 112	132 095	131 673	133 803	156 926	178 036	182 732
fiziki şəxslər - fərdi sahibkarlar	121 371	122 547	122 601	127 501	150 686	171 646	176 327
nəqliyyat və anbar təsərrüfatı	19 850	20 775	21 838	22 148	22 627	25 093	27 862
fiziki şəxslər - fərdi sahibkarlar	19 494	20 406	21 465	21 908	22 374	24 821	27 576
turistlərin yerləşdirilməsi və ictimai iaşə	11 592	12 143	12 245	13 455	7 767	8 356	9 406
fiziki şəxslər - fərdi sahibkarlar	11 260	11 777	11 854	13 127	7 527	8 106	9 157
informasiya və rabitə	419	326	239	183	242	311	354

fiziki şəxslər - fərdi sahibkarlar	-	-	-	-	-	-	-
daşınmaz əmlakla əlaqədar əməliyyatlar	5 087	5 096	4 125	872	826	930	1 131
fiziki şəxslər - fərdi sahibkarlar	4 960	4 951	3 977	729	708	729	905
təhsil	42	34	46	108	84	105	155
fiziki şəxslər - fərdi sahibkarlar	-	-	-	-	-	-	-
əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi	61	74	91	198	155	204	256
fiziki şəxslər - fərdi sahibkarlar	-	-	-	-	-	-	-
digər sahələr	20 843	23 351	23 784	26 250	25 065	25 199	27 561
fiziki şəxslər - fərdi sahibkarlar	19 351	20 879	20 870	23 502	23 547	23 649	25 510

Mənbə: DSK məlumatları

Kiçik müəssisələrin yaradılması və inkişafı eyni zamanda əmtəə və xidmətlər bazarının doldurulması, ixrac potensialının yüksəldilməsi və yerli xammal ehtiyatlarından səmərəli istifadə edilməsinə səmərəli təsir göstərir. Əmək tutumlu sahələrin genişləndirilməsi əhalinin sahibkarlıq fəaliyyəti üçün həmçinin sərbəst istehsal güclər və yaradıcılıq səylərindən maksimum istifadə baxımından kiçik müəssisələrin yaradılmasına imkan verir.

Məlumdur ki, elmi-texniki tərəqqinin davamlılığını şərtləndirən amillərdən biri istehsalın təmərküzləşməsidir. Məhz, böyük firmalar istənilən qədər maddi, maliyyə, əmək resurslarına və yüksək bilikli ixtisaslı kadrlara malikdirlər. Bu tip müəssisələr böyük elmi-texniki işlər apara bilirlər. Bununla belə, kiçik sahibkarlığın inkişafı bazarda azad rəqabətə və sağlam mübarizəyə geniş imkan yaradır. Həmçinin, kiçik sahibkarlıq rəqabət mühitinin inkişafı; əlaə iş yerlərinin yaranması; struktur yenidənqurmalarının aktiv həyata keçirilməsi; tələbatçılar sektorunun genişləndirilməsi, bazarın mallar və xidmətlərlə zənginləşməsi, ixrac imkanlarının genişləndirilməsi, yerli xammal resurslarından səmərəli istifadənin effektliyinin artırılmasına geniş şərait yaradır.

Kiçik sahibkarlığın digər əhəmiyyəti yerli təsərrüfat sferasına tez uyğunlaşma qabiliyyəti; kiçik sahibkarlığın böyük azadlığa malik olması; qəbul edilmiş qərarların cəld və yüksək operativliklə həyata keçirilməsi; iqtisadi fəaliyyətlə məşğul olan zaman administrativ və istehsal xərclərinin aşağı olması; şəxsin öz ideya və fikirlərini həyata keçirmək imkanlarının geniş olması; ilkin kapitala ehtiyacın az olması; müştərilərin tələbatından asılı olaraq məhsulun forma və keyfiyyətində tez bir zamanda dəyişiklik edilməsi imkanlarının mövcudluğu, şəxsi (sahibkar) kapitalın daha da geniş dövriyyəsi və s. ibarətdir.

Kiçik müəssisələrin nümayəndələri həm də yerli bazarı çox yaxşı tanıyırlar və hətta ayrı-ayrı müştərilərin sifarişlərinə əsasən xırda partiyalarla məhsullar da istehsal edirlər. Kiçik və orta ölçülü müəssisələr bir çox ölkələrdə iri şirkətlərə nisbətən həm saylarına, həm də göstərilən xidmət və istehsal edilən məhsullara görə dominant mövqe tuturlar. Kiçik müəssisələr istehsala əlavə ictimai əməyi cəlb edirlər ki, bu da milli gəlirin artmasına və yeni dəyərin yaranmasına gətirib çıxarır.

Dünya təcrübəsi göstərir ki, kiçik sahibkarlığın genişləndirilməsi aşağıda sadalanan problemlərin həllinə müsbət təsir göstərir: 1) Əhalinin mallara və xidmətlərə olan tələbatının yüksək səviyyədə qarşılanması üçün azad rəqabət mexanizminin işə düşməsi; 2) Məhsulun, xidmətin və işin çeşidinin və eyfiyyətinin artırılması; 3) Məhsul və xidmətlərin konkret müştərilərə yönəldilməsi; 4) İqtisadiyyatın strukturunun yenidənqurulmasına təsiri, kiçik sahibkarlıq iqtisadiyyata səfərbərlik, manevr və çeviklik keyfiyyətlərini bəxş edir; 5) əhalinin şəxsi vəsaitinin istehsala cəlb edilməsi; 6) yeni və əlavə iş yerlərinin təşkil olunması, həmçinin təhlükəsizliyin aşağı salınması; 7) şəxsiyyətin istedadının və yaradıcılıq qabiliyyətinin tam üzə çıxarılması, ornamentlərdən geniş istifadə; 8) əhalinin müxtəlif qruplarının fəal işə cəlb olunması; 9) şəxsi sahibkarlığın inkişaf etdirilməsi; 10) elmi-texniki tərəqqinin inkişafının aktivləşdirilməsi; 11) yerli xammal resurslarının və iri şirkətlərin tullantılarının mənimsənilməsi və istifadə edilməsi.

Xırda, bir sahibkara məxsus müəssisəsinin spesifik çətinlikləri də var. Məsələn: müəssisəni quran şəxsin bilik və bacarığı, təcrübə və qabiliyyəti aşağı səviyyədə ola bilər. O, başqalarının (mütəxəssis, idarəedici) bilik və bacarıqlarından gərəkli istifadəetmədikdə iflasa uğrayar və ya zərərlə üzləşər. Belə müəssisələrdə işləyənlər ümumi qazancdan əlavə pay almaq imkanından da məhrum qalırlar. Odur ki, onların imkanları məhdud olduğundan fəaliyyət dairələrini təkmilləşdirməkdə, genişləndirməkdə və daha məhsuldar çalışmaqda maraqlı olmurlar. Tək şəxsin müəssisəsi, bir şəxsin sərmayəsi ilə yaradıldığından onun həcmi də məhduddur. Kredit almaq imkanı aşağı olur, ala bilsə də, yüksək faizlə alır və aldığını qaytarmaq məcburiyyəti müəssisənin qazancına ciddi təsir göstərir. Belə müəssisələr uzunömürlü olmurlar. Çünki bütün ixtiyar sahibinin bir şəxs olması üzündən onun dünyasını dəyişməsi və ya müəyyən səbəblər üzündən işini davam etdirə bilməməsi, bu cür müəssisələrin fəaliyyətinə son qoyur. İstər işçilər, istər mal göndərənlər və istərsə də mal alanlarla əlaqədə məsuliyyəti bir şəxs daşıyır. Bütün baş verə biləcək müqavilə, cavabdehlik və iddialara bir nəfər bütün varidatı ilə cavab verməli olur. Qazancın bir nəfərdə toplanması gəlir vergisinin də yüksək olmasına gətirib çıxarır.

Kiçik müəssisələr təkcə istehsal sferasında deyil, həm də müəssisələr üçün əlverişli olmayan məhsul buraxılışında da səmərəlidir. Bundan əlavə kiçik müəssisələrin səmərəliliyi son məhsulun istehsalı üçün zəruri olan yarımfabrikatların və. s. buraxılışında da özünü doğruldur. Bütün bunlar isə cəmiyyətin iqtisadi həyatında

kiçik müəssisələrin rolu və yerinin müəyyən edilməsinə kompleks yanaşmanın zəruriliyini əsaslandırmağa imkan verir. Xırda və kiçik hissisələrin fəaliyyətinə əsaslanan kiçik sahibkarlığın çox böyük ehtiyat mənbələri mövcuddur. Məsələn, ABŞ-da kiçik tipli firmalar ümumi daxili məhsulun 40 faizini, xüsusi sektorlarda isə ümumi daxili məhsulun yarıya qədərini təşkil edir. Kiçik firmalar emal sənayesinin 21, tikintinin 80, topdansatış ticarətinin 86, xidmət sferasının 81 faizində fəaliyyət göstərir. Bu müəssisələrdə xüsusi sektorda çalışan işçilərin, demək olar ki, yarısı məşğuldur. Bu müəssisələrdə elmi-texniki tərəqqinin inkişafı daha yüksək səviyyədə təmin olunur. Ona görə də onlar iri müəssisələrlə müqayisədə orta hesabla bir Amerika dolları məsrəfinə 17 dəfə çox yeni avadanlıq tətbiq edirlər.

Bizə belə gəlir ki, kiçik müəssisələrin yüksək səmərəliliyinin başlıca amili, onların məhsul istehsalı sahəsi və əmək vasitələrindən istifadə üzrə dar ixtisaslaşmasıdır. Ona görə də, belə müəssisələr bir qayda olaraq məhdud sayda məhsul istehsal edir və eyni zamanda, dar ixtisaslaşmış avadanlıqlardan istifadə etməsi və yüksək məhsuldarlığı ilə fərqlənirlər ki, bu da qısa müddətdə istehsal texnologiyalarının dəyişməyə, bütövlükdə isə həm məhsul istehsalı prosesini, həm də əsas fondların təkrar istehsalı prosesini intensivləşdirməyə imkan verir.Bazar iqtisadiyyatı inkişafı yolunu tutmuş bütün ölkələrdə kiçik sahibkarlığın inkişaf etdirilməsi həmin dövlətlərdə sahibkarlığın inkişafı istiqamətində aparılan siyasətlərin uğurla nəticələnməsinə gətirib çıxarar. O cümlədən də Azərbaycanda kiçik sahibkarlığın daha da inkişaf etdirilməsi ölkəmizin iqtisadi artımında qeyri-neft sektorunun payının artırılmasına xidmət etmiş olar. Hazırda ən əsas məsələ cəmiyyətdə bu dərəcə əhəmiyyəti olan sahibkarlıq sferasını daha da inkişaf etdirməkdir. Xüsusilə burada ən vacib məsələ yerli sahibkarlığın müasir zamanın tələblərinə uyğun bir şəkildə dirçəldilməsidir. Bunun üçün də əsas məsələ həmin sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyənlərin maddi–texniki bazasının yüksəldilməsidir.

Kiçik və orta biznes üçün innovasiya fəaliyyətlərinin əhəmiyyəti. İnsanlar öz yaşayışını davam etdirmək üçün minimum ehtiyaclarını ödəməklə yanaşı, hər vaxt yeni məhsullar və ya istehsal proseslərinin yaradılmasını planlaşdıraraq daha rahat həyat tərzi keçirməyə çalışırlar. Yenilik "davamlı böyümə vasitəsi" hesab edilir və müəssisələrdə yaradıcı, enerjili bir işgüzar mühit yaradılmasına təsir göstərməklə məşğulluq imkanlarını da artırır. Əslində yenilik inkişafın zəruri ünsürü olduğu üçün və ən qədim dövrlərdən bəşəriyyət inkişaf prosesində yaşadığı üçün yenilik hər zaman böyük əhəmiyyətə malikdir. Odun qorunub saxlanılması, təkərin ixtirası və s. Mikroskopun kəşfi bir çox sahədə inkişafa təkan vermiş, kompyutorun meydana gəlməsi internetin və rabitə vasitələrinin imkanlarını genişləndirmiş, dünyanın inkişafını daha da sürətləndirmişdir. İnsan həyatı minlərlə, on minlərlə saysız-hesabsız cahanşümül yeniliklərlə nəhəng addımlarla irəliləmiş və müasir sivilizasiyanın yaradılmasına gətirib çıxarmışdır. Dahi yunan filosofu Sokratın "eyni suda iki dəfə

yuyunmaq olmaz” dediyi kimi keçmişdən bu günə qədər dünya hər zaman baş verən daimi dəyişikliklərə səhnə olmuş və olmaqda davam edir.

Qədəm qoyduğumuz yeni yüzillikdə elmi-texniki tərəqqinin sürətlənməsi, hər yeniliyin başqa bir yeniliyə yol açması keçmişə nisbətən daha da sürətlənmiş və zərurət xarakteri almışdır.

Innovasiya fikirlərini daim gündəmdə saxlayan müəssisələr, işçilər və müştərilərinin təkliflərini eşidir, onların yaradıcılığını artırmağa səy göstərirlər. Bu işin əsasında "təklif sistemlərini inkişaf etdirmək" fikri dayanır.

Adı ölkədən-ölkəyə, müəssisədən-müəssisəyə dəyişsə də, işçiləri düşünməyə, təklif verməyə və onları bölüşməyə yönəldən sistemlər var. Ölkəmizdə çox böyük miqyaslı müəssisələr (Beynəlxalq Bank, Paşabank, Kapital bank, Atabank və s.) bu sistemlərdən istifadə edərək işçilərinin və müştərilərinin innovasiya fikirlərini dəstəkləyirlər. Ölkəmizdə kiçik və orta müəssisələrin (KOM) innovasiya fəaliyyətləri məsələsində edilən araşdırmalardan görünür ki, müəssisə rəhbərləri "innovasiya fəaliyyətlərinin böyük müəssisələr üçün əhəmiyyətli olduğu, KOM-lər üçün çox xərcli olduğu" fikrini qəbul etmişlər. Halbuki, ABŞ və AB-də ən çox innovasiyalı və fərqli məhsullar və xidmətlər KOM-lərdən gəlir. Innovasiya fəaliyyətləri, KOM-lər üçün rəqabət gücünü, orijinallığı, fərqləndirmə və böyüməni təmin edir. Oslo lüğəti AB-yə namizəd ölkələrdə xüsusilə KOBİ-lərin innovasiya fəaliyyətlərinin ölçülməsi məqsədilə regional qurumların yaradılmasını təklif etmişdir.

Nəticə

KOS-ların problemlərinin önəmli hissəsini həll etmək üçün aşağıdakılar həyata keçirilməlidir:

- Kiçik və orta sahibkarlara iqtisadi mühiti əlverişli etmək üçün inzibati və məhkəmə sahəsində təcili islahatlar aparılmalıdır. Dövlət məmurlarının qeyri-qanuni müdaxilələri aradan qaldırılmalı, məhkəmə sisteminin müstəqilliyi və ədalətliliyi təmin edilməlidir;

- Maliyyə mənbələrinin əlçatan olmasını təmin etmək üçün ilk növbədə sahibkarlara dövlət dəstəyi proqramında bir sıra struktur dəyişikliyi edilərək fondu daha işlək və şəffaf hala gətirmək vacibdir. Bundan başqa Sahibkarlığa Kömək Milli Fondunun təklif etdiyi az faizli kreditlərin miqdarını kiçik və orta sahibkarların fəaliyyəti üçün yetərli səviyyədə müəyyən etmək lazımdır;

- Sahibkarların müasir bazar konyunkturasında rəqabət aparmasına yardım etmək üçün biznes inkişaf xidmətlərinin genişləndirilməsi tövsiyə olunur. Özəl xidmətlər şəklində formalaşdırılmalı olan bu qurumlar müəssisələrə yeni marketinq metodlarına, bazar strategiyasının düzgün müəyyən edilməsinə, müasir maliyyə və mühasibat qaydalarının tətbiqinə yardımçı olacaq;

- Şirkətlərarası şəbəkələnmə üçün şəraitin formalaşdırılması da rəqabətliliyə müsbət təsir göstərəcək addımlar sırasındadır. Müəssisələrarası əməkdaşlıq sahibkarların bu əlaqələrdən yararlanaraq yeni texnoloji-innovativ yenilikləri mənimsəməsinə və biznes biliklərini artırmasına səbəb olur;

- Transmilli korporasiyaların (TMK) ölkə iqtisadiyyatına töhfə verə bilməsini təşkil etmək lazımdır. Bunun üçün TMK-larla kiçik və orta sahibkarlıq müəssisələri arasında əlaqələri genişləndirərək yerli müəssisələrin TMK-lardan həm istehsal, həm də idarəçilik yeniliklərini mənimsəməsinə yardımçı olmaq lazımdır.

- Kiçik və orta müəssisələrin inkişafı və rəqabətə davamlılığı yenilik yaratma prosesindən asılıdır. İnnovasiyanı tətbiq etməyən müəssisənin ayaqda dura bilməsi və normal yaşaması qeyri-mümkündür. İnnovasiyaların müəssisələrə verdiyi üstünlükləri aşağıdaki kimi sıralamaq olar: məhsuldarlığın artırılması, rəqabət üstünlüyünün təmin edilməsi, müəssisənin mənfəətlə işləməsinin təmini, müəssisə işçilərinin sosial vəziyyətinin yaxşılaşdırılması, sadiq müştəri kütləsinin yaradılması və s.

Ədəbiyyat

[1] Шумпетер И. Теория экономического развития (исследования прибыли, капитала, кредита, процента и цикла конъюктуры) (пер. с нем). М. Прогресс 1982, с. 455.

[2] Seref Gümüş. İnnovasionu oluşturan işletmelerin yaşam döngüleri. Hiperlink yayınları, 2014, (149 c.).

[3] AKYOS, M., DURGUT, M., GÖKER, A. (2003). Ulusal inovasyon sistemi (Kavramsal çerçeve, Türkiye incelemesi ve ülke örnekleri), İstanbul, TÜSİAD. S.23].

[4] OSLO KILAVUZU (Yenilik vergilerinin toplanması ve yorumlanması için ilkeler). (2005)., 3. bs., Ankara TÜBİTAK s.150.

[5] ATEŞ, R. (2007). İnovasyon hayat kurtarır. Doğan Kitapçılık A.Ş., 2007, s. 29 7.

[6] Нагиев А.Г. Стратегия инновационного развития и инвестирование воспроизводства основных фондов. Санкт- Петербург, Издательство «Нестор», 2004, с.174

[7] FREEMAN, C., SOETE, L.(2003). Yenilik iktisadı. (Çev. E. TÜRKCAN), Ankara, TÜBİTAK. 7

[8] Иванова Н.И. Национальные инновационные системы. Вопросы экономики. 2001, № 7, с. 61

Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri, İl 3, Cilld 3, İyul – Sentyabr, 2015, səh. 90-100
Scientific Reviews in Azerbaijan State University of Economics, Year 3, Volume 3, July -September, 2015, pp. 90-100

BAZAR İQTİSADİYYATINDA İNNOVASİYALARIN İQTİSAİ SƏMƏRƏLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

N. L. Hüseynova
müəl., ADİU
e-mail: nigar777@hotmail.com
Mobil tel: (+99450)392-22-22

Məqalə redaksiyaya daxil olmuşdur 21 avqust 2015; Çapa qəbul edilmişdir 10 sentyabr; online-da çap edilmişdir 6 oktyabr 2015
Received 21 August 2015; accepted 10 September 2015;
published online 6 October 2015

Xülasə

Tədqiqatın əsas məqsədi: bazar iqtisadiyyatı şəraitində innovasiyanın iqtisadi səmərəliyinin qiymətləndirilməsinin əsas üsullarının təhlil edilməsi və sistemləşdirilməsi, innovasiya layihələrinin qiymətləndirmə metodikasının təklif edilməsidir. Tədqiqat işi əsaslı və sistemli təhlil üsulları əsasında yerinə yetirilmişdir. Tədqiqatın nəticəsində innovasiya maliyyələşdirmə şərtlərinin optimallaşması metodikası, innovasiya layihələrinin ekspert qiymətləndirilməsi üçün tövsiyələr verilmişdir. Tədqiqatın məhdudiyyətləri: tədqiqat daha geniş statistik məlumatlar tələb edir. Tədqiqatın elmi yeniliyi və orijinallığı: təsərrüfat obyektlərinin real bazar fəaliyyəti şəraitinə keçidi və onların ziyansız işi innovasiya prosesləri subyektlərindən innovasiya üsullarının seçilməsi və əsaslandırılmasına baxışların köklü dəyişdirilməsini təkidlə tələb edir.

Açar sözlər: bazar iqtisadiyyatı, innovasiya fəaliyyəti, innovasiya layihələri, texniki - texnoloji yeniliklər, milli innovasiya sistemi.
Jel Classification: O31

ASSESSMENT OF THE ECONOMİC EFFECTIVENESS OF INNOVATION IN A MARKET ECONOMY

Abstract

The main objective of the study: basic methods of evaluating the economic efficiency of innovation in a market economy, the technique of evaluation of innovative projects. The research work was carried out on the basis of systems analysis. The result of the study are recommendations for the assessment of innovative projects, given the conditions of optimization of innovative financing methods. Limitations of the study: it takes more statistical information. Scientific

novelty and originality: the transition of economic objects in a real market activity, and their break-even work requires a fundamental change of views and innovative selection of subjects of innovative processes

Keywords: market economy, innovative activity, innovative projects, technical - technological innovation, national innovation system

ОЦЕНКА ЭКОНОМИЧЕСКОЙ ЭФФЕКТИВНОСТИ ИННОВАЦИЙ В РЫНОЧНОЙ ЭКОНОМИКЕ

Резюме

Основная цель исследования: анализ основных методов оценки экономической эффективности инноваций в условиях рыночной экономики, разработка методики оценки инновационных проектов. Исследовательская работа была выполнена на основе методов системного анализа. Результатом исследования являются рекомендации по оценке инновационных проектов, оптимизационная методика условий инновационного финансирования. Ограничения исследования: требуется больше статистической информации. Научная новизна и оригинальность исследования: переход хозяйственных объектов в условиях реальной рыночной деятельности и их безубыточная работа требует коренных изменений взглядов и выбора инновационных методов субъектов инновационных процессов.

Ключевые слова: рыночная экономика, инновационная деятельность, инновационные проекты, технико–технологические новшества, национальная инновационная система.

Giriş. Texniki-texnoloji yeniliklərin iqtisadi səmərəliliyin əsas ümumiləşdirici göstəricisi iqtisadi səmərə göstəricisidir. O, səmərəliliyin xüsusi göstəricilərini özündə əks etdirir: əməyin məhsuldarlığı, fondların effektivliyi, sərf olunan materialların və enerjinin həcmi, istehsalatın texniki səviyyəsinin göstəricisi, məhsulun keyfiyyəti və s.

Təşkilati innovasiyaların səmərəliliyi qiymətləndirilərkən onları iki qrupa ayırırlar:

- müəyyən, əlavə eyni zamanda edilən xərcləri (capital qoyuluşu) tələb edən yeniliklər;
- əlavə investisiya tələb etməyən yeniliklər.

Birinci qrupa aid edilən təşkilati yeniliklərin səmərəliliyi itexniki-texnoloji yeniliklərə uyğun olan qaydada hesablanır. Xərcsiz yeniliklərin səmərəliliyinin qiymətləndirilməsi bu cür təşkilati yeniliklərin həyata keçirilməsindən irəli gələn cari xərclərin qənaətinin hesablanması əsasında aparılır [1].

İnnovasiya fəaliyyətini idarəetmənin elmi əsaslandırılmasını yüksəldən amillərdən biri proqnozlaşdırma nəticələrinin istifadəsindən ibarət olub aşağıdakı mərhələləri əhatə edir: proqnoz məsələsinin qoyuluşu; proqnozlaşdırma obyektinin təhlili; proqnozlaşdırma üsulunun seçimi və işlənməsi prosesi; nəticələrin işlənməsinin təhlili.

Proqnozlaşdırma üsullarını proqnozlaşdırma məqsədinin, tədqiq olunan obyektin və istifadə olunan alətlərin xüsusiyyətlərinə aid əlamətlərə görə siniflərə bölmək olar. Əgər təsnifatın əsası kimi ilkin informasiya mənbələrindəki fərqlər götürülsə, proqnozlaşdırma üsulları iki sinfə bölünür – faktoqrafik proqnozlaşdırma üsulları və ekspert proqnozlaşdırma üsulları.

İnnovasiya fəaliyyətinin təşkilində müxtəlif növ ekspert qiymətlərinin toplanması, sistemləşdirilməsi və emalı ilə bağlı proqnozlaşdırma üsulları geniş vüsət tapmışdır. Retrospektiv kəmiyyət informasiyası olmayan bir çox hallarda yalnız ekspert proqnoz üsullarını tətbiq etmək olur.

Ekspertizanın məqsədi layihənin elmi və texniki səviyyəsini, onun yerinə yetirilmə imkanlarını və səmərəliliyini müəyyən etməkdən ibarətdir.

Nəticələrin alınmasının bir sıra alqoritmləri mövcuddur. Onlara: ranqlar cəmi üsulu; ədədi orta qiymətin hesablanması; «səs çoxluğu» üsulu; normalaşdırılmış ranqlar üsulu; medianın hesablanması; dəbin hesablanması; interval şkalasında qrup qiymətinin alınması.

Innovasiya layihələrinin realizəsi mərhələsində səmərəliliyinin qiymətləndirilməsi alqoritmi iki məsələnin zəruriliyini nəzərdə tutmalıdır:

- innovasiyaların həyata keçmiş sınaq satışları halında layihənin səmərəliliyinin qiymətləndirilməsi;
- layihənin faktiki səmərəliliyinin qiymətləndirilməsi.

Məsələlərdən birincisi yeniliklərin sonrakı istehsalı və satışının məqsədəuyğunluğu təhlili ilə bağlıdır. Burada səmərənin qiymətləndirilməsi metodu investisiyadan əvvəlki mərhələdə layihələrin səmərəliliyinin qiymətləndirilməsi metodlarından praktik olaraq fərqlənir, lakin bu cür qiymətləndirmələr üçün istifadə olunan göstəricilər proqnoz deyil, faktiki xarakter daşıyır, bu da alınmış nəticələrə yüksək həqiqilik verir. Səmərəliliyin təhlilinin nəticələri realizə olunan innovasiyalara münasibətdə marketinq proqramlarına düzəlişlər edilməsini, yeni sınaq satışlarının nəticələrinə görə yeni məhsula (xidmətə) münasibətdə qiymət siyasətin, satış siyasətinin və (və ya) innovasiyanı irəli çəkmə siyasətinin dəyişdirilməsinin mümkünlüyünü nəzərdə tutur .

İkinci məsələ təsərrüfat subyektlərinin, bütövlükdə apardığı innovasiya siyasətinə münasibətdə qərar qəbul edilməsini nəzərdə tutur. İnnovasiya layihələri innovasiya siyasətinin inteqral xarakterini nəzərə alaraq, səmərəliliyin qiymətləndirilməsi meyarları burada ümumiləşdirilmiş şəkildə olmalıdır, elmi-texniki, iqtisadi, sosial, ekoloji aspektlər üzrə əldə olunmuş faktiki səmərəlilik qiymətini ehtica etməlidir [2].

AMEA-nın Elmi İnnovasiyalar Mərkəzinin ekspert şurasının üç eksperti tərəfin-

dən S_i - ranqların cəmi, M_i - ədədi orta qiymətin hesablanması, «səs çoxluğu», R_i - normalaşdırılmış ranqlar üsulları vasitəsilə qiymətləndirilmiş nəticələr verilmişdir (cədvəl 1).

Cədvəl 1. Üç ekspert tərəfindən sıra şkalasında dörd obyektin qiymətləndirilməsi

Obyektlər (i)	Ekspertlər (j)			S_i	Səslərin paylanması	M_i	Səslərin paylanması	«Səs çoxluğu»	R_i	Səslərin paylanması
	1	2	3							
1	2	3	4	5	6	7	8	9	10	11
1	2	1	1	4	1	1,3	1	1	0,1	1
2	3	4	3	10	3,5	3,3	3,5	3	0,3	3,5
3	1	3	2	6	2	2	2	2	0,2	2
4	4	2	4	10	3,5	3,3	3,5	4	0,3	3,5

$$S_i = \sum_{j=t}^{n} r_{ij}$$

burada r_{ij}- j-ci ekspert tərəfindən i-ci obyektə (amilə) təyin edilmiş ranq;

n – ekspertlərin sayı.

$$M_i = \frac{\sum_{j=1}^{n} r_{ij}}{n}$$

9 qrafasında «səs çoxluğu» üsulu üzrə hesablama nəticələri göstərilib (obyekt səslərin əksəriyyətinin ona verdiyi yerə qoyulur).

10 qrafasında normalaşdırılmış ranqlar üsulu üçün hesablamaların nəticələri əks olunur:

$$W_{ij} = \frac{r_{ij}}{\sum_{i=1}^{m} r_{ij}};$$

$$R_i = \frac{\sum_{j=1}^{n} W_{ij}}{n}$$

burada r_{ij} - j-ci ekspert tərəfindən i-ci obyektə (amilə) təyin edilmiş ranq;

n - ekspertlərin sayı;

m - obyektlərin sayı;

W_{ij} - hər bir ekspert üçün obyektlərin ayrı-ayrı qiymətlərinin nisbi əhəmiyyət əmsalı;

R_i - i-ci obyekt (amil) üçün normalaşdırılmış ranq.

Ekspert səslərinin müvafiq paylanmasını aşağıdakı kimi verə bilərik:

$$W(N) = \frac{12\sum_{i=1}^{m}\left(\sum_{j=1}^{N} z_{ji} - \frac{N(m+1)}{2}\right)^2}{N^2(m^3 - m)}$$

W(N) qiyməti $0 \le W(N) \le 1$ hədlərindədir. W(N) = 1 halı göstərir ki, ekspertlərin rəyləri tamamilə üst-üstə düşür.

W(N) = 0 halı ekspert rəylərinin tamamilə üst-üstə düşmədiyini göstərir.

Qeyd etmək lazımdır ki, bu gün dünya iqtisadi nəzəriyyəsi və praktikası müvafiq maliyyə-iqtisadi hesablamaları yerinə yetirmək üçün təsərrüfatçı subyektlərə innovasiya layihələrinin qiymətləndirilməsi və əsaslandırılmasının mümkün üsulları, onların məzmunu və tətbiqi xüsusiyyəti haqqında zəruri olan geniş informasiya təqdim edir. Həm də nəzərə almaq lazımdır ki, müasir təsərrüfatçılıq şəraitində bu üsullardan istifadə olunması nəinki məqsədəuyğundur, həm də müəyyən şəkildə məcburidir, belə ki, xarici partnyorlarla qarşılıqlı əlaqəyə müəyyən aydınlıq gətirir (bu, Azərbaycanın beynəlxalq inteqrasiyası zamanı az əhəmiyyətli deyil). Lakin innovasiyaların iqtisadi əsaslandırılmasına müxtəlif müasir metodik yanaşmalardan birini, ən mükəmməlini seçmək olmaz, belə ki, üsullardan hər birinin özünə görə yaxşı cəhətləri və çatışmazlıqları var, onların tətbiqi isə çox vaxt innovasiyanın reallaşdırılmasının konkret şəraitindən irəli gəlir. Bununla əlaqədar olaraq qiymətləndirmənin məqsədini daha tam əks etdirən əsas göstəricilər qrupunun nəzərdən keçirilməsinin üzərində dayanmağın əhəmiyyəti var [3].

Bu məsələ üzrə aparılmış təhlili innovasiya layihələrinin səmərəliliyinin qiymətləndirilməsinin aşağıdakı ən çox yayılmış göstəricilərini seçməyə imkan vermişdir:

– layihənin reallaşdırılmasına investisiya xərclərinin məbləği (İX);
– innovasiyanın reallaşdırılmasından mənfəət (gəlir) (G);
– rentabellik və ya sadə mənfəət norması (R);
– özünüödəmə dövrü (Pay Back Period – PP);
– gətirilmiş xərclər (X);
– təmiz diskontlaşdırılmış dəyər (Net Present Value – NPV);
– son və ya gələcək dəyər (Future Value – FV);
– gəlirlilik indeksi (Profitability Index – PI);
– diskontlaşdırılmış özünüödəmə dövrü (Discount Pay Back Period – DPP);
– daxili gəlirlilik norması (Internal Rate of Return – IRR);
– şəkli dəyişmiş daxili gəlirlilik norması (Modified Internal Rate of Return – MIRR);
– yeniliklərin investisiyasına qoyulmuş kapitalın mülahizə olunmuş orta dəyəri (Weighted Average Cost of Capital – WACC).

– təmiz diskontlaşdırılmış dəyər (NPV) bütün hesabat aralığında təmiz ödənişlərin diskontlaşdırılmış axınları cəmi kimi hesablanır:

$$NVP = \sum_{t=1}^{T} (1/1+\delta)^t C_t$$

Burada ð – diskont norması; C_t- təmiz ödənişlər axınıdır

Gələcək gəlir və xərclərin cari qiyməti diskontlaşdırma yolu ilə müəyyən edilir. Ona görə ð diskont norması bəzən investorların kapitalına tələb olunan qayıtma ilə müəyyən olunan kapital dəyəri (cost of capital) adlandırılır. Diskontun zaman anında pul məbləğlərinin müqayisəsində iqtisadi mənası - bu dövr ərzində qaçırılmış gəlir normasıdır. Diskontlaşdırma əmsalı investorun istəyindən asılı olaraq dəyişdirilə bilər, lakin belə dəyişdirilə bilər ki, itkilər riskinin kompensasiyasını təmin etmiş olsun. Yüksək diskontlaşdırma əmsalı daha kiçik əmsala nisbətən başlanğıc vəsaitlərin proqnozlaşdırılan axınını daha tez azaldır. Əgər innovasiya layihəsinin firmanın ənənəvi fəaliyyət sferasına nisbətən az riskli olması ehtimal olunarsa, onda sadəyə nisbətən daha aşağı diskont norması secilir.

Gələcək pul axınlarının qeyri-müəyyənliyi diskont seçimində əsas problemlərdən biridir. Əgər gələcək pul axınları dəqiq məlumdursa, onları risksiz qaytarma norması $ð_0$ (r_0) üzrə sadəcə diskontlaşdırmaq lazımdır. Əgər NVP>0, investisiyanın rentabelliyi minimal diskontlaşdırma əmsalından yüksəkdir; əgər NVP<0, layihənin rentabelliyi minimal normadan aşağıdır və layihədən imtina etmək lazımdır. Əgər alternativ variantlar varsa, yaxşı olar ki, NVP – nin müsbət qiymətini almaq üçün zəruri olan investisiyanın məbləği dəqiqləşdirilsin. NVP – nin investisiyanın cari dəyərinə nisbəti I_t=I x K təmiz diskontlaşdırılmış gəlir əmsalı adlandırılır.

$$K_{NVP} = NVP \Big/ \sum_{t=1}^{T} (1/1+\delta)^t I_t$$

Burada I_t – t ilində ümumi investisiya məsarifləridir, ð – mənfəətin daxili normasıdır (İRR).

Təmiz gəlirin cari qiyməti sıfra bərabər olduqda, diskontlaşdırma əmsalı mənfəətin daxili norması adlandırılır, yəni elə ð ki,

$$\sum_{t=1}^{T} (1/1+\delta)^t C_t = 0$$

olduqda, İRR = ð olsun

Bu əmsal layihənin rentabelliyinin dəqiq kəmiyyətini (layihə üçün daxili diskontlaşdırma əmsalı) göstərir. İRR ümumi investisiya məsariflərinin faktiki səviyyəsini göstərir. İRR uzunmüddətli kreditlər üzrə faiz stavkasından böyük olduqda, investesiyalaşdırma haqqında qərar qəbul edilir. Mənfəətin daxili norması da həmçinin kreditorlar tərəfindən borc vermə şərtlərinin müəyyən edilməsi üçün

istifadə oluna bilər, belə ki, o, layihənin satılmaması riski olmadan ödənilə bilən faiz stavkasını müəyyən edir [4].

Formal olaraq gəlirliliyin modifikasiya olunmuş daxili norması göstəricisi faiz dərəcəsidir. Bu zaman bütün plan dövründə layihənin generasiya etdiyi pul gəlirlərinin son (gələcək) dəyəri layihənin investisiyasına qoyulan kapitalın diskontlaşdırılmış dəyəri ilə bərabərləşir. Bu göstəricinin hesablanma formulu aşağıdakı şəkildə verilə bilər:

$$MIRR = \sqrt[T]{\frac{FV_T}{PV_0}} - 1 \text{ və ya } MIRR = \sqrt[T]{\frac{\sum_{t=0}^{T} CIF_t \cdot (1+r)^{T-t}}{\sum_{t=0}^{T} COF_t \cdot (1+r)^{-t}}} - 1$$

burada MIRR – gəlirliliyin modifikasiya olunmuş daxili normasının miqdarı;

r – layihə reallaşdırılarkən azad olmuş kapitalın reinvestisiya dərəcəsi;

FV_T – bütün T dövrü ərzində layihənin generasiya etdiyi pul mənfəətlərinin son (gələcək) dəyəri:

PV_0 – layihənin investisiyasına qoyulmuş kapitalın diskontlaşdırılmış (xalis) dəyəridir.

İnnovasiya layihələrinin səmərəliliyinin qiymətləndirilməsinin qoyulmuş kapitalın tez qayıtmasını təmin edən ən cəlbedicilərinin sonradan seçilməsinin iqtisad-riyazi aparatının təkmilləşdirilməsi məsələləri aktualdır və xüsusi diqqətə layiqdir.

Hazırda dünya təcrübəsində innovasiya layihələrinin iqtisadi səmərəliliyinin qiymətləndirilməsinin bir çox xarici şirkətlər tərəfindən müvəffəqiyyətlə istifadə olunan müxtəlif yanaşmaların və üsulların bütöv bir kompleksi formalaşmışdır. İnnovasiya layihələrinin əhəmiyyətli fərqləndirici xüsusiyyətləri likvidliyin nisbətən aşağı səviyyəsi və riskliliyin yüksək səviyyəsidir, ayrı-ayrı qiymətləndirmə göstəricilərinin ödəmə dövrü kəmiyyəti ilə əlaqələndirilməsi tamamilə məntiqə uyğun və əsaslıdır, bir sıra hallarda isə, fikrimizcə, məcburidir.

Plan üfüqi kəmiyyətinin təyin olunmasına təklif olunan yanaşmanın tətbiqinin mümkün sahələrini təhlil edək. Bu zaman (MIRR) və (IRR) göstəricilərinin iqtisadi mahiyyətinin uyğunluğunu (hər iki göstərici innovasiya layihəsinin gəlirlilik səviyyəsini xarakterizə edir), həmçinin sonuncuda əhəmiyyətli çatışmazlıqların olmasını nəzərə alaraq əsas diqqət (MIRR) göstəricisinə ayrılır.

Yuxarıda göstərilənləri nəzərə alaraq investisiyanın ödəmə dövrünün maksimum yol verilən səviyyəsinə (PP^{max}) əsasən hesablanmış «gəlirliliyin modifikasiya olunmuş daxili norması» göstəricisini aşağıdakı şəkildə yazmaq olar:

$$MIRR^{PP^{\max}} = \sqrt[PP^{\max}]{\frac{\sum_{t=0}^{PP^{\max}} CIF_t \cdot (1+r)^{PP^{\max}-t}}{\sum_{t=0}^{PP^{\max}} COF_t \cdot (1+r)^{-t}}} - 1$$

burada $MIRR^{PP^{\max}}$ – investisiyanın maksimum yol verilən ödəmə dövrü ($PP^{\max}$) kəmiyyətinə əsasən hesablanmış gəlirliliyin modifikasiya olunmuş daxili norması-kəmiyyətidir.

WACC bir şirkət əsas kreditorlar, sahibləri və digər provayderlər təmin etmək üçün mövcud aktiv əsasında investiya qoyulşunun, minimum qaytarılması nəzərdə tutulur. Belə ümumi fond seçim fond, düz borc, konvertasiya borc, dəyişkən borc, zəmanət, variantları, pensiya öhdəlikləri, icra fond variantları, hökumət subsidiyaları və firmaları mənbələrdən pul axinları əsas götürülür. İnnovasiya layihələrinin səmərəliliyini qiymətləndimək üçün WACC –dan istifadə olunur.

WACC-ın əsas hesablama düsturu aşağıdakı kimidir:

$$\mathrm{WACC} = \frac{\sum_{i=1}^{N} r_i \cdot MV_i}{\sum_{i=1}^{N} MV_i}$$

Burada N kapital resusrlarının sayıdır, MV_i isə qiymətli kağızların bazar dəyəridir.

$$\mathrm{WACC} = \frac{D}{D+E} K_d + \frac{E}{D+E} K_e$$

Burada D ümumi borc, E ümumi səhmdar kapital, Ke kapitalın dəyəri və Kd borc dəyəridir.

Vergi təsiri bu formula daxil edilə bilər. Məsələn, korporativ vergi ilə bir ölkədə cəmi bazar MV_e dəyəri və kapital R_e dəyəri və ümumi bazar MV_d dəyəri və borc R_d dəyəri olan istiqrazların bir növü ilə səhmlərin bir növü tərəfindən maliyyələşdirilən bir şirkət üçün WACC, dərəcəsi t kimi hesablanır:

$$\mathrm{WACC} = \frac{MV_e}{MV_d + MV_e} \cdot R_e + \frac{MV_d}{MV_d + MV_e} \cdot R_d \cdot (1-t)$$

Diskontlaşdırılmış özünüödəmə dövrü göstəricisini hesablamaq üçün pul axınlarının cari dəyəri başlanğıc dövrün sıfır nöqtəsi kimi götürülür. Diskont edilmiş pul vəsaitləri axını yuxarıdakı formululla hesablanır.

Diskontlaşdırılmış pul vəsaitləri axını = Aktual Pul daxilolmalar/ $(1 + i)^n$

n - pul vəsaitləri aıd olduğu dövrdür.

Diskontlaşdırılmış pul vəsaitləri faktiki pul vəsaitlərinin hərəkəti və cari dəyəri-nin məhsuldur [5]

İqtisadiyyatda təsərrüfat fəaliyyətlərini xarakterizə edən çoxsaylı göstəricilər sıx qarşılıqlı əlaqəli olduğuna görə innovasiya layihələrinin kompleks qiymətləndirilməsi zamanı vahid prinsiplərə üstünlük verilməlidir.

İnnovasiya fəaliyyətinin səmərəsi elmi-texniki, sosial və iqtisadi nəticələrin qarşılıqlı əlaqəsi ilə səciyyələnir və müxtəlif keyfiyyətlidir. Odur ki, innovasiya layihəsinin nəticəsini yalnız onlara xas olan meyarlar və göstəricilərin köməyi ilə xarakterizə etmək lazımdır.

İnnovasiya layihələrinin reallaşdırılmasının məqsədəuyğunluğunun əsaslandırılması prosesində mövcud olan nöqsanların aradan qaldırılması üçün işdə (IRR) və (MIRR) göstəricilərinin hesabat formullarında plan üfüqi kəmiyyətinin qiymətini qoyulmuş vəsaitlərin bu maksimum yol verilən ödəmə dövrü ərzində təyin etmək təklif olunur. Bu mənada gəlirlilik səviyyəsini təyin etmək mümkündür. Eyni zamanda innovasiyanın tətbiqinə istiqamətlənmiş investisiya xərclərinin məbləği bütün istifadə dövrü ərzində deyil, ancaq normativ ödəmə dövrü ərzində onun reallaşdırılmasından olan daxilolmalarla ödənilməsi təmin ediləcəkdir. Belə yanaşmadan istifadə ilk növbədə ölkə təsərrüfatı subyektlərinin innovasiya layihələrini seçərkən onlardan qısa ödəmə dövrü ilə xarakterizə olunanlara üstünlük vermək zərurəti yaradacaqdır [6].

Azərbaycan Respublikasında «yeni iqtisaiyyatın» sürətli inkişafı, kapital bazarı və yeni texnologiyalar arasında artan qarşılıqlı əlaqə, yeni texnologiyaların sosial istiqamətlərinin güclənməsi, yeni biliklərin, texnologiyaların, ərzaqların, xidmətlərin yaradılması və istifadəsinin miqyaslı xarakter daşıması MİS-in ölkənin innovasiya inkişafının institusional əsası kimi yaradımasına şərait yaradır.

Lakin bu sistemi yaradan amillərin səmərəli təsiri aşağıdakı şərtlər daxilində mümkündür:

1. İnnovasiya prosesini işə salmaq üçün kifayət qədər intellektual və texnoloji potensialın olması;

2. İnnovasiya şəbəkəsi iştirakçılarının sayının daim artması, həmçinin yeni sosial qrupların cəlb edilməsi;

3. İnnovasiya inkişafına istiqamətlənən institusional sistemin yaradılması (formal və qeyri-formal elementlər daxil olmaqla);

4. Təsərrüfatçı subyektləri, fiziki şəxslərin əksəriyyəti tərəfindən innovasiyaya, MİS-ə tələbin olması;

5. İnnovasiya sistemini maliyyələşdirməyə imkan verən iqtisadi inkişafın səviyyəsinin (adambaşına düşən ÜDM həcmi) artımı.

fın

biliklərin istehsalı və satışı ilə məşğul olan qarşılıqlı əlaqəli təşkilatların məcmusu şəklində yaradılması və inkişafına imkan yaradır [7].

Nəticə

Bazar iqtisadiyatı şəraitində innovasiyanın iqtisadi səmərəliliyinin qiymətləndirilməsinin əsas üsulları təhlil edilmiş və sistemləşdirilmiş, innovasiya layihələrinin qiymətləndirilmə metodikası təklif edilmişdir. İnnovasiya layihələrinin maliyyələşdirmə şərtlərinin optimallaşması metodikası, innovasiya layihələrinin ekspert qiymətləndirilməsi metodikası verilmişdir. Bu üsulun təcrübədə həyata keçirilməsi nəticəsində kapitaldan istifadənin maksimal səmərəsini təmin edən borc siyasətinin işlənməsinə təminat yaradır.

İnnovasiya layihələrinin əsas səmərəlilik göstəriciləri qismində metodik tövsiyələr aşağıdakıları müəyyən edir:

- layihə iştirakçılarının bilavasitə maliyyə maraqları sərhədindən kənara çıxan və dəyər ifadəsində məsrəf və nəticələri nəzərə alan iqtisadiyyatın səmərəliliyi;
- layihə iştirakçıları üçün maliyyə nəticələrini nəzərə alan maliyyə (kommersiya) səmərəliliyi;
- bütün büdcə səviyyələri üçün maliyyə nəticələrini nəzərə alan büdcə səmərəliliyi.

İnnovasiya proseslərinin tədqiqi mövcud texnologiyaların kommersiyalaşdırılması və transferi mexanizmlərinin daha da inkişaf etdirilməsi zəruriliyini göstərmişdir. Bu, innovasiyaların səmərəliliyinin yüksəldilməsi və tədqiqatların nəticələrinin istehsala tətbiqi hesabına ölkənin innovasiya potensialının reallaşdırılmasına imkan yaradacaqdır.

Təhlillər göstərir ki, ölkənin innovasiya potensialından səmərəli istifadə etməyə mane olan bir sıra problemlər vardır. Ölkənin elmtutumlu məhsul bazarlarında payı cüzidir. Bunun səbəbi təkcə vəsaitlərin çatışmamasında deyil, həmçinin elmin real istehsaldan ayrı düşməsindədir. Bu mövqedən yanaşdıqda, texnologiyaların kommersiyalaşdırılması və transferi proseslərinin inkişafı daha böyük strateji əhəmiyyət kəsb edir.

Texnologiyaların transferinin əhəmiyyəti onunla izah olunur ki, ölkə qarşısında innovasiya tipli iqtisadiyyatın tezliklə formalaşması və yeni prinsiplər əsasında dünya iqtisadiyyatına inteqrasiyası məsələsi durur. Bu da yalnız səmərəli MİS-in formalaşması və elmi-texniki potensialdan intensiv istifadə edilməsi, onun təkrar istehsalı şəraitində mümkündür. Ölkə iqtisadiyyatının innovasiya əsasında modernləşdirilməsini onun səmərəli kommersiyalaşdırılmasını təmin edən innovasiya infrastrukturu olmadan həyata keçirmək mümkün deyil [8].

Ədəbiyyat

практика М., 2010

[3] Qasımov F.H., Nəcəfov Z.M. İnnovasiyalar: yaranması, yayılması və inkişaf perspektivləri, Bakı: Elm, 2009

[4] Управление инновациями. Пер.с.англ. Е. Гутникова, А. Блюм М., 2010

[5] A Guide to the Project Management Body of Knowledge, PMBOK Guide./ Ed. 2000. Project Management Institute, Drexel Hill. Pennsylvania, 2005.
[6] Барышева А.В., Инновационный менеджмент М., 2009
[7] Azərbaycan Respublikasında 2009 -2015 – ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi üzrə Dövlət Proqramı.
[8] Qarayev N.Ə. İnnovasiya menecmenti. Bakı, 2011

Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri, İl 3, Cilld 3, İyul – Sentyabr, 2015, səh. 101-113
Scientific Reviews in Azerbaijan State University of Economics, Year 3, Volume 3, July -September, 2015, pp. 101-113

AVİASİYA TEXNİKİ XİDMƏT VƏ UÇUŞ ŞİRKƏTLƏRİNİNDƏ "İNSAN FAKTORU" NUN ROLU VƏ ƏHƏMİYYƏTİ

Z.H.Əhmədov

"Silk Vey Helicopter Services" MMC-nin Logistika şöbəsinin rəisi
Ziya.Ahmadov@swhs.az (055)-895-54-48

Məqalə redaksiyaya daxil olmuşdur 20 avqust 2015; Çapa qəbul edilmişdir 15 sentyabr 2015; elektron çap edilmişdir 6 oktyabr 2015.
The article was received 20 Augast 2015; accepted 15 September 2015; published online 6 October 2015.

Xülasə

Mülki aviasiya təhlükəsizliyinin təmin edilməsi Beynəlxalq Mülki Aviasiya Təşkilatının (ICAO) əsas məqsədidir. Bu sahədə əhəmiyyətli irəlləyiş əldə olunmasına baxmayaraq, görüləcək işlər çoxdur. Bildiyimiz kimi, aviasiya qəzalarının baş vermə səbəbləri daha çox insan fəaliyyətinin nəticəsində baş verir ki, bu sahədə də istənilən təkmilləşdirmə səyləri təhlükəsizlik səviyyəsinin artırılmasına gətirib çıxarır. Bu baxımdan, 1986-ci ildə İCAO Assambleyası tərəfindən uçuşların təhlükəsizliyi və insan faktoruna əsaslanan A 26-9 qərar qəbul edilmişdir. İnsanın bacarığı, refleksləri, qabiliyyətləri, bilik və təhsil səviyyəsi, məntiqi inkişafı, həyəcanı, hissiyatı, diqqəti, stressi, şəxsiyyəti və fiziki sağlamlığı uçuş təhlükəsizliyinə təsir edən ən əhəmiyyətli faktorlardan biridir. Bu baxımdan, "Insan faktoru" təliminin məqsədinin tam olaraq başa düşülməsində qeyd olunan xüsusiyyətlərin öyrənilməsi nəticəsində az da olsa yaxınlaşma ola bilər. Meydana gəlmiş qəzalar incələndiyində, insan faktoru ilə yaranacaq səhvlərin 70-80% kimi səviyyədə olmasından dolayı, insan amillərini daim diqqətdə saxlamaq üçün bir əsas olduğunu ortaya qoymaqdadır. Ümumiyyətlə hər hansı bir qəza riskini azaldan ən böyük ünsur yenə uçuşu idarə edən pilot, hava dispetçerləri və operatorları, texniki xidmət üzrə personalın özüdür deyə bilərik. Bu tədqiqatın əsas məqsədi "Mill Aviasiya Akademiyası" bazasında yaradılmış Hava nəqliyyatı fakültəsinin mühəndislik ixtisası və bakalavr pilləsi üzrə təhsil alan tələbələr üçün praktik təlimatın hazırlanması və bu sahədə qeyri-mütəxəssislər üçün isə hava gəmilərinin texniki xidməti zamanı "İnsan faktoru"nun önəminin dərk edilməsidir. Aparılmış tədqiqatla müəyyən bir şəraitdə hava gəmilərinin texniki xidməti zamanı insanın bacara bildiyi və bacara bilmədikləri onun iş fəaliyyətinə və təhlükəsizliyinə olan təsiri öyrənilir. Son 10 ildə aparılan tədqiqatlar və analizlərin nəticələrinin ortaya qoyulması bu tədqiqatın orijinallığını və elmi yeniliyini daha da artırır.

JEL Classification: J24

THE ROLE AND IMPORTANCE OF THE "HUMAN FACTOR" IN THE DEVELOPMENT OF AVIATION MAINTENANCE AND FLIGHT COMPANIES

Abstract

Ensuring the safety of civil aviation - the main goal of the International Civil Aviation Organization (ICAO). In this area, significant progress has been achieved, but more needs to be done. It is well known that the majority of aviation accidents and incidents are the result of less than optimum human performance, which means that any improvement in this field can contribute significantly to improving safety. The abilities, reflexes, capabilities, knowledge and training levels, judgements of their intelligence, emotions, sensitiveness, carefulness, personality and the status of their health of human being are some of the most important factors affecting the flight safety. Although "human factors" can not be defined exactly, by reviewing these factors we can acquire a definition for "human factors". When we examine the occurred aviation accidents, we can see that human factors plays a major role in the accidents with a rate of 70 to 80 percent. Therefore human factors should be considered as an element to be dealed with and to be controlled. From this point of view we can say that the pilots, air traffic controllers, radar operators and the maintenance crew are the peoples who can also minimize the risk of an accident. The purpose of this handbook - given the true state of affairs to give practical guidance on the human factor for the students of the Faculty of engineering of air transport, in areas undergoing training bachelors, and for non-specialists in these fields - a basic understanding of the role of human factors in aircraft maintenance. The objective benefits - to show how the capabilities and limitations of human could affect its operations and security in certain conditions of carrying out maintenance. Conducted over the past 10 years of research analysis and conclusions, increases the originality and scientific approach these standards.

Key words: aviation, human factors, maintenance, avia crash, maintenace personal

РОЛЬ И ЗНАЧЕНИЕ «ЧЕЛОВЕЧЕСКОГО ФАКТОРА» В РАЗВИТИИ АВИАЦИОННО-ТЕХНИЧЕСКИХ И ЛЕТНЫХ КОМПАНИЙ

Резюме

Обеспечение безопасности гражданской авиации – главная цель Международной Организации Гражданской Авиации (ИКАО). В этой области удалось достичь значительного прогресса, но еще большее предстоит сделать. Общеизвестно, что большинство авиационных происшествий и инцидентов являются результатом менее чем оптимальных действий человека, а это означает, что любые улучшения в этой области могут в значительной мере способствовать повышению уровня безопасности полетов. Способности, рефлексы, возможности, уровни знаний и подготовки, суждения, их ум, эмоции, чувствительность, аккуратность, индивидуальность и статус, здоровье человека являются

одним из самых важных факторов, влияющих на безопасность полетов. Хотя термин "человеческий фактор" не может быть определен точно, путем рассмотра этих факторов мы можем дать ему определение "человеческого фактора". Когда мы исследуем произошедшие авиационные происшествия, мы видим, что человеческий фактор играет важную роль в авариях со скоростью от 70 до 80 процентов. Поэтому человеческий фактор следует рассматривать как элемент будет съезжались с и быть под контролем. С этой точки зрения мы можем сказать, что пилоты, авиадиспетчеры, операторы радаров и персонал по техническому обслуживанию являются людьми, которые могут минимизировать риск аварии. Цель данного пособия - с учетом истинного положения дел, разработать практическое руководство по человеческому фактору для студентов факультета инженеров воздушного транспорта, проходящих обучение по программам бакалавриата, а для неспециалистов в этих областях - общее представление о роли человеческого фактора при техническом обслуживании воздушных судов. Задача пособия - показать, как возможности и ограничения человека могут повлиять на его деятельность и безопасность в определенных условиях проведения технического обслуживания. Проведенные за последние 10 лет исследования и результаты анализов увеличивают оригинальность и научную новизну этого исследования.

Ключевые слова: авиация, человеческий фактор, техническое обслуживание, авиакатастрофа, технический персонал.

Günümüzdə mediyanın əsas xəbər başlıqlarında dəhşətli avia qəzalarının yer tutması davam etdiyinə baxmayaraq, ictimai təbliğ olaraq bildirmək olar ki, hava nəqliyyatı ilə səyahət nəqliyyatın ən təhlükəsiz forması olaraq qalır. Aviasiya Qəzaları üzrə Arxiv Bürosundan əldə olunan məlumatlara əsasən, hava səyahəti zamanı 2013-cü il üzrə ölənlərin sayı 265, 2012-ci il üzrə isə 794 nəfər təşkil etmişdir. Bu rəqəmlər yol nəqliyyatı ilə baş vermiş qəzalarda ölənlərin sayı ilə müaqyisə olunmaz dərəcədə azdır. Beynəlxalq Mülki Aviasiya Təşkilatı (ICAO) tərəfindən verilən açıqlamaya görə təxminən 3 milyarda yaxın insan 2012-ci ildə hava nəqliyyatından istifadə etmişdir. Əğər bunu riyazı üsul ilə təhlil etsək görərik ki, sizin arzuolunmaz

zamanı sağ qalma şansınız 99,999% təşkil edir [1] .

Cədvəl 1. Hava nəqliyyatında ölüm və qəzaların baş vermə dinamikası

İl	Ölüm sayı (nəfər)	# Qəzaların sayı
2013	265	138
2012	794	119
2011	828	117

2010	1,115	130
2009	1,103	122
2008	884	156
2007	971	147
2006	1,294	166
2005	1,459	185
2004	771	172
2003	1,230	199
2002	1,413	185
2001	4,140	200
2000	1,582	189

Mənbə: “A Human Factors Analysis” Rocky 'Apollo' Jedick,2014

Cədvəldən göründüyü kimi, hava nəqliyyatı ən təhlükəsiz nəqliyyat vasitəsi olmasına baxmayaraq, hələ də avia qəzalar baş verməkdədir və bunun nəticəsində insan həyatı təhlükə altına düşməkdədir. Aparılmış tədqiqatlar göstərir ki, baş vermiş qəzaların çoxusu məhz insanın əli ilə baş vermiş qəzalardır. Bu baxımdan, “İnsan faktoru”nun öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Belə ki, bir çox ölkələrdə olduğu kimi Azərbaycan Respublikası Mülki Aviasiya Administrasiyası tərəfindən Part 145-lə bağlı texniki xidmət üçün insan faktorunun əsasnaməsini yaratmışdır. Həmin əsasnaməni MAA-nın rəsmi internet səhifəsində əldə etmək mümkündür və o, AAR 145.A.30 (e) / AMC 145.A.30 (e) 6, 8, 9, 10 – AAR 145.A.35 (d) – AAR 145.A.65 (b) bəndlərinə uyğun düzənlənmişdir.

Şəkil 1 - günümüzün teknoloji inkişafına uyğun olaraq hava gəmiləri son modern avadanlıqlar və konstruksiyalarla təmin olunmasına əsaslanaraq avia qəzaların sayı azalmaqda, bunun tam əksinə isə insan amilinə əsaslanan qəzaların sayı çoxalmaqdadır. Belə ki, aviasiya sahəsində “İnsan faktoru” anlayışı getdikçə böyük əhəmiyyət qazanmaqdadır ki, mexaniki səhvlərdən daha çox insan səhvi nəticəsində yaranan avia qəzaların sayının azalması ön plana çıxmaqdadır. Belə ki, ABŞ hava məkanını kontrol edən və hüquqi normativ sənədlərlə düzənləyən Federal Aviation Administration (FAA) hər il insan səhvi nəticəsində yaranan avia qəzaların statistikasını apar-maqdadır. Tam siyahını http://lessonslearned. faa.gov/ saytından əldə etmək olar [2].

Şəkil 1. Aviaqəzaların baş vermə səbəbi



Mənbə: https://www.faa.gov/

Aşağıdakı cədvələ nəzər yetirdiyimiz zaman insan səhvi ilə yaranan avia qəzaların sayının az olmadığı görünür. Məsələn, dəhşətli avia qəza iki hava gəmisinin toqquşması ilə 1977-ci ildə Kanar adalarında – Hollandiya avia şirkətinə məxsus "Boeing-747" təyyarəsi Tenerif aeroportuna uçarkən dumanlı hava şəraitində PanAm şirkətinə məxsus diğər "Boeing-747" hava gəmisi ilə toqquşmuşdur. Toqquşma zamanı 578 nəfər həyatını itirmişdir. Hadisənin baş vermə səbəbi isə xarici dil yetərsizliyi olmuşdur. Belə ki, dispetçerlərin ispan aksenti ilə ingilis dilində komanda vermələri hollandiya uçuş heyyəti tərəfindən çox pis başa düşülmüşdür [3].

Diğər hadisə isə 1985-ci ildə baş vermiş avia qəzadır ki, yaxın 40 il ərzində ölənlərin sayına görə rekord göstərici hesab olunur. Qəzaya uğramış e təyyarəsində 524 insan var idi ki, yalnız 4 nəfəri xilas olunmuşdur. Hadisənin səbəbi isə keyfiyyətsiz texniki təmir olmuşdur.

"İnsan faktoru" anlayışı avaisya sahəsində yeni olmasına baxmayaraq, geniş istifadə olunur. İlk dəfə termin olaraq "İnsan faktoru" anlayışı Böyük Britaniya Hava Müdafiə Sisteminində 1940-ci illər ərəfəsində aparılmış araşdırılmaların hesabat şəklində təqdim olunması zamanı "İnsan faktoruna aid təlim materalı"nda

istifadə olunmuşdur. Lakin rəsmi olaraq 1957-ci ildən başlayaraq, həmin təlim materialları müasir praktikanın formalaşmasında tətbiq olunmağa başlanmışdır. O zamanlar bu termin əsasən huminatar elmlərdən (psixologiya, tibb, fiziologiya və s.) öyrədilən modellərin, nəzəriyyələrin təsviri və onun insan üzərindəki təsiri öyrənilirdi [4] .

Cədvəl 2. Ölənlərin sayına görə 10 ən böyük avia qəzaların siyahısı (1974-2015)

№	Təyyarə	Ölənlərin sayı	İl	Qəza yeri	Avia şirkət - Ölkə	Qəza səbəbləri
1.	Boeing-747	578	1977	Kanar adaları	Hollandiya, ABŞ	Dispeçerdən yanlış komanda qəbulu
2.	Boeing-747	520	1985	Yaponiya	Yaponiya	Hava gəmisinin qüsurlu təmiri
3.	ИЛ-76, Boeing	349	1996	Hindistan	Qazaxıstan, Səudiyyə Ərəbistanı	Havada toqquşma
4.	DC-10	346	1974	Fransiya	Türkiyə	Baqaj qapısını açıq qalması
5.	Boeing-737	329	1985	Atlantik	Hindistan	Terror
6.	Boeing-777	298	2014	Ukrayna	Malaziya	Terror
7.	ИЛ-76	275	2003	İran	İran	Zəif görünmə şəraitində yer səthi ilə toqquşma
8.	A 300	264	1994	Yaponiya	Çin	-
9.	DC-8	250	1985	Newfoundland	Kanada	Qalxma zamanı uçuş sürətinin azalması
10.	DC-10	257	1979	Antraktida	Yeni Zenlandiya	Yer səthi ilə toqquşma

Mənbə: http://forinsurer.com/public/14/07/07/3824/

Bir çox müəlliflər bu termini "ergonomik" anlayışı ilə eyni tuturlar və bu anlayışın sadəcə təhlükəsizlik sistemində insan əməyinin ümumiləşdirici bir hissəsi kimi qələmə verirlər. Çox sadə dillə söyləmiş olsaq, insan faktoru "insanın işinə uyğunluğu, işin insana uyğunlaşdırılması" dır və "İnsan faktoru" aviasiya texniki xidməti kontekstində daha çox aşağıda göstərilən şəkildə başa düşülə bilər:

"İnsan amilləri" iş yerlərində insanların bacarıq imkanlarını və insanın məhdudlaşdırılmış fəaliyyətini öyrənir. "İnsan amilləri" sistemin icra olunma səviyyəsini ölçür. Belə ki, bu təlim texniki xidmət personalının avadanlıqlardan istifadə etmə qabiliyyə-

tini, mövcud olan yazılı və şifahi prosedurlar və qaydalara olan münasibətini, həmçinin ətraf muhitlə olan qarşılıqlı təsirini öyrənir. Texniki xidmət üzrə personal və sistem arasındakı münasibətlərin optimallaşdırılması nəticəsində Uçuş təhlükəsizlilik səviyyəsinin yaxşılaşdırılması insan amillərinin araşdırılma predmetidir.

Bildiyimiz kimi, hər hansı bir sistemi və ya mövzunu daha yaxşı anlamaq üçün müxtəlif modellərdən istifadə olunur. Belə modellərdən biri də, SHELL modelidir. Bu model ilk dəfə olaraq professor Elvin Edvards (Elvin Edwards) tərəfindən 1972 – ci ildə istifadə olunmuşdur (Şəkil 2).

Bu modelin əsas elementlərinin baş hərfindən götürülərək SHELL sözü meydana gəlmişdir. Belə ki, "software" – proqram təminatı, "hardware" – obyekt, "environment" — ətraf mühit, "liveware" — subyekt kimi ədəbiyyatlarda qələmə verilir. SHELL modelinin tam mərkəzində isə diğər əsas bir element L - insan durur. Həmin elementin SHELL diğər blokları arasındakı qarşılıqlı münasibət öyrənilir [5].

Şəkil 2. SHELL modeli



Mənbə: müəllif tərəfindən tərtib edilmişdir.

Software – proqram təminatı: bura daha çox texniki prosedurlar, iş cədvəlləri, təlimatlar və s. aid olunur. Hər hansı bir prosedurun düzgün yazılmaması, hər hansı bir simvolun düzgün qoyulmaması, xarici dil zəifliyi bu elementdə tez-tez qarşıya çıxan problemlərdəndir. Bildiyimiz kimi, Sovet sistemi dağıldıqdan sonra əldə mövcud olan rusdilli ədəbiyyat tədricən yerini ingilis dili ilə yazılmış ədəbiyyata vermək məcburiyyətində qaldı. Buna görə bir çox insanlarda, ingilis dili səviyyələrinin dövrün tələblərinə cavab vermədiyi üçün, hələ də ingilis dilində olan təlimatların oxunması və anlanmasında səhvə yol vermə əmsalı böyükdür. Hazırda bir çox aviasiya şirkətləri bu

məsələnin həll olunması üçün şirkətdaxili ingilis dili təlimləri təşkil etməkdədir ki, bu da problemin qismən də olsa həll olunmasına köməklik göstərməkdədir.

Hardware - obyekt: avadanlıqlar, alətlər, ehtiyat hissələri, ölçü vasitələri və s. aiddir. Ən çox rastlanan səhvlərə lazımi alət və ya ehtiyat hissələrinin anbarda olmaması, düzgün olmayan quraşdırma, düzgün saxlanılmama şərtləri və s. daxildir. L-H münasibəti bir çox ədəbiyyatlarda İnsan-Texnika kimi səciyyələndirilir. Belə ki, müasir dövrdə hava gəmilərinin daha çox avadanlıq və avionik cihazlarla təchiz olunmasını nəzərə alaraq onlara olan münasibətdə birmənalı qarşılanmır. Həmin avadanlıqlara və cihazlara təlimata uyğun olmayan quraşdırma aparmaq uçuş təhlükəsizliyinə təsir edən ən başlıca faktorlardan biridir. İnsan-Texnika münasibətləri təkcə "İnsan faktoru"nda deyil, diğər elmlərin də əsas müzakirə predmeti olaraq qalmaqdadır.

Environment - ətraf mühit: daha çox bizi əhatə edən fiziki mühit, habelə anqardakı şərait, xidməti iş mühitinin təşkilinin sxemi, idarəetmə strukturu və s. aiddir. Daha çox sıx rastlanan problemlər anqardakı iş şəraitinin əlverişli olmaması göstərilir. Belə ki, anqar şəraitində temperaturun 12 dərəcədən aşağı düşməsi texniki xidmət işini yerinə yetirən mühəndislərdə barmaq hiss etmə qabiliyyətini "0" səviyyəsinə salır. Bu daha şox naqillərin birləşdirilməsi zamanı düzgün quraşdırılma aparılmasına maneçilik törədə bilər. Tam əksinə, temperaturun 26 dərəcənin üstündə və daha çox olması mühəndislərdə halsızlıq, daim tərləmə və diğər xoşagəlməz narahatçılıqlar doğurur, fikri cəmləşdirməyə təsir edir.

Liveware - subyekt, başqa sözlə ifadə etmiş olsaq, insanlar arasındakı qarşılıqlı münasibətlər öyrənir. Bəzi mütəxəssislər ixtisaslı təhsil-təlim keçmələrinə baxmayaraq, komanda şəklində işləmək məcburiyyətində qalırlar və əsl çətinlik məhz buradan başlayır. Məsələn, hər hansı bir texniki xidmət işinin görülməsində eyni təhsil səviyyəsinə malik insanların hansı birinin komandaya liderlik etməsi problemə çevrilə bilər. Bu baxımdan, ICAO tərəfindən xüsusi qabaqlayıcı təlimlər keçirilir ki, bunlardan biri də "İnsan faktoru" təlimidir. Bu təlimin əsas məqsədlərindən biri iş personalına özlərinin və diğər şəxslərin bacarıq və imkanlarını, yetərsiz və zəif tərəflərini anlamasına kömək etmək və bunun nəticəsində yarana biləcək insan səhvlərinin sayını azaltmaqdır.

Yuxarıda qeyd olunanlara sadə misallar üzərində baxaq. Hər hansı bir şəxsin yüksəklik qorxusu varsa, o zaman həmin şəxsin yüksəklikdə işləməsinə mane olmaq lazımdır, əks-halda qorxudan mütləq nöqsan buraxması qaçılmazdır. İnsanın evdə və ya işdəki təzyiqdən dolayı yaranan stres vəziyyətində işləməsi, gecə normadan artıq spirtli içki qəbul edərək və ya gecə yuxusuz qalaraq işə gəlməsi, hər gün eyni işi görməkdən bezməsi və s. bu təlimin müzakirə obyektidir.

Ümumiyyətlə insanın səhvləri üzərində aparılmış tədqiqatlar onu göstərmişdir ki, insanın ən çox səhv buraxdığı 12 ədəd faktor mövcuddur ki, bu da elmi ədəbiy-

yatlarda "Çirkli dəst[1]" adlandırılır. 1980-ci illərin sonu və 1990-cı illərin əvvəlləri texniki xidmətə söykənən avia qəzaların sayının artması ilə əlaqədar olaraq, Kanada nəqliyyat departamenti aviasiya sənayesi ilə birlikdə texniki xidmət zamanı daha çox diqqət verilməsi gərək olan 12 ədəd insani faktoru müəyyən etmişdir ki, bu da texniki xidmət zamanı baş verə biləcək nöqsanları azaldır. 1994-cü ildən başlayaraq "Çirkli dəst" anlayışı beynəlxalq statusu alaraq bütün dünyada texniki xidmət personalı üçün bələdçi rolunu oynayır [6]. "Çirkli dəst" aşağdakılardan ibarətdir:

Cədvəl 3. "Çirkli dəst"

№	"Çirkli dəst" faktoru	Nümunə	Mövcud təhlükəsizlik tədbirləri
1	**Ünsüyyət çatışmazlığı**	"Zənimcə diğər növbədə olan heyyət təyyarədə yağlama işini başa vurub". Düzgün olmayan ünsüyyət formasıdır və tez tez rastlanan nöqsandır.	Şübhəni aradan qaldırılması və ünsiyyət üçün qeydiyyat jurnallarından istifadə edin. Görüləcək və tamamlanmayan iş mütləq qabaqcadan müzakirə olunmalıdır. Heç vaxt güman etməyin, həmişə yoxlayın.
2	**Özündən razılıq**	"Mən bura 1000 dəfə baxmışam və heç vaxt heçnə tapmamışam." Özündən razı olan texnik ona ayrılan sahəni öz iş təcrübəsinə inanaraq inspeksiyanın görülməsi haqqında sənədi imzalayır. Günlük rutin işləri hər gün təkrarlanması məhz insanda özünə inam prinsipini yaradır və əğər nə vaxtsa heç nə baş verməyibsə indidə baş verməz deyə özünü sakitləşdirir.	Özünü səbirli olmaq üçün daim məşq et və hər zaman nöqsan tapılmasını fikrini bir vərdiş halına gətir. Heç vaxt görmədiyin işə görə imza atma. Heç vaxt güman etməyin, həmişə yoxlayın.
3	**Bilik/savad çatışmazlığı**	"Bu ehtiyyat hissəsinin necə quraşdırmalıyam. Nəisə düz alınmır." Yetərli biliyin olmaması. Belə ki işi görən texniki heyət yetərli biliyə sahip olmadığı üçün hava gəmisinin quraşdırılan obyekt haqqında məlumatlı deyil. Bu əlbəttə yüksək temp ilə artan texnologiyanın təsiri ilə əlaqədardır ki, daim bilik səviyyəsinin yenilənilməsinə ehtiyac duyulur.	Yaddaşa etibar etmə və hər zaman göstərilmiş iş üzrə texniki təlimatlara bax. Şüphəli an zamanı diğər şəxslərlə diskusiya apar.Bu iş üzrə təlimlərdən keç.
4	**Diqqətsizlik, yayinma və unutqanlıq**	"Sənin yoldaşın təcili telefonda gözləyir" İşdən yayındırma, bu halda texnik işə olan konsentrasi-	Çalışmaq lazımdır ki, yarım qalan işi yerindəcə görülsün. Yarım qalan iş varsa, onu qey-

[1] düjün : On iki eyni növ şeyin ədədi,on iki eyni növ əşyadan düzəldilmiş dəst,komplekt. Bir düjün qaşıq (12 dənə qaşıq başa düşülür).

		yası tamamilə pozulur və fikri evdən gələn zəngə yönəlir, işə yenidən döndüyü zaman isə diqqəti toplamaq və unutqanlıq kimi səhvlər buraxma ehtimalı böyüyür.	diyyat jurnalına qeyd edin. Yarım qalan işi yenidən gördüyünüz zaman mütləq 3 addım geridən başlayın.
5	**Komanda şəklində görülən iş**	"Mən fikirləşdim ki sən təyyarəni sola döndərəcəksən" Komanda şəklində görülən iş xüsusəndə 2 nəfərdən artıq personalın daha çətin texniki xidmət göstərilməsi zamanı düzgün ünsüyyət qurulmamasından dolayı çıxan nöqsanlardır.	İşə başlamazdan əvvəl işi bölüşdürmək və əmin olmaq lazımdır ki, hər kəs görəcəyi işi düzgün başa düşüb.
6	**Yorğunluq**	"Mən çox şadam ki, iki günlük iş növbəsi başa çatır." Yorğunluq – daim bir nəfərin bir işə daha çox yükləmək onun vaxtından tez yorulmasına səbəb olur və nöqsan etmə əmsalı çoxalır.	Yorğunluq simptomlarından xəbərdar olmaq lazımdır. Müntəzəm (8 saatdan az olmamaq şərt ilə) yuxu almaq və qısa idmanla məşğul olmaq lazımdır. Başqalarından öz işini yoxlamaq üçün xahiş et.
7	**Resurs çatışmamazlığı**	"Bu işi görmək üçün 1 texnik yetərlidir" İnsan resursu çatışmamazlığı. Beləki texniki təlimata əsasən əğər texniki təmir işinin görülməsində 3 nəfər tələb olunduğu zaman 1 nəfərin həmin işə buraxılması özündən aslı olmayan səhvlərin yaranmasıma şərait yaradır.	İşə başlamazdan əvvəl daim işi görəcək yetərli personalın və yetərli stokun olmasına əmin olmaq lazımdır.
8	**Təzyiq göstərilmə**	"Bir az tez olunuz, yenə geç qalırıq" Təzyiq altında işləmək, işi necə gəldi bitirmək təki kiməsə töhmət gəlməsin.Yanlış yanaşma və səhv buraxılması üçün təzyiq potensial məbə sayılır.	Təzyiq şəxsi məna daşımamalıdır. Başqalarından kömək istə və "Yox" deməyi bacarmaq lazımdır.
9	**Özünə güvənin olmaması**	"Təyyarənin sahibi mənəm və mən bildirirəm ki, bu bir o qədər böyük nöqsan deyil". Əlbətdə ki, texniki heyyət rəhbərliyinin yanında öz güvənini itirərək qorxudan, əminsizlikdən dolayı təyyarənin həqiqətən pis vəziyyətdə olması haqqında məlumatları gizlədir və bu da avia qəzaların baş verməsinə səbəb ola bilər.	Sadəcə, qeydiyyat jurnalında hava gəmisindəki nöqsanı qeyd et və sadəcə hansı hissənin istismara yararlı olduğuna imza at. Standartlara qarşı getməkdən çəkinin.
10	**Stress**	"Mən təyyarəni zədələdim. İndi borclarımı necə verəcəm, məhkəməyə düşsəm halım necə olacaq"	İş zamanı stressə qarşı çox diqqətli olmaq lazımdır. İşi dərhal saxlamaq və problemin səmə-

		Stress – təyyarənin zədələnməsindən sonra stressə düşən texniki personal düzgün qərarlar verə bilmir və səhvə yönəlik hərəkətləri çoxalır.	rəli həll yollarını araşdırınız. Ən azından məzuniyyət və ya qısa bır istirahət götürə bilərsiniz. Başqalarından öz işivi yoxlamaq üçün xahiş et. Stresi iş yoldaşlarınla müzakirə et.
11	**Döğru olmayan qərar**	"Bütün təlimatlar qeyd edir ki, ən uyğun yerdə quraşdırmaq olar." Maarifləndirmənin olmadığı yerdə düzgün qərar verilməsində çətinliklər yarana bilər ki, bu da gələcəkdə hər hansı qəzaya səbəb ola bilər.	Sadəcə aviaqəza zamanı nələrin baş verdiyini düşünüz. Qərar qəbul etməzdən əvvəl başqası ilə müzakirə edin.
12	**Norma və qaydalara riayət etməmək**	"Bu işin ən rahat yolu budur, texniki təlimata ehtiyyac yoxdur." Qaydaların pozulmasıdır. Beləki, texniki heyyət çox vaxt yeni çıxan reviziyaları oxumadan texniki xidmət işini görür və ya hər hansı bir dəyişiklik ola bilməz deyərək, qaydalara əməl etmir (yəni işi görməzdən əvvəl texniki təlimatları oxumaq) və yeni reviziyada qeyd olunmuş bərkitmə işlərini yerinə yetirmir.	İşi görməzdən əvvəl texniki təlimatalra oxumaq və müzakirə etmək lazımdır.

Mənbə: http://aviationknowledge.wikidot.com/aviation:dirty-dozen

Bu günə kimi "İnsan faktoru", aparılmış araşdırmalar və təlimlərin nəticəsində avia qəzaların azalma tendensiyası və bütün mövzuların yetərincə ələ alındığı düşünülməkdə idi. Lakin 24 mart 2015-ci ildə baş vermiş avia qəza insan faktorunda az dəyər verilən mövzunu yenidən ortaya çıxarmışdır.

Qeyd edək ki, "Lufthansa"nın törəmə şirkəti olan "Germanwings" aviaşirkətinə məxsus "Airbus A320" təyyarəsi bu il martın 24-də Alp dağlarının ucqar hissəsində qəzaya uğrayıb və nəticədə 150 nəfər ölüb. Qəzaya insan faktoru, daha doğrusu təyyarənın ikinci pilotu Andreas Lubitzin səbəb olduğu bildirilir. Aparılan araşdırmalar nəticəsində A. Lubitzin martın 10-da Düsseldorf xəstəxanasında psixoloji müalicə aldığı, ancaq bu barədə aviaşirkətə məlumat vermədiyi ortaya çıxıb. Digər tərəfdən, A. Lubitzin sevgilisi olduğu bildirilən və Maria ləqəbi ilə qəzetlərə müsahibə verən qadın ikinci pilotun ona "bir gün elə bir şey edəcəyəm ki, bütün sistem dəyişəcək. O zaman hər kəs mənim adımı öyrənəcək və məni xatırlayacaq" dediyini açıqlayıb. Düsseldorf polisinin istintaq qrupu Fransada "A320" təyyarəsini qəsdən qəzaya uğratmaqda şübhəli bilinən 27 yaşlı pilot Andreas Lubitsin ciddi psixosomatik xəstəlikdən əziyyət çəkdiyini təsdiqləyən dəlillər aşkarlayıb.

Yuxarıda baş vermiş insident aviasiya sahəsində çox danışılacaq bir mövzu olaraq qalmaqdadır. ABŞ-nın Milli Nəqliyyat üzrə Təhlükəsizlik Heyəti (National Transportation Safety Board) 21 il ərzində aparılmış tədqiqatın nəticələrinə uyğun olaraq 37 belə bir hadisə baş verdiyini açıqlamışdır [7]. Belə ki, 37 hadisədə pilotlar idarə etdikləri hava gəmisini yerə çırpılmasını təşkil etmişlər və ya buna cəhd göstərmişlər ki, bunun da 36-sı ən azı 1 ölümə səbəb olmuşdur. Başa düşüldüyü kimi, qəzaların baş vermə səbəbləri insan amili olmuş və ümumi uçuş təhlükəsizliyinə bir zərbə vurmuşdur. Aparılmış tədqiqat nəticəsində müəyyən edilmişdir ki, bu pilotların əksəriyyəti uçuşları daha çox təkbaşına idarə etdiyi zaman intihara cəhd göstərmişlər və yüngül motorlu hava gəmiləri onların intiharı üçün üstünlük verdikləri hava gəmisi tipidir. Bu hadisələrin bir qismində pilot intihar etməsi nəticəsində özü ilə birlikdə yüzlərlə insanın həyatına son qoymuşdur. Toksikoloji test nəticələri daha da təəccübləndirici nəticələr ortaya qoymaqdadır. Baş vermiş 37 avia intihar hallarında pilotların 24% -nin spirtli içkilərdən və 14%-nin isə digər qanunsuz narkotik maddələrdən istifadə etdiyi müəyyən olunmuşdur. Həmin pilotların intihara cəhd etmə səbəblərinin əsas amilləri daxili və sosial problemlər (46%), hüquqi problemlər (40%) və qabaqcadan mövcud olan psixiatriya problemləri (38%) olmuşdur.

Qeyd olunmuş insident Azərbaycanda mülki aviasiya sahəsində də uçuşların təhlükəsizliyi və pilotların sağlamlığı məsələlərini daim xüsusi diqqət mərkəzində saxlanılmasını vacib etmişdir. Bu sahəyə ümumi nəzarət və rəhbərliyi Uçuşların Təhlükəsizliyi üzrə Avropa Agentliyi (EASA) edir. Təyyarələri idarə edən pilotların seçilməsində isə beynəlxalq standartları müəyyən edən Beynəlxalq Mülki Aviasiya Təşkilatı (ICAO) xüsusi tələblər qoyur: "Azərbaycanda pilotlar hələ Milli Aviasiya Akademiyasına (MAA) qəbul olunanda öz qabiliyyətlərinə, sağlamlığına və bir sıra digər məsələlərə görə seçilirlər. Ona görə də Avropada, Alp dağlarında baş verən son avia qəzanın səbəbləri qismən olsa da, bu etapda qarşısı alınır. Əgər abituriyentlər bu meyarlara, şərtlərə cavab vermirlərsə, o zaman onlar müvafiq fakültələrə qəbul olunmurlar. Daha sonra isə pilotların psixoloji durumunda və sağlamlığında ümumən baş verə biləcək dəyişiklikləri nəzarətdə saxlamaq üçün onlar mütəmadi olaraq tibbi müayinədən keçirilirlər. Heydər Əliyev Beynəlxalq Aeroportunun Aviasiya poliklinikasında bunun üçün xüsusi komissiya da yaradılmışdır. Həkim - uçuş ekspert komissiyası pilotları xüsusi diqqət mərkəzində saxlayır. Pilotlar hər uçuşdan qabaq mütləq komissiyada müayinədən keçirlər". Pilotların fiziki və ya pisxoloji sağlamlıqlarında zərrə qədər nöqsan olduğu təqdirdə, uçuşa çıxmalarına qadağalar qoyulur.

MAA-nın "Uçuş mühəndisliyi (Pilot)" və "Hava nəqliyyatının hərəkətinin idarə olunması mühəndisliyi (Dispetçer)" ixtisaslarına Heydər Əliyev Beynəlxalq Aeroportu Aviasiya poliklinikasının Həkim-uçuş ekspert komissiyasında xüsusi tibbi müayinə keçmiş, Azərbaycan vətəndaşlığı olan 23 yaşına qədər abituriyentlər qəbul edilirlər. Bundan başqa, həmin abituriyentlər MAA-da "Psixofizioloji peşə seçimi"

və "Fiziki hazırlıq" üzrə xüsusi qabiliyyət müsabiqələrindən keçirlər: Daha sonra da kursant olarkən, onların psixofizioloji və fiziki durumları daim nəzarətdə saxlanılır. Alp dağlarında baş verən son avia qəzanın səbəblərinin qarşısının alınması ilə əlaqədar olaraq, bu sahədə beynəlxalq tələblərə uyğun yeni qaydalar hazırlanır [8].

Nəticə

Aparılmış tədqiqat bir daha subut edir ki, aviasiya insidentlərinin qarşısının alınmasında dunya praktikasında geniş istifadə olunan insan faktorunun ölkəmizdə də mülki aviasiya şirkətlərində geniş tətbiq olunmasına və öyrənilməsinə ehtiyac vardır. Ölkəmizdə bu sahədə aparılan tədqiqatlar daha çox nəzəri və dünya aviasiya ədəbiyyatına uyğun aparılmış, şirkətdaxili baş verən insidentlər bu kimi araşdırmalardan kənar qalmışdır. Halbuki, şirkətdaxili hadisələrin öyrənilməsi və əldə olunan nəticələrin yerli aviasiya şirkətlərinin bütün uçuş və texniki personal tərəfindən mənimsənilməsi üçün müntəzəm təlimlərin təşkil olunması müsbət nəticə verə bilər. Belə ki, bu kimi təlimlər insanların özlərinin və ya iş yoldaşlarının buraxdığı səhvləri və bu səhvlərin törətdiyi qəzaları gözləri ilə real şəraitdə görürlər və gələcəkdə bu kimi nöqsanlara yer vermirlər. Bu da öz növbəsində avia qəzaların azalmasına, şirkətin maliyyə və iqtisadi vəziyyətinin yaxşılaşmasına və şirkətin imicinin yüksəlməsinə təsir göstərir.

Ədəbiyyat

[1] "A Human Factors Analysis" Rocky 'Apollo' Jedick In Aerospace Medicine, Aircraft Mishaps, Blog, Civilian Aviation Medicine On November 22, 2014

[2]https://www.faa.gov/regulations_policies/handbooks_manuals/aircraft/media/AMT_Handbook_Addendum_Human_Factors.pdf

[3] http://forinsurer.com/public/14/07/07/3824/

[4] David Adams "A Layman's Introduction to Human Factors in Aircraft Accident and Incident Investigation" June 2006

[5] С.Н. Тиц "Человеческий фактор" «Самарский Государственный Аэрокосмический Университет» Электронное учебное пособие Самара – 2012

[6] http://aviationknowledge.wikidot.com/aviation:dirty-dozen

[7] Aviation, Space, and Environmental Medicine, Volume 76, Number 8, August 2005, pp. 715-719(5)

[8] http://anspress.com/index.php?a=2&lng=az&cid=1&nid=334436

Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri, İl 3, Cilld 3, İyul – Sentyabr, 2015, səh. 114-125
Scientific Reviews in Azerbaijan State University of Economics, Year 3, Volume 3, July -September, 2015, pp. 114-125

XƏZİNƏDARLIĞIN YARANMASI, İNKİŞAFI VƏ ONUN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI

İ.V. Babazadə

doktorant, UNEC
mobil tel.: (994 55) 613 13 63; E-mail : isgender618@mail.ru
Məqalə redaksiyaya daxil olmuşdur 21 Avqust 2015; Çapa qəbul edilmişdir 10 Sentyabr; online-da çap edilmişdir 6 Oktyabr 2015
Received 21 August 2015; accepted 10 September 2015;
published online 6 October 2015

Xülasə

Bu tədqiqatın başlıca məqsədi xəzinədarlığın müxtəlif ölkələrdə yaranma səbəblərini, tarixi inkişafını və səciyyəvi xüsusiyyətlərini göstərmək, xəzinədarlığın inkişaf edərək müasir dövrdə dövlət maliyyəsinin tərkibində necə əhəmiyyətli bir instituta çevrilməsini göstərməkdən ibarətdir. Tədqiqatın metodologiyasını nəzəri və müqayisəli təhlil üsulları, xarici iqtisadçıların elmi əsərləri, elmi ümumiləşdirmələr təşkil edir. Tədqiqatın nəticəsi onu deməyə imkan verir ki, xəzinədarlıq ölkələrin pul vəsaitlərindən səmərəli istifadə etmək zərurətindən meydana gəlmişdir. Vəsaitlərin idarə edilməsi mərkəzi kimi xəzinədarlıq müxtəlif pillələri keçərək ən vacib funksiyaları özündə ehtiva edir və müasir anlamda dövlət büdcəsinin icrasında müstəsna rol oynayır. Tədqiqatın məhdudiyyətləri xəzinədarlıq haqqında geniş məlumat bazasının olmaması, bu sahədə elmi tədqiqat işlərinin az sayda olmasıdır. Tədqiqatın praktik əhəmiyyəti bu sahə üzrə olan mütəxəssislərin tədqiqatın nəticələrindən faydalanmasındadır. Tədqiqatın elmi yeniliyi xəzinədarlıqla bağlı nəzəri araşdırmanın daha geniş şəkildə işıqlandırılması, xarici nəzəriyyəçilərin bu barədə elmi faktlarına istinad edilməsindədir.

Açar sözlər: xəzinədarlıq, xəzinədarlıq sistemi, mərkəzləşdirilmiş və mərkəzləşdirilməmiş kassa.
Jel Classification: E63

ESTABLISMENT OF TREASURY, DEVELOPMENT AND ITS THEORETICAL AND METHODOLOGICAL BASIS

Abstract

Objective: The main purpose of this research is to show reasons of the evolution of treasury system in different countries, its historical development and specific characteristics, and analyze how it become an important part in a state's financial system. Research methodology: theoretical and comparative methods, scientific

works of foreign economists, scientific generalizations. Results: The results of the study allow us to say that the creation of the treasury has occured because of need to effectively usage of money funds. Treasury as a center of management of funds, maintains the most crucial functions and plays a very important role in the implementation of the state budget in the modern sense. Limitation of the study: The lack of detailed information the limited amount of scientific-research works in this field. The practical implication of the research is the use of the results of the researches by the specialists in this field. The scientific novelty of the research is that theoretical research in connection with treasury has been investigated widely and have been referred to the scientific facts of foreign theorists.

Key words: treasury, treasury system, centralized and decentralized cash

СОЗДАНИЕ, РАЗВИТИЕ КАЗНАЧЕЙСТВА И ЕГО ТЕОРЕТИКО-МЕТОДОЛОГИЧЕСКИЕ ОСНОВЫ

И.В. Бабазаде
Докторант, UNEC

Резюме

Основная цель этого исследования состоит в изложении причины возникновения, исторического развития, существенных особенностей казначейства в разных странах, превращения его, в результате развития в современный период, в значимую структуру в составе государственных финансов. Методологию исследования составляет теоретические и сравнительные методы, научные труды зарубежных экономистов, научные обобщения. Результат исследования дает возможность говорить о том, что возникновение казначейства связано с необходимостью эффективного использования денежных средств странами. Как центр управления средствами, казначейство пройдя различные стадии, вобрало в себя самые важные функции, и в современный период играет исключительную роль в выполнении бюджета. Ограничения исследования в отсутствии обширной информационной базы о казначействе, незначительное количество научных исследований в этой области. Практическое значение исследования в использовании результатов исследования специалистами в этой области. Научная новизна исследования в том, что более широко освещены теоретические изыскания в связи с казначейством, обобщены научные факты зарубежных теоретиков.

Ключевые слова: казначейство, казначейская система, централизованная и децентрализованная кассы.

Hər bir dövlət üçün büdcə hər şeydən əvvəl maliyyə sistemində büdcə hüququ anlayışını müəyyən edir və büdcə hüququ da hər bir dövlətin maliyyə hüququnun

tərkibinə daxil edilir. Maliyyə sisteminin tərkibində büdcə elə bir fenomendir ki, əsas maliyyə kateqoriyalarının (vergi və digər məcburi ödənişlər, dövlət krediti, dövlət xərcləri) birliyini özündə ifadə edir və büdcə vasitəsilə maliyyə vəsaitlərinin səfərbər edilməsi və onların məqsədli istifadəsi baş verir. Büdcə dövlət maliyyə sisteminin ilk və əsas elementidir. Dövlət büdcəsinin üzrərinə dövlət idarəçiliyi strukturlarının layihələrinin maliyyələşdirilməsi yükü düşür. Büdcədə bütün xüsusi strukturların gəlir və xərcləri əks etdirilir. Büdcə mürəkkəb və əhatə dairəsi geniş bir anlayışdır, ona görə də büdcə anlayışına müxtəlif yanaşmalar mövcuddur. Bu yanaşmalar içərisində iqtisadi və hüquqi yanaşma formaları var ki, bütün ölkələrin büdcələri qurularkən bu yanaşmalar mütləq nəzərə alınır. İqtisadi yanaşma formasına görə [1] büdcə hər bir mərkəzləşmiş dövlətin pul vəsaitlərinin yaradılması, bölüşdürülməsi və istifadəsi prosesində yaranan iqtisadi münasibətlərin məcmusudur. Hüquqi cəhətdən büdcəyə yanaşsaq görə bilərik ki, büdcə əsas maliyyə planı sənədi olmaqla ictimai vəsaitlərin yaradılması, bölüşdürülməsi və istifadəsini özündə birləşdirir.

Baxmayaraq ki, dövlət maliyyəsinin mərkəzləşdirilmiş şəkildə idarə edilməsinin uzun bir tarixi vardır, "büdcə" termini XVII əsrin sonlarından etibarən meydana gəlmişdir. Büdcə sənədi [2] deyilərkən elə bir sənəd nəzərdə tutulurdu ki, bu sənəddə parlament tərəfindən təsdiqlənmiş hökumət gəlirlərinin və xərclərinin planı öz əksini tapmışdır. Praktik olaraq dövlət büdcəsi anlayışı ilə dövlətin meydana çıxması anlayışı eyni anda təşəkkül tapmışdır. İlk dəfə büdcənin yaranması [3] və onun təsdiq olunması prosesi İngiltərədə baş vermişdir. İngiltərədə [4] büdcə termini "portfel" mənasını ifadə edirdi və xəzinədarlıq naziri bu portfeldə pul və hesabatları saxlayaraq, müntəzəm olaraq Lordlar Palatası qarşısında çıxış edirdi.

İctimai vəsaitlərin rasional istifadə edilməsi yalnız düzgün şəkildə tərtib edilmiş büdcədən asılıdır ki, bu da ölkədə makroiqtisadi sabitliyin əldə edilməsində vacib rol oynayır. Bütün dövlətlər bu prinsipə maksimum dərəcədə riayət etməyə çalışmış, digər tərəfdən, ölkələr vəsaitlərdən rasional istifadə etməyə bir növ məcbur olmuşdur. Belə ki, 1809-cu il Rusiya imperiyasında gəlirlərin xərcləri üstələməsi səbəbindən yaranmış böyük defisit Rusiyanı müflis eləmişdir. Çar I Aleksandrın göstərişi ilə büdcə sənədinin tərtib olunması üçün qraf M.M.Speranskiyə tapşırıq verilmişdir. İslahatlara başlayan M.M.Speranski Rusiya üçün 2 əsas məsələnin həllini vacib bilirdi ki, bunlar da borcların ödənilməsi, gəlirlərlə xərclərin bərabərləşdirilməsi idi. M.M.Speranskinin [5] imperatorun tapşırığı əsasında tərtib etdiyi "Maliyyə planı" fundamental əsərində qeyd edilirdi ki, dövlət büdcəsi gəlir və xərclərinin idarə edilməsi mənbəyi vahid orqan vasitəsilə birləşərək, daha sonra həmin gəlirlərin və xərclərin mütənasibliyi təşkil edilərək, hər il vahid smeta sənədi şəklində müəyyənləşməlidir. Smeta və illik maliyyə qanunu yoxdursa, hətta gəlirlərin və xərclərin vahid xəzinə hesabı mövcud olsa belə, yenə orada maliyyənin şəffaf idarə edilməsindən söhbət gedə bilməz. Rusiya və digər ölkələrin maliyyə sisteminə baxarkən

görə bilərik ki, büdcə sənədinin tərtib edilməsinin əsas səbəblərindən biri pul vəsaitlərindən bərbad istifadə nəticəsində ölkələrin müflis olmağıdır ki, bu da son nəticədə ölkələri büdcə sənədini tərtib etməyə, daha sonra büdcə sənədini düzgün tərtib etməyə məcbur etmişdir.

Ölkələrdə büdcənin düzgün formalaşdırılması bir çox amillərdən asılıdır. Lakin bu amillərin içərisində ən vacibi dövlət büdcəsinin formalaşdırılmasında iştirak etmiş şəxslər, iştirakçılardır. Bu məsələ ilə bağlı olaraq Hallenberq və Van-Haqen [6] hökumətlər daxilində formalaşdırılan büdcə proseslərini izləyib müəyyən nəticələr əldə etmişlər. Müəlliflər göstərməyə çalışırlar ki, hökumətlərin strukturunda koalisiyaların olması və ayrı-ayrı nazirliklərin lobbiçilik fəaliyyətləri nəticəsində müvafiq büdcə xərclərinin artımı son nəticədə büdcə defisitinin yaranmasına səbəb olacaqdır. Lakin bu yaranmış effektsizliyi, xüsusilə Nazirlər Kabinetinin üzvlərinin opportunist davranışı nəticəsində yaranan neqativ təsiri Maliyyə nazirinin, yaxud Baş nazirin rolu nəticəsində büdcənin formalaşdırılması və büdcənin idarə edilməsi prosesi asanlaşdırıla bilər. Burada əldə edilən əsas nəticə odur ki, büdcə prosesinin effektiv olması həmin prosesdə iştirak edən iştirakçılardan birmənalı olaraq asılıdır.

Dövlət büdcəsi bütün dünyada ölkələrin milli gəlirinin əhəmiyyətli hissəsini təşkil edən və ölkələrin iqtisadi inkişafını müəyyən edən əhəmiyyətli amildir. Dövlət funksiyalarının icra edilməsi üçün lazım olan büdcə vəsaitlərinin ümumi həcminin seçimi problemi həmişə öz aktuallığını saxlayan və həlli vacib olan əsas məsələlərdən biridir. Büdcənin profisitinin və ya defisitinin yaranması planlaşdırmanın uzunmüddətli strategiyasıyla, həm də xarici iqtisadi amillərlə bağlı olmuşdur. Əsas xərc maddələri üzrə bölüşdürülmənin realizəsi birbaşa olaraq ölkənin büdcə siyasəti üzrə müəyyənləşmiş prioritetlərdən asılıdır və büdcə xərcləri iqtisadi və siyasi amillərin təsiri altında formalaşır.

Məlumdur ki, müasir dünyada hər bir ölkənin büdcə hüququnun tərkibində büdcə prosesinin idarə edilməsi vacib bir büdcə fəaliyyəti kimi qeyd olunur. Büdcə prosesi anlayışı daxilində mütəmadi maliyyə vəsaiti axınlarının təşkili baş verir ki, bu maliyyə vəsaitləri daha sonra ölkənin ictimai sferasında dövlətin öhdəliyi və xərcləri kimi realizə olunur. Dövlət büdcəsi xərclərinin realizəsi dövlət büdcəsinin icrası mərhələsində baş verir ki, bu, mərkəzləşmiş mərhələ kimi büdcə prosesində öz yerini tutur. Bildiyimiz kimi, büdcə prosesi özündə dövlət büdcəsinin tərtib olunması, ölkələrin parlamenti tərəfindən dövlət büdcəsinin müzakirə və təsdiq olunması, dövlət büdcəsinin icra olunması, dövlət büdcəsinin icra olunması barədə hesabat mərhələlərini birləşdirir. Büdcə prosesinin tərkib hissəsində büdcənin icra edilməsi mərhələsinin zəruriliyi onunla ifadə olunur ki, büdcə qanununa əsasən, müəyyənləşmiş müddət ərzində gəlirlərin toplanması və xərc formasında paylanması baş verir. Dövlət büdcəsinin icra edilməsi mərhələsində pul vəsaitlərinin qəbul edilməsi, saxlanılması və təyinatlı sərf edilməsi baş verir ki, bu da "dövlət büdcəsinin kassa icrası" anlayışını formalaşdırır.

Dövlət büdcəsinin kassa icrasının təşkili dünya praktikasında geniş istifadə olunan sistemlər, yəni xəzinədarlıq sistemi, bank sistemi, yaxud qarışıq sistemlər vasitəsilə təşkil edilərək formalaşdırılır. Müasir dünyada ölkələrin əksəriyyətində büdcənin icrasının kassa sistemi Maliyyə Nazirliyinin tərkibinə daxil olan Xəzinədarlıq idarəsi və xəzinədarlıq kassaları sistemi vasitəsilə formalaşdırılır [7].

Büdcənin icrası anlayışına iqtisadçılar tərəfindən müxtəlif yanaşmalar var. İ.Q. Əkbərovun fikrinə görə [8], büdcənin icrası deyiləndə elə bir proses nəzərdə tutulur ki, vəsaitlərin tam və vaxtında, ümumi və hər biri ayrılıqda təyin edilmiş mənbə üzərindən daxil olması və sonra hökumət qurumlarına ayırmalar formasında vəsaitlərin çatdırılması təşkil edilir ki, bu proses çərçivəsində vəsaitlər il ərzində əvvəlcədən təsdiqlənmiş forma daşıyır. Büdcənin icrası mərhələsində vəsaitlərin səfərbər edilməsi və iqtisadi cəhətdən istifadə edilməsi baş verir ki, burada hökumət qurumları içərisində vergi və maliyyə orqanları, həmçinin kredit təşkilatları, vergi ödəyiciləri və büdcə vəsaitlərini alanlar prosesə cəlb olunur. Beynəlxalq praktikada büdcə prosesində büdcənin icrası mərhələsi aşağıdakı funksiyaları özündə birləşdirir [9]:

• planlaşdırma, büdcə gəlirlərinin və xərclərinin işlənilməsi və qiymətləndirilməsi;

• büdcə əməliyyatlarının icrası və onlara nəzarət, həmçinin büdcədənkənar fondlar və yerli orqanların büdcə əməliyyatlarına nəzarət;

• dövlət aktivləri və öhdəliklərinin qeydiyyatının aparılması, dövlət qiymətli kağızlarının buraxılması və qarantiyailə təmini, daxili və xarici hökumət borclarının idarə edilməsi;

• büdcə əməliyyatlarının uçotu, dövlət mühasibat uçotu və maliyyə informasiya sistemlərinə nəzarət və onların təkmilləşdirilməsi;

• təsdiq olunmuş büdcə icrasının auditor yoxlanılması və qiymətləndirilməsi; dövlət resurslarından istifadənin effektivliyinin təhlili.

Dövlət büdcəsi icrasının tərkibinə daxil olan bu funksiyalar dünya ölkələrinin bəzisində Maliyyə Nazirliyi tərəfindən həyata keçirilir. Digər ölkələrin bəzilərində isə bu funksiyalar başqa bir neçə qurum vasitəsilə birlikdə yerinə yetirilir.

Dövlət büdcəsinin icrası prosesində meydana gələn xəzinədarlığın bir orqan kimi dövlətin formalaşmış maliyyə sistemində rolu dövlətin resurslarınnın optimal maliyyə idarə edilməsi nəticəsində büdcə təşkilatlarının mütəmadi olaraq öz funksiyalarını həyata keçirməsi üçün lazım olan bütün vasitələrlə vaxtlı-vaxtında təchiz etməsindən ibarətdir. Müasir dünyada ölkələr Xəzinədarlığın bir orqan olaraq dövlət büdcəsinin icrasında rolunu aktiv və passiv olaraq müəyyənləşdirir. Xəzinədarlıq bir struktur kimi dövlət büdcəsinin icrasında birbaşa olaraq müdaxilə etməyə bilər, hansı ki, büdcə təşkilatlarında büdcənin icrası ilə bağlı suallar yarananda məsələyə müdaxilə etməyə bilər, bu halda dövlət büdcəsinin icrasında xəzinədarlıq passiv rol oynayacaqdır. Eyni zamanda qeyd edə bilərik ki, xəzinədarlıq bir struktur kimi dövlət büdcəsinin icrasında aktiv rol oynaya bilər. Belə ki, Maliyyə Nazirliyinin

yerinə yetirdiyi funksiyaların bəzisini yerinə yetirərək dövlət büdcəsinin icrasında aktiv rol oynaya bilər. Məsələn, əvvəldən qəbul edilmiş kriterilərə görə Xəzinədarlıq büdcə təşkilatlarına öz proqramlarını həyata keçirmək üçün vəsait ayıra bilər, onların maliyyə siyasətini müəyyənləşdirə bilər, ödənişlərin tələb olunduğu razılaşdırma və ödənişin ediləcəyi prosesində aktiv iştirak edə bilər, öhdəliklərin və xərclərin ödənilməsi üzrə limitlər tətbiq edə, konkret xərclər həyata keçirə bilər [9].

Qeyd etmək lazımdır ki, xəzinədarlıq anlayışının formalaşmasında bilavasitə xəzinə sözünün əlbəttə təsiri vardır. "Xəzinə" sözü əslində lap ilkin dövrlərdə elə "maliyyə" anlayışı ilə bir tutulurdu. Bu sözün etimologiyasına nəzər saldıqda görə bilərik ki, türk sözü olub, "mücrü yaxud sandıq" mənasını ifadə edərək maliyyə lüğətlərinə daxil edilmişdir. Hər bir yaranmış və formalaşmış dövlətlərin tərkibində əldə edilən gəlirlərin yerləşdirilməsi üçün xüsusi pul fondları - "xəzinələr" yaradılırdı. Hökumət xəzinəsi ölkələrin iqtisadi gücünün əsasını təşkil edirdi. Hakimiyyətə gələn hər hökmdar (şahlar, padşahlar, çarlar) ilkin olaraq həmin dövlətin xəzinədarını yanına çağıraraq, dövlətin sahib olduğu xəzinə haqqında bütün məlumatları toplayaraq, dövlətin iqtisadi qüdrətinin hansı səviyyədə olması ilə maraqlanırdı. Buradan o nəticəyə gəlmək olar ki, əslində xəzinədarlıq malik olduğu statusuna görə dövlətlərin müqəddəratını təyin edən bir qurum idi [4].

Qlobal dünyada hər bir ölkə üçün dövlət maliyyəsinin idarə edilməsinin təkmilləşdirilməsi dövlətin strateji məqsədlərə nail olması, ölkənin həyat keyfiyyətinin yaxşılaşdırılması, davamlı iqtisadi artım, sosial öhdəliklərin vaxtında yerinə yetirilməsi üçün əsas şərt kimi çıxış edir. Dövlət maliyyəsinin idarə edilməsi effektivliyinin artırılması üçün effektiv maliyyə-büdcə mexanizmlərinin yaradılması labüddür. Dövlət maliyyəsinin tərkib hissəsi kimi dövlət büdcəsi əsas açar rolunu oynayır ki, dövlət büdcəsi də öz növbəsində, həyata keçirilən büdcə islahatları vasitəsi ilə daha da təkmilləşərək, özündə formalaşacaq olan büdcə vəsaitlərinin səmərəli idarə edilməsini tələb edir. Bütün ölkələr dövlət büdcəsini formalaşdırdıqdan sonra bu vəsaitlərdən səmərəli istifadə edilməsi üçün büdcənin icrasının təşkilini aparır. Büdcənin icrasında ön plana çıxan və təşkil olunan sistemlərdən biri də --- **Xəzinədarlıq sistemidir (Treasury system)**. Müasir dünyada ölkələrin əksəriyyətində bu sistem istifadə olunur və dövlətin administrativ qurumları birbaşa bu sistemin həyata kecirilməsində iştirak edir. Fikrimizcə, xəzinədarlıq sisteminin mahiyyətinin ən tam şəkildə elmi izahını S.E.Prokofyev vermişdir. O, qeyd etmişdir ki, büdcənin icrasının xəzinədarlıq sistemi elə bir sistemdir ki, bu sistem müxtəlif büdcə səviyyələri üzrə kassanın icrası zamanı metodoloji prinsiplər, qayda və proseduralar çərçivəsində qurulmuş hüquqi və normativ aktları özündə ehtiva edir və bu sistemdə daxil olan xüsusi institutlar tərəfindən kassa, mühasibat və nəzarət funksiyalarının effektiv yerinə yetirilməsi baş verir [10]. Dünya ölkələrində dövlət büdcəsinin kassa icrasının xəzinədarlıq sistemi vasitəsilə reallaşmasının təşkil edilməsi

ölkənin Maliyyə Nazirliyinin tərkibində yaradılan xüsusi orqana, yəni Xəzinədarlıq adı altında formalaşdırılan quruma həvalə edilir. Xəzinədarlıq orqanı da öz növbəsində büdcənin kassa icrasını həyata keçirmək üçün digər hökumət orqanları ilə birlikdə iştirak edərək xəzinədarlıq fəaliyyətini yerinə yetirir.

Xəzinədarlıq fəaliyyəti deyiləndə ümumi olaraq dövlət vəsaitlərinin idarə edilməsi üçün bütün dövlət və yerli idarəetmə orqanlarının birgə fəaliyyəti nəzərdə tutulur ki, bu fəaliyyət də xəzinədarlıq orqanı tərəfindən təşkil edilir.

Qeyd etmək lazımdır ki, dövlət büdcəsinin icrasında xəzinədarlığın rolu deyiləndə bir problem həmişə nəzərə çarpır. Belə ki, dövlət büdcəsinin icrasında xəzinədarlığın rolu dedikdə xəzinədarlıq həm bir orqan kimi Maliyyə Nazirliklərinin tərkibində öz rolunu və funksiyasını yerinə yetirən bir qurum kimi nəzərdə tutulur, digər tərəfdən də dövlət büdcəsinin xəzinə (kassa) icrası anlayışı vardır ki, büdcə prosesi çərçivəsində hökumət orqanlarının birgə fəaliyyəti nəzərdə tutulur.

Xəzinədarlığın təşkilatlandırılmış formada və müasir anlamda dövlət büdcəsinin icrasını təşkil edən orqan kimi fəaliyyət göstərməsi İngiltərədə baş vermişdir [11]. İngiltərə parlamentinin 1688-ci ildə qəbul etdiyi akta əsasən Krallıq xəzinəsinin icrasını həyata keçirən orqanlar sistemi yaradılmışdır. Bu akta əsasən ilk dəfə olaraq xəzinədarlıq hüquqi formada ölkə çərçivəsində möhkəmləndirilmişdir. Bu addımdan sonra İngiltərə parlamenti Krallıq xəzinəsində aparılan əməliyyatlara nəzarət edilməsi üçün məsuliyyət daşıyan vəzifəli şəxslər təyin edir. İllər keçdikdən sonra büdcə strukturunda baş verən inkişaf və dəyişikliklər, o cümlədən xəzinədarlığın strukturunda da ciddi dəyişikliklərə gətirib çıxartdı. İslahatlar nəticəsində 1866-cı ildən etibarən İngiltərə hökumətinin gəlir və xərclərinə nəzarət edən orqan kimi vəzifə və funksiyaları tamam müəyyənləşdirilmiş xəzinədarlıq fəaliyyətə başlamışdır. XIX əsrin ortalarından formalaşmış xəzinədarlığın strukturu praktik olaraq indi də fəaliyyətini olduğu kimi davam etdirir. Belə ki, xəzinədarlığa lord başçılıq edir və bu şəxs həm də İngiltərənin Baş naziri səlahiyyətlərini daşıyır. Lakin burada bir məsələ var ki, xəzinədarlığın idarə edilməsi üzrə real səlahiyyət Maliyyə Nazirliyinin öhdəliyindədir ki, Maliyyə Nazirliyinin rəhbəri olan şəxs də xəzinədarlığın kansleri titulunu daşıyır. Kansler maliyyə katibi və xəzinədarlıq orqanlarının kiçik lordları ilə birlikdə xərc smetalarının tərtibində iştirak edir və onların icrasına nəzarəti həyata keçirir.

İngiltərədə qurulmuş xəzinədarlığın keçdiyi inkişaf yolu ilə Fransanın xəzinədarlıq orqanının inkişaf yolu demək olar ki, oxşayır. Monarxiyanın hökm sürdüyü Fransada Krallığın şəxsi ehtiyacları üçün istifadə edilən bir xəzinə var idi. Məhz bu səbəbdən krallığın səlahiyyətlərinin məhdudlaşdırılması üçün maliyyə orqanlarının yaranması zəruri idi. 1576-cı ildə Fransanın idarə edilməsində əsas orqan hesab edilən monarxdan xəzinədarlığın sonradan formalaşmasına təkan verən qurumun yaradılmasını tələb etdi. “Notabley toplanışı” adlanan toplantıdan sonra formalaşan qurum xəzinədarlığın formalaşması tarixində başlanğıc nöqtə oldu. Qeyd etmək

lazımdır ki, İngiltərə və Fransada formalaşdırılmış xəzinədarlığın əsas ortaq cəhəti daima fəaliyyət göstərməyən bir şəkildə olması və tələb olunduğu zamanlarda istifadə edilməsi hesab edilir. Fransada yaradılması düşünülmüş olan xəzinədarlığın 1576-cı ildə baş vermiş toplantı və 1579-cu ildə formalaşdırılmış komissiyadan sonrakı dövrdə bir qurum kimi fəaliyyətə başlamasına təkan vermədi. 1789-cu il Fransada baş vermiş çevrilişlə monarxiyanın aradan qaldırılması və Fransada demokratik respublika qurulduqdan sonra ölkədə büdcə hüququ anlayışı yarandı ki, bu da xəzinədarlığın bir orqan kimi yaranmasına təkan verdi.

Rusiyada xəzinədarlığın yaranması tarixi Rusiya dövlətinin mərkəzləşdirilmiş şəkildə yaranması dövrü ilə üst-üstə düşür. Xəzinədarlıq xidmətinin yaranmasının əlaməti kimi xəzinədar vəzifəsinin yaradılması hesab olunur ki, böyük rus knyazlığının tərkibində xəzinədar xəzinədə olan bütün dəyərli zinət əşyalarının qorunmasına görə məsuliyyət daşıyırdı. XV əsrin sonlarından etibarən Rusiyada artıq mərkəzləşdirilmiş idarəetmə sisteminə əsaslanmış xəzinədarlığın formalaşmasına başlanılmışdır. Belə ki, çar İohanın dövründə xəzinədarlıq qurumları kimi formalaşdırılmış – xəzinə bağları adı altında yaradılmış qurumlar fəaliyyətə başlamışdır. Bu qurumun tərkibində xəzinədar və xəzinə məmurları vəzifələri var idi ki, bu vəzifəni tutan şəxslərin vəzifə maaşları elə həmin orqan tərəfindən ödənilirdi. Xəzinədar vəzifəsini tutan şəxs birbaşa çarın yaxın dairəsindən seçilirdi. Lakin qurulmuş orqan vasitəsilə istənilən nəticələr əldə ediməmişdir. Effektsiz idarəetmə və digər səbəblər 1648 və 1662-ci illərdə xalq hərəkatının baş verməsinə şərait yaratmışdır. Sonrakı dövrdə hakimiyyətə gələn çar Aleksey mövcud vəziyyəti düzəltmək üçün əmr verərək baş maliyyə nəzarəti orqanını təsis etdi. Bu orqan demək olar ki, bütün Rusiya regionunun tərkibində təmsil edilirdi. Lakin yenə effektiv nəticə əldə olunmadı ki, əsas səbəb smetanın tərtib edilməsinin vahid qaydasının olmaması, smetanın icra edilməsi zamanı nəzarətin olmaması hesab edilirdi. Mütəşəkkil islahat sistemi nəhayət I Pyotr tərəfindən həyata keçirildi. Onun başçılığı ilə Rusiyada əvvəlki dövrlərdə xəzinədarlığın formalaşmasına təsir edən qərarlar konsolidə edilərək, mühüm yeni qərarlar qəbul edilərək vacib addımlar atıldı. Ən vacib addım 12 kollegiyanın yaradılması idi. Bu kollegiyalardan yarısı iqtisadi və maliyyə xarakterli olub tənzimlənməni həyata keçirirdi. Bu kollegiyalar konkret olaraq 1698-ci ildən fəaliyyətə başlamışdır. Maliyyə xarakterli kollegiyaları aşağıdakılar təşkil edirdi:

- Kamer-kollegiya – dövlət gəlirlərini idarə edir;
- Ştats-kontur – kollegiya – dövlət xərclərini idarə edir;
- Reviziya-kollegiya – gəlirlər və xərclər üzrə icra edilən smetaya nəzarət edir.

Ölkədə kollegiyalardan sonra maliyyənin idarə edilməsinin ən yüksək orqanı Senat olaraq formalaşdırılmışdır ki, bu orqan da 1711-ci ildən fəaliyyətə başlamışdır. XVIII əsrin əvvəlindən etibarən Rusiyada maliyyə sistemi orqanları formalaşdırılmışdır ki, bunların içərisində xəzinədarlıq orqanları artıq tam formalaş-

mışdır. İllər keçdikdən sonra, Rusiyada keçirilmiş islahatlar və çar I Aleksandrın dövründə baş verən köklü islahatlar nəticəsində 1802-ci ildə Rusiyada kollegial idarəetmə sistemindən nazirlik üzrə idarəetmə sisteminə keçirildi. Baş vermiş islahatlar nəticəsində Rusiyada Maliyyə Nazirliyi yaradılmışdır və bu dəyişikliklərdən sonra xəzinədarlığın fəaliyyəti birbaşa olaraq Maliyyə Nazirliyi ilə bağlı olmuşdur. Maliyyə Nazirliyi yaradıldıqdan sonra, o, imperiyada yaranmış bütün gəlir mənbələrinə nəzarəti ələ keçirdi. Belə ki, dövlət idarə edilməsi, yığım və rüsumlara nəzarət, gömrüyün idarə edilməsi birbaşa Maliyyə Nazirliyi tərəfindən həyata keçirilirdi. Dövlət xəzinədarlığı isə gəlir şəklində dövlətin əlində cəmləşən, daha sonra xərc formasında istifadə edilən pul vəsaitlərinin hərəkətinə nəzarət edir və qeydə alırdı. Xəzinədarlıq, həmçinin borcların vaxtlı-vaxtında ödənilməsinə nəzarəti də həyata keçirirdi. 1821-ci ildən etibarən isə Rusiya imperiyasında xəzinədarlığın fəaliyyəti mərkəzləşdirilmiş qaydada – Dövlət Xəzinədarlıq Departamentindən başlamış, yerli və quberniya xəzinədarlıqlarına qədər təkmilləşdirilmiş fəaliyyət mexanizminə sahib olmuşdur. Xəzinədarlığın bölünmüş hissələrinin birləşdirilərək mərkəzləşdirilməsindən sonra Rusiyada maliyyə hüququ üzrə doktor olan E.N. Berends vahid xəzinə hesabı anlayışını konkret olaraq bu cür ifadə edir [12]:

- Bütün gəlirlər bir orqanın kassasına daxil olur və bu orqan Maliyyə Nazirliyidir ki, tələb olunan pul vəsaitlərinin kassa icrası yalnız bu qurum vasitəsilə reallaşaraq, vəsaitlərin hərəkəti və yerləşməsi baş verir;
- Digər orqanlar pul vəsaitlərininin saxlanmasını və xərclənməsini yerinə yetirə bilməz, onlar yalnız pul vəsaitlərinin alınması üçün əmrlər verə bilər, çünki qəbul edilmiş qanunlara əsasən həmin qurumların müəyyən edilmiş pul vəsaitlərini almaq hüququ var.

Qeyd etmək lazımdır ki, bütün ölkələr üçün Xəzinədarlıq - ilkin olaraq adi funksiyaları yerinə yetirən bir qurum şəklidə yaradılmış, daha sonra, dövlətlər yarandıqdan sonra ölkələrdə baş vermiş ciddi səbəblər üzündən daha mürəkkəb forma alaraq, ölkələrdə qurulmuş büdcə prosesinin icrası mərhələsində meydana gələrək dövlətlərin cəmlənmiş pul vəsaitlərinin idarə edilməsi mərkəzinə çevrilmişdir. Xəzinədarlıq anlayışının nəzəri-metodoloji əsaslarına nəzər saldıqda görə bilərik ki, xəzinədarlıq termininə ümumi olaraq dövlət maliyyəsi nəzəriyyələrinin baxmaq lazımdır və xəzinədarlığı ayrıca kateqotiya kimi ifadə etmək düzgün deyil. Nəzərdən keçirilmiş ölkələrdən başqa digər ölkələrin əksəriyyətində də büdcənin kassa icrasının quruluşu tarixən ənənəvi olaraq 3 pilləni keçmişdir:

1. Mərkəzləşdirilməmiş kassa
2. Vahid qurum kimi Maliyyə Nazirliyi tərkibində bütövləşmiş mərkəzləşdirilmiş kassa
3. Dövlət kassasının icrasınının bank sistemi. Burada dövlətin kassa icrasını Mərkəzi Bank yerinə yetirir.

Bu pillələri Rusiyanın məşhur iqtisadçısı professor İ.X.Ozerov [13] bu formada izah etməyə çalışır. Birinci pillə onunla xarakterizə olunur ki, gəlirlərin toplanması və sonra xərclərin yerinə yetirilməsinin kassa icrası müxtəlif qurumlar tərəfindən yerinə yetirilir. İkinci pillədə kassanın icrası mərkəzləşdirilərək, bir qurum vasitəsilə, yəni Maliyyə Nazirliyi tərəfindən yerinə yetirilir. Üçüncü pillədə dövlət kassasının icrasının bank sistemi dayanır. Kassanın icrasının mərkəzləşdirilmiş pilləsinin mərkəzləşdirilməmiş pillə ilə fərqini müəyyənləşdirmək üçün əsas kriteri "xəzinənin vahidliyi" anlayışıdır. Bu anlayış olmadıqda isə bütün hallarda kassanın icrası mərkəzləşdirilməmiş hesab edilməlidir. Mərkəzləşdirilmiş kassa icrası xəzinədarlığın ən təkmil idarə edilməsi hesab edilir. Məşhur rus iqtisadçısı professor V.A. Lebedevə [14] görə, vahid xəzinə sisteminin olması bütün hallarda üstünlük yaradır. Belə ki, hökumətin əlində cəmləşən bütün pul vəsaitləri yalnız bir kassa daxilində konsolidə olunur ki, bu qurum da Maliyyə Nazirliyidir. Mərkəzləşdirilmiş kassa icrasının təşkilini vacib edən digər səbəb isə hökumətin xəzinəsində nə qədər nağd formada pul vəsaitlərinin olmasını əvvəlcədən müəyyənləşdirmək imkanının olmasıdır. Deyilir ki, mərkəzləşdirilmiş kassa icrasının təşkili, yəni vəsaitlərin vahid mərkəzdə toplanılması prosesi sonrakı ödənişlərin edilməsi prosesini ləngidir. Lakin, buna baxmayaraq, bütün hallarda ləngimə olsa belə, aydın, düzgün, səliqəli şəkildə pul vəsaitlərinin vahid xəzinə hesabında toplanılması hökumət üçün daha prioritet hesab edilməlidir. Əgər hökumət mərkəzləşdirilməmiş kassa icrasına üstünlük verərsə, mərkəzləşdirilməmiş kassa icrasının təşkilində ayrı-ayrı qurumlar üçün vəsaitlərin parçalanması praktik olaraq neqativ nəticələrə gətirib çıxardacaqdır.

Xəzinədarlıq anlayışı haqqında qərb iqtisadçılarının fikirləri arasında XX əsrin II yarısında yaşamış, dövlət maliyyəsini araşdıran məşhur fransız mütəxəssisi Jan Pol Qodme "Maliyyə hüququ" əsərində xəzinədarlığı belə ifadə etməyə çalışmışdır [15]. Xəzinədarlıq adı altında çox mühüm funksiyaları həyata keçirən təşkilat dayanır. Xəzinədarlıq hüquqi çərçivədə hökümət daxilində ayrıca bir qurum kimi təqdim oluna bilməz. Bu qurum, həmçinin müstəqil maliyyə subyekti kimi də təqdim oluna bilməz. Xəzinədarlığın kassiri kimi hökümət daxilində olan digər əlaqəli orqanlar fəaliyyət göstərirlər. Xəzinədarlıq digər orqanlara təlimat verərək, pul vəsaitlərini idarə edir. Bu mənada, xəzinədarlıq - administrativ orqanların komissarı kimi səlahiyyətlərə malik olaraq, qəbul edilmiş maliyyə qanunlarına əsasən, pul vəsaitlərinin alınması və ödənişlərin həyata keçirilməsi əməliyyatlarını özündə birləşdirir. Yəni, Xəzinədarlıq bir hökumət bankıdır ki, bankir kimi fəaliyyət göstərərək, bankir kimi kapital toplayır, kreditlər verir, qarantiyalar verir və pul vəsaitlərinin əməliyyatları ilə bağlı məsələləri idarə edir.

Xəzinədarlıq bütün ölkələr üçün ümumilikdə büdcənin ayrılmaz tərkib hissəsi olaraq, eyni zamanda hər bir ölkə üçün spesifik xüsusiyyətlərlə fəaliyyət göstərir. Beynəlxalq Valyuta Fondu tərəfindən ümumiləşdirilmiş formada ölkələr üçün

yaradılmış xəzinədarlığın ümumi nümunəsi vardır. Bununla belə, dünyanın heç bir ölkəsində maliyyə sisteminin tərkibində oxşar struktura malik olan xəzinədarlıq mövcud deyil. Ölkələr bunu bir neçə amillərlə əsaslandırmağa çalışır ki, bu amillər - ölkənin sosial-iqtisadi vəziyyəti, dövlətlərin quruluş forması, ölkənin dünyada hansı regionda yerləşməsi və s. amillərdir. Dünya təcrübəsi göstərir ki, minimal olaraq xəzinədarlığın fəlsəfəsində yerinə yetirilən 3 əsas funksiya bütün ölkələrdə eynidir [16]:

- hökumətin kassiri funskiyası;
- hökumətin baş mühasibi funksiyası;
- hökumətin maliyyə nəzarətçisi funksiyası.

Bu fikri müəyyən qədər də dərinlişdirərək xəzinədarlığın ilkin və əhəmiyyətli funksiyalarını aşağıdakı kimi qeyd etmək zəruridir:

- dövlət və bələdiyyə strukturlarının maliyyə resurslarının mərkəzləşdirilməsi və konsentrasiyası;
- büdcənin gəlirlər və xərclər üzrə kassa icrası;
- nəzarət-tənzimləyici funksiyası.

Nəticə

Bütün deyilənləri ümumiləşdirərək qeyd etmək olar ki, xəzinədarlığın bir orqan yaxud bir sistem kimi formalaşması dövlət maliyyəsi çərçivəsində hökumətin pul vəsaitlərindən səmərəli istifadə etməsi zərurətindən yaranmışdır. Hazırda dünyada xəzinədarlıq deyiləndə özündə daima təkmilləşməyi tələb edən, daima yeni elementlərin tərkibinə daxil edilməsini tələb edən bir məfhum nəzərdə tutulur. Bu məfhum heç bir halda ölkənin maliyyə sistemində ayrılıqda tədqiq edilə bilməz və ölkələrin büdcə prosesində meydana çıxaraq dövlətin sahib olduğu pul vəsaitlərinin səmərəli idarə edilməsini təşkil etməlidir. Xəzinədarlığın keçdiyi yola nəzər saldıqda görə bilərik ki, müasir anlama uyğun gələn bir şəkildə təşkil edilərək yaranması ilk dəfə Qərbi Avropa ölkələrində müşahidə edilmişdir. Xəzinədarlıq ölkələrin müflis olmaq riski ilə qarşı-qarşıya qalmaması üçün, gəlir və xərclərin mütənasibliyini yaradaraq defisitin qarşısını alaraq gələcəkdə yaranan neqativ halların qarşısını almaq üçün təşkil edilmişdir. Bütün hallarda dövlət vəsaitlərinin idarə edilməsi mərkəzi deyildikdə xəzinədarlıq daima ön plana çəkilir ki, bu anlayış daxilində ölkələrin müqəddəratını həll edən bir qurum nəzərdə tutulur.

Ədəbiyyat

[1] Предеин Е.В. Бюджетная система РФ [Электронный ресурс]: учеб . пособие. – 3-е изд . – М.: ФЛИНТА: Наука, 2012. – 245 с.

[2] Запольский С.В. Финансовое право: учебник 1 отв. ред. и авт. предисл. - 2-е изд., испр. и доп. - М. : Юридическая фирма “Контракт”: Болтере Клувер, 2011.- 792 с.

[3] Сабанти Б.М. Теория финансов: Учебное пособие. М.: Менеджер, 1998. 168с.

[4] Мальцев В. А. Финансовое право : учебник для студ. сред. проф. учеб. заведений / Мальцев В.А. 3-е изд., испр. и доп. М.: Издательский центр «Академия», 2008. 256 с.

[5] Сперанский М.М., Тургенев Н.И., Орлов М.Ф. У истоков финансового права– Под ред. А.Н.Козырина. Составитель А.А.Ялбулганов. М.: “Статут”, 1998. Том 1. 432 с. (Серия “Золотые страницы российского финансового права”).

[6] Hallerberg, M. and J. von Hagen, 1997. Electoral Institutions, Cabinet Negotiations, and Budget Deficits in the European Union, NBER Working Paper 6341

[7] Kozırin A.N. Finansovoe pravo i upravlenie publiçnımi finansamiv zarubecnıx stranax –M.: ÜPPİ,. 2009. – 182 s

[8] Акперов И.Г. Казначейская система исполнения бюджета в РФ / И.Г. Акперов, И.А. Коноплева, С.П. Головач; под ред. проф. И.Г. Акперова. – М. : Финансы и статистика, 2006.

[9] Alexin G.V. Qosudarstvennıe i muniüipalğnıe finansı Uçebnik.Penza: - Penza: İzd-vo PQU, 2010. -350s

[10] Прокофьев С.Е. Методологические и организационные основы развития казначейской системы исполнения бюджетов в России: дис. экон. наук. Саратов , 2004.

[11] Əkovlev D.İ. Problemı pravovoqo requlirovaniə kaznaçeyskoqo ispolneniə bödcetov v RF : Dis. .. kand. örid. nauk : 12.00.14 Saratov, 2005 204 s. RQB OD, 61:05-12/1161

[12] Берендтс Э.Н. Русское финансовое право. Лекции, читанные в Императорском Училище Правоведения. СПб., 1914.

[13] *Озеров И.Х.* Финансовое право: курс лекций, читанный в Московском университете – М.: 1905.

[14] Лебедев В.А. Серия «Золотые страницы финансового права». М., 2000. С.150.

[15] Qodme P.M. Finansovoe pravo, Perevod i vstupitelğnaə statğə doktora öridiçeskix nauk, prof. Xalfinoy R. O.Moskva: Proqress, 1978. - 428 s.

[16] Прокофьев С.Е. Новации в сфере государственного финансового контроля, осуществляемого Казначейством России, Финансы и кредит 2015 год, №10

Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri, İl 3, Cilld 3, İyul – Sentyabr, 2015, səh. 126-133
Scientific Reviews in Azerbaijan State University of Economics, Year 3, Volume 3, July -September, 2015, pp. 126-133

HEYƏTİN İDARƏ EDİLMƏSİ SİSTEMİNİN VƏ ONUN DİAQNOSTİKASININ EFFEKTİVLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

A.Ç.Həşimova

magistrant, ADİU (UNEC)
E-poçt ünvanı:albina-hesimova@mail.ru
Tel:(012)4773006, (050)6341095

Məqalə redaksiyaya daxil olmuşdur 10 iyul 2015; Çapa qəbul edilmişdir 15 sentyabr 2015; online-da çap edilmişdir 6 oktyabr 2015
Received 10 July 2015; accepted 12 September 2015; published online 6 October 2015

Xülasə

Bu tədqiqatın əsas məqsədi müəssisə və təşkilatlarda heyətlə aparılan işin əsas istiqamətlərini müəyyənləşdirmək, tələblərin, prinsiplərin, həmçinin yüksək məhsuldarlıqlı möhkəm kollektivin yaranmasından və heyətin diaqnostikasının effektivliyinin qiymətləndirilməsindən ibarətdir. Tədqiqat işi elmi abstraksiya və sistemli təhlil, məntiqi ümumiləşdirmə kimi tədqiqat üsulları əsasında yerinə yetirilmişdir. Tədqiqatın nəticəsi: aparılan araşdırmanın nəticəsi olaraq heyətlə iş prinsipinin düzgün qurulması, təkmilləşdirilməsi və kadrların diaqnostikasının düzgün verilməsini öyrənməkdir. Tədqiqatın məhdudiyyətləri - daha geniş praktik informasiya tələbidir. Tədqiqatın praktik əhəmiyyəti: təşkilatda kadr proseslərini eyniləşdirmək və təhlil etmək bacarığı, işçi personalla, konkret vasitələr və iş metodları işləyib hazırlamaq və tətbiq etmək daxil olmaqla, təşkilatın məqsədlərinə uyğun istiqamətdə insan resursları ilə işi proqramlaşdırmaq bacarığını nümayiş etdirməkdir. Tədqiqatın orijinallığı və elmi yeniliyi heyətlə iş prinsipinin qurulmasında müasir yeniliklərdən istifadə etməkdən ibarətdir. Tədqiqat işində müxtəlif ölkələrin təcrübəsinə istinad edilmiş, müxtəlif elmi təhlillər aparılmışdır.

Açar sözlər: heyətin qiymətləndirilməsi, kadrların diaqnostikası, kadr siyasəti, kadrların attestasiyası, iş yerinin modeli.
Jel Classification: M12

ОЦЕНКА ЭФФЕКТИВНОСТИ СИСТЕМЫ УПРАВЛЕНИЯ ПЕРСОНАЛОМ И ЕГО ДИАГНОСТИКИ

Резюме

Основная цель данного исследования заключается в определении основных направлений работы, проведенной в предприятиях и организациях, создании крепкого коллектива, имеющего свои требования, принципы, а также высокую

рациональность, оценки эффективности диагностики персонала. Исследовательская работа выполнена на основе научной абстракции и системного анализа, таких методов исследования как логическое обобщение. Результат исследования: результатом проведенного исследования является правильное построение, усовершенствование и изучение установления правильной диагностики кадров. Ограничения исследования: требование более подробной практической информации. Практическая значимость исследования: умение отождествлять и анализировать кадровые процессы в организации, запрограммировать работу с человеческими ресурсами в направлении, соответствующем целям организации, включая разработку и применение конкретных средств и методов работы с рабочим персоналом. Оригинальность и научная новизна исследования заключается в использовании новаторства в создании принципа работы с персоналом. В исследовательской работе делается ссылка на опыт разных стран, проведены различные научные анализы.

Ключевые слова: оценка персонала, диагностика кадров, кадровая политика, кадровая аттестация, модель места работы.

EVALUATION OF SYSTEM OF STAFF MANAGEMENT AND EFFICIENCY OF ITS DIAGNOSTICS

Abstract

The purpose of this research is to define the main directions of works carried out with staff in enterprise and organizations, evaluation of demands, principles, as well as establishing of strong high productive collective and diagnostics of staff. The research work was performed based on research methods like scientific abstraction and system analysis, logical summarization. The conclusion of research: as a result of conducted research to correct establishing of work principles, improvement and right diagnostics of cadres. The limitations of research: the demand in wider practical information. The practical importance of research: the skill of work programming with human resources in direction consistent with purposes of the organization, the ability to identification of cadre processes in organization and to make analysis, to develop with staff the exact means and working methods and as well as its application. The originality of research and its scientific novelty consists of using of modern novelties in establishing of working principles by staff. The reference was made to experience of various countries, different scientific analysis was made.

Keywords: evaluation of staff, diagnostics of cadres, personnel policy, attestation of cadres, model of work place.

Giriş. Hər bir müəssisə özünün xarakterik xüsusiyyətlərini nəzərə alan kadr siyasətini yürüdür. Bütün variantlar üçün ümumi kadr siyasəti odur ki, onların yaranması və həyata keçirilməsi vahid prinsiplər əsasında aparılır. Kadr siyasəti sənədlərlə rəsmiyyətə salınır ki, bu da şöbələrin qaşılıqlı əlaqələrinin yaxşılaşmasına, müəssisənin rəhbərliyinin mövqeyini görməyə, kadrlar üzrə qərarların qəbul edilməsi prosesində ardıcıllığı təyin etməyə, daxili qarşılıqlı münasibət qaydaları haqqında heyəti məlumatlandırmağa, mənəvi-psixoloji mühiti yaxşılaşdırmağa imkan verir. Müəssisənin kadr siyasəti bir sıra amillərlə təyin edilir ki, bunu da xarici və daxili amillərə bölmək olar. Xarici amillərə əmək qanunvericiliyi, həmkarlarla qarşılıqlı münasibət, əmək bazarının inkişaf perspektivləri, daxili amillərə isə müəssisənin sturukturu və məqsədi, ərazi üzrə yerləşdirilmə, korporativ daxili mədəniyyət, kollektivdə mənəvi-psixoloji mühit aiddir.

Müəssisənin kadr siyasəti dedikdə heyətlə aparılan işin əsas istiqamətlərini müəyyənləşdirən nəzəri baxışların, tələblərin, prinsiplərin, həmçinin yüksək məhsuldarlıqlı möhkəm kollektivin yaranmasına imkan yaradan bu işin üsulları sistemi başa düşülür. Heyətin idarə edilməsi metodlarının tətbiqi əmək kollektivinin norma və dəyərlərinin durumundan, həm də müəssisənin məqsədindən asılıdır. Kadr siyasəti müəssisənin təsərrüfat siyasətinin bütün sahələri ilə sıx bağlıdır. Kadr siyasəti sahəsində qəbul edilən qərarların müəssisənin bütün funksional yarımsistemlərində baş verir (elmi-texniki fəaliyyətin, istehsalın, iqtisadi fəaliyyətin və s. idarə olunması).

İşçi heyətinin qiymətləndirilməsi: heyətin qiymətləndirilməsi heyətlə aparılan iş sisteminin mühüm tərkib hissəsidir.

Heyətin qiymətləndirilməsi ən çətin və mübahisəyə səbəb olan bir məsələdir. Burada ən vacib məsələlərdən biri qiymətləndirmə üçün ilkin materialların toplanmasıdır. Həmin ilkin materiallar aşağıdakılardan ibarətdir:

1. İş yerlərinin modeli və onun ünsürləri. Kadrların attestasiyası haqqında əsasnamə və ilkin materiallar: attestasiya kartları, attestasiya edilənin sorğu vərəqəsi, iş yerinin modeli, əməkdaşla kontrakt, ştat cədvəli, vəzifə instruksiyası, ball qaydasında qiymətləndirmə, heyətin kompleks qiymətləndirilməsi, işçinin şəxsi keyfiyyəti, işçi nəticələrinə görə fərdi töhfəsinin qiymətləndirilməsi.
2. Kadraların reytinq qiymətləndirilməsi metodu.
3. Müəssisə fəlsəfəsi.
4. Təşkilatdaxili əmək qaydaları.
5. Digər ilkin məlumatlar: əməkdaşın şəxsi vərəqəsi, ştat cədvəli, sosioloji anketlər, psixoloji testlər.

Yuxarıda göstərilənlərin bəziləri həm də heyətin qiymətləndirilməsi metodları kimi çıxış edir. Bütövlükdə heyətin qiymətləndirilməsi metodlarına aşağıdakıları aid etmək olar: ekspert qiymətləndirilməsi, kritik situasiyalar yaratmaq əsasında kritik qiymətləndirmə, xüsusi testlər əsasında testləşdirmə, işgüzar oyunlar, sosioloji sor-

ğular, müşahidə, ranjirovka, proqram nəzarət, imtahan, biznes-planın müdafiəsi, əməyin kompleks qiymətləndirilməsi, heyətin attestasiyası.

Konsultasiya halından fərqli olaraq qiymətləndirmə sınaqdan keçirilənlərdə böyük gərginlik yaradır. Bu şərtlər daxilində bir tərəfdən alınan nəticələrə təhrifedici təsir göstərən emosional vəziyyəti minimuma endirmək, digər tərəfdən diaqnostik cəhətdən vacib olan informasiyanı itirməmək lazımdır. Məsələn, əgər insanın emosional inadkarlıq dərəcəsi, ekstremal hallarda əmək qabiliyyətinin səviyyəsi maraq dairəsindədirsə, qiymətləndirmənin aparılması proqramının özü elə qurula bilər ki, şəxsi informasiya həm nisbi komfort vəziyyətində, həm də yüksək gərginlik şəraitində toplansın. Gərginliyin verilmiş dərəcəsinin müxtəlif şəkillərini prosedurların aparılması qaydası ilə təsvir etmək olar. Məsələn, antiböhran idarəçiliyi üzrə mütəxəssislərin qiymətləndirilməsi üçün proqramlardan birində günün əvvəlində və sonunda işin effektivliyi barədə məlumatların tutuşdurulması ilə qiymətləndirilən, eləcə də zamanla qeyd olunan iki mürəkkəb test prosedurunun ardıcıl keçirilməsi yolu ilə verilən gərginlik vəziyyətində.

1. Qiymətləndirmə prosedurlarının aparılmasının ümumi qaydaları:

1) QM çərçivəsində aparılan istənilən prosedurlar konsultasiya və ya təlim məqsədi ilə istifadə olunan metodlardan fərqli olaraq maksimal dərəcədə geniş diaqnostik informasiyaların toplanmasına yönəlməlidir. Qiymətləndirmənin aparılması zamanı ekspertin bütün fəaliyyəti təlimə, konsultasiyaya və ya terapiyaya yox, sınaqdan keçirilənin aktual imkanları haqda informasiyanın toplanmasına yönəlməlidir.

Əlbəttə, sınaqdan keçrilənin qiymətləndirmə proqramında özünün iştirakı ona təşkilatın yeni qaydaları ilə tanış olmağa, öz hazırlığının və müəyyən keyfiyyətlərinin inkişaf səviyyəsini qiymətləndirməyə imkan verir, lakin bu, daha çox əlavə nəticədir.

2) Qiymətləndirmə prosesində bütün sınaqdan keçirilənlərin iş şəraiti bərabər olmalıdır, nəticələrə təsir göstərə bilən bütün kənar faktorların təsirini maksimal dərəcədə minimuma endirmək lazımdır.

Qiymətləndirmə apararkən sınaqdan keçrilənlərin bir proqram çərçivəsində göstərdikləri təzahürlərdə bütün fərqlərin müxtəlif iş şəraiti ilə yox, qiymətləndirilən kefiyyətlərin ifadəsinin müxtəlif dərəcələri ilə əlaqədar olmasına əmin olmaq lazımdır.

3) Qiymətləndirmə prosesində adi hallarda sınaqdan keçirilənlərin davranışı haqqında mötəbər informasiyanın alınması çox mühümdür. Bu səbəbdən, qiymətləndirmə prosedurlarının aparılması zamanı qiymətləndirilən özünü reallıqda olduğu kimi yox, ekspertin gözləntilərinə uyğun olaraq aparanda «ekspertiza effektini» aşağı endirməyə cəhd etmək vacibdir.

QM proqramlarında tətbiq olunan testlər ilk növbədə effektiv professional fəaliyyət üçün mövcud olan şəxs barədə ilkin informasiyaların (iş keyfiyyətlərinin inkişaf səviyyəsi, psixoloji özəlliklər) toplanmasına yönəlib. Bu informasiya xüsusi

çalışmaların aparlması, qrup şəklində qarşılıqlı əlaqələr, müsahibə, rol oyunları və s. zamanı dəqiqləşdirilə bilər.

2. Testlərin və xüsusi çalışmaların keçirilməsinə olan ümumi tövsiyələrə aşağıdakıları aid etmək lazımdır:

1) hər bir test və ya çalışmadan əvvəl aşağıdakıları ehtiva edən çox dəqiq və ciddi təlimat verilməlidir:

- iş qaydasının təsviri;
- çalışma yerinə yetirilən zaman davranış qaydaları;

2) sınaqdan keçirilənlərin işini dayandırmaq və onlardan hər hansı başqa prosedurların yerinə yetirilməsinə ayrılmasını xahiş etmək tövsiyə olunmur;

3) testin yerinə yetirilməsi prosesində iştirakçının necə işlədiyinin müşahidəsini aparmaq məqsədəuyğundur - bu psixoloji və iş keyfiyyətləri barədə əlavə informasiya toplamaq imkanı verir.

QM proqramlarında qrup çalışmaları insanın adi əmək hallarına yaxın olan vəziyyətlərdə real davranışını ifadə edən informasiyanı toplamaq imkanı verir. Test prosedurları və yazılı çalışmaların məlumatlarının tutuşdurulmasında alınan informasiya fərdi xüsusiyyətlər barədə fərziyyəni dəqiqləşdirməyə və davranış vasitələrinin repertuarını konkretləşdirməyə imkan verir.

3. Qrup çalışmalarının keçirilməsinin ümumi qaydalarına aşağıdakıları aid etmək lazımdır:

1) qrup işinin aparıcısı (fasilitator) - qrupun işini elə qurmalıdır ki, iştirakçıların özlərinin maksimal dərəcədə aşkar olunmasına imkan versin. Fasilitatorun işini görünməyən, lakin onsuz heç bir düşünülmüş tryukun alınmadığı fokusçunun köməkçisinin işi ilə müqayisə etmək yerinə düşərdi. O, həmişə qrupun işini hər bir iştirakçıya qabil olduğunu göstərmək imkanı verən istiqamətə yönəltməyə hazır olmalıdır. Öz rolunu uğurla ifa etmək üçün fasilitatora lazımdır: qrupun və hər bir iştirakçının avtoritetinə çevrilmək, qrupdan özünəməxsus «etimad rəyi» almaq, əks təqdirdə onun fəaliyyəti bloklana bilər;

2) qrup çalışmalarının müşahidəçilərinin minimal dərəcədə qrup işinə daxil olması və əlavə stimullaşdırma əhəmiyyətli dərəcədə davranış mənzərəsini təhrif edə bildiyindən, müstəqil olaraq konkret iştirakçının və ya bütövlükdə qrupun davranışına təsir göstərməyə çalışmaması arzu ediləndir.

QM-nin bütün iştirakçılarının işini ümumi görüşlə yekunlaşdırmaq məqəsədəuyğundur. Belə görüşün məqsədi günün yekununu vurmaq, işin simvolik başa çatması, gərginliyin aradan qaldırılması və əlaqədən çıxmaqdır. Bir qayda olaraq QM-nin bütün iştirakçıları (həm sınaqdan keçənlər, həm də ekspertlər) bütöv intensiv iş günündən sonra psixi yorğunluq kimi, fiziki yorğunluq da hiss edirlər. Bir neçə prosedurdan sonra iştirakçılarda məmnuniyyətsizlik hissi əmələ gələ bilər. Gərginliyi aradan qaldırmaqdan

ötəri bütün meydana çıxan suallara cavab vermək, əgər soruşulursa, əlavə informasiyalar təqdim etmək lazımdır. Mövcud konkret proqramın artıq harada tətbiq olunması, onda nə qədər insanın iştirak etməsi barədə danışmaq, alınmış informasiyanın ciddi məxfiliyi haqda bir daha xatırlatmaq faydalıdır. Əgər «əks-əlaqə» proseduru (fərdi nəticələrin təqdim olunmasını) keçirməyə imkan varsa, onun keçirilməsi günü, vaxtı və yeri barədə razılığa gəlmək lazımdır.

Təşkilatın reallığının 3 əsas aspekti qiymətləndirilə bilər:

1. Həyat prosesləri –həyat potensialının formalaşmasının konkret təşkilat üçün əhəmiyyətli olan sahələri;

2. Təşkilatın quruluşu - əsas elementlərin nisbəti və bir birinə tabeedici, təşkilati quruluşunun çevikliyi;

3. Həyatın kəmiyyət və keyfiyyət xüsusiyyətləri. Kadr heyəti üzrə audit keçirən heyət üzrə menecerin fəaliyyətin hansı istiqamətlərdə və hansı səmərəlik səviyyəsində keçirilməsini başa düşməsi çox vacibdir

Fəaliyyətin istiqamətləri	**Diaqnostikanın parametrləri**
1. Əmək resurslarının planlaşdırılması.	Mövcud olan resursların, məqsədlərin, təşkilatın inkişaf şəraiti və perspektivinin, heyətə olan gələcək tələbtların qiymətləndirilməsi
2. Heyətin işə götürülməsi.	Heyətə olan tələbat haqqında informasiyanın təsviri, işə götürmək vasitələri. İşə götürməyin qiymətləndirilməsi (maliyyə və keyfiyyət) İşə olan namizədlərin siyahısının qiymətləndirilməsi, vakansiyaların namizədlərlə təminatı.
3. Heyətin seçilməsi.	Hazırlanmış qiymətləndirmə proseduralarının qiymətləndirilməsi
4. Situmulaşdırma sisteminin yaradılması.	Əməkhaqqının baza və mükafat stavkasının qiymətləndirilməsi (məhsuldarlığa uyğun mükafatlar) sxemlərinin mövcudluğu. Hazırlanmış prinsiplərin, əməkhaqqı quruluşunun və imtiyazlarının əmək bazarında şəraitə, əmək məhsuldarlığına və təşkilatın uyğunluğunun qiymətləndirilməsi. Nümayişedici tədqiqatların keçirilməsi, mükafatlandırma sisteminin səmərəliliyin qiymətləndirilməsi.
5. Heyətin adaptasiyası.	İstifadə olunan adaptasiya proseduralarının təsviri, onların effektliyinin qiymətləndirilməsi, yarım ilin, bir ilin ərzində işdən çıxarılan işçilərin sayı şöbələrdə yeni işə götürülmüşlərin mübahisələri. Adaptasiya zamanı yaranan problemlərin təsviri.

6. Personalın ödənilməsi.	Tədris formalarının və məqsədlərinin təhlili. Tədris kurslarını keçənlərin sayının öyrənilməsi (mövzular üzrə). Təhsil proqramları haqqında məlumatın yığılması və yayılması. Tədris sisteminin qiymətləndirilməsinin təhlili (qiymət-ləndirmə predmentlərin qabağa çəkməsi: xərclər, personalı proqramların praktik oriyentasiyası, faktiki nəticələr, nastok nəzərin, əməyə motiviziyasının (motivasiyanın) və sosial – psixoloji mühitin dəyişdirilməsi və s.
7. Əmək fəaliyyətinin qiymətləndirilməsi.	Attestasiyanın qiymətləndirilməsi, onun mütəmadi keçirilməsi, təqdim olunan nəticələrin və onlara əsaslanan qəbul olunan qərarların qiymətləndirilməsi.
8. İrəliləyiş, vəzifənin kiçildilməsi, köçürülmə, işdən çıxarılma.	Keçirilən kadr monitorinqinin kompyuter vasitələri üsulları. Karyeranın planlaşdırılmasında istifadə olunan vasitələrin qiymətləndirilməsi.
9. Rəhbər işçilərin hazırlanması.	İdarə etmə fəaliyyətinin təhlili və planlaşdırılması. İdarə etmə potensialının qiymətləndirilməsi və idarə etmə heyətinə olan tələbatın qiymətləndirilməsi.
10. Sosial – psixoloji vəziyyətin monitorinqi və müəssisədaxili ünsiyyətin təşkili.	Heyət proseslərin və sosial – psixoloji mühitin diaqnostikası, təşkilata olan tələbatın qiymətləndirilməsi. Təşkilati mədəniyyətin diaqnostikası, onun təşkilatın elementlərə uyğunluğun (məqsədlərə, quruluşa, maliyyə, idarəetməyə və s. qiymətləndirilməsi. Təşkilatdaxili ünsiyyətdə olan tələbatın qiymətləndirilməsi.

Mənbə: T.Y.Bazarov, B.L.Yeremin: “Heyətin idarə edilməsi”, Bakı 2012, səh.268.

Kadr diaqnostikasının nəticələrinə görə təşkilatın insan resursunun aktual və perspektiv imkanlarının qiymətləndirilməsi həyata keçirilir, təşkilati inkişaf proqramı yaradılır. Təşkilatın konsultasiya müşayiətinin layihələndirilməsi və arzu edilən nəticələrə doğru razılaşdırılmış nəticələrə kimi gətirilməsi məqsədəuyğundur.

Kadrların diaqnostikasına təqdim olunan professional tələblərə aid edilir: təşkilatda kadr proseslərini eyniləşdirmək və analiz etmək bacarığı, işçi personalla konkret vasitələr və iş metodları işləyib hazırlamaq və tətbiq etmək daxil olmaqla təşkilatın məqsədlərinə uyğun istiqamətdə insan resursları ilə işi proqramlaşdırmaq bacarığı, eləcə də kadr işi texnologiyasını kadr xidməti əməkdaşlarına vermək qabiliyyəti.

Kadrların diaqnostikasının paradiqmaları:

- resurslar üzrə konsultasiya - konsultant təşkilatın professional kadr potensialının aktual vəziyyətinin ekspertizasını aparır və kadr problemlərinin konkret həllini təklif edir;
- proses üzrə konsultasiya - konsultant professional kadr problemlərinin həlli prosesini təşkil edir və təşkilatın işçilərinə onların müstəqil şəkildə həllini öyrədir.

Kadr diaqnostikası iki əsas mərhələdən ibarətdir: analitik və proqramlanan.

Diaqnostika prosesinin müvəffəqiyyəti heç də sonuncu növbədə heyətin problem üzərində birgə işin aşağıdakı prinsiplərinə təşkilatda hamının bölüşdürdüyü müsbət münasibətini formalaşdırmasına, birgə fəaliyyət prosesinin cəlbedicilik,

reallıq və idarə olunma (və ya nəzarətdə saxlanma) prinsiplərinə nə dərəcədə müvəffəq olmasından asılı deyil.

Heyətin diaqnostikasının effektivliyini şərtləndirən professional səriştənin ən azı üç tipinin mövcudluğu barədə danışmaq olar: metodik, sosial və təşkilati.

QM diaqnostikasının mahiyyəti ondan ibarətdir ki, fəaliyyətin yerinə yetirilməsi üçün tipik olan model hallarda namizəd müşahidə olunsun və onda uğurlu iş üçün lazım olan keyfiyyətlərin varlığı və ya yoxluğu aşkar edilsin, onun xüsusiyyətlərinin təsviri verilsin və təlimə olan tapşırıqlar formula edilsin.

Qiymətləndirmə diaqnostikasına olan tələblər işçi personalın yüksək inam, etibarlılıq, komplekslik, anlaşıqlıq dərəcəsi qiymətləndirilməsindən ibarətdir, bununla yanaşı, proqnoz imkanını təmin etmək və təşkilatda kadr işinin ümumi sistemini qurmaq lazımdır.

QM diaqnostikası əsasında duran başlıca prinsiplər: 1) fəaliyyətin əsas anlarının modelləşdirilməsi; 2) qiymətləndirmə meyarları sisteminin hazırlanması; 3) istifadə olunan texnika; 4) təşkilatın əməkdaşları sırasından xüsusi hazırlanmış müşahidəçilərin qiymətləndirmə prosesinə daxil edilməsi; 5) real davranışın hipotezi və onun səbəblərinin yox, özünün qiymətləndirməsi.

Nəticə

Kadr siyasəti gələcək dövrün kadr siyasəti, kadr planlaşdırılması ilə sıx bağlıdır. Burada təşkilatla işçi heyəti, iş verənlə işə girənlər arasında tarazlı mənafelər birliyinə xüsusi fikir verilməlidir, həm də elə etmək lazımdır ki, kadr planlaşdırması ilə heyətlə aparılan iş bir-birilə vəhdətlik təşkil edə bilsin, çünki burada kadr planlaşdırılması strategiyası başlıca yer tutur.

Kadrların öyrənilməsi çoxcəhətli idarəçilik fəaliyyəti ilə əlaqədardır. Bu, sosiologiya, psixologiya, o cümlədən mühəndis psixologiyası, əməyin psixologiyası, bir sıra sosial-iqtisadi məsələlərlə şərtlənir. Bütün bunlar nəticə etibarıilə birlikdə, məcmu halda şəxsiyyətin, onun peşə-təşkilatçılıq qabiliyyətinin kompleks öyrənilməsini nəzərdə tutur. Bu zaman bir çox formalardan – anket məlumatlarından, söhbətlərdən, müşahidə və testləşdirmədən geniş istifadə olunur. Burada hər bir formanın öz yeri və əhəmiyyəti vardır.

Beləliklə, kadr diaqnostikasının nəticələrinə görə təşkilatın insan resursunun aktual və perspektiv imkanlarının qiymətləndirilməsi həyata keçirilir, təşkilati inkişaf proqramı yaradılır. Təşkilatın konsultasiya müşayiətinin layihələndirilməsi və arzu edilən nəticələrə doğru razılaşdırılmış nəticələrə kimi gətirilməsi məqsədəuyğundur.

Ədəbiyyat

[1] T.Quliyev "Menecmentin əsasları", Bakı 2001.
[2] K.A.Şahbazov və başqaları "Menecment", Bakı 2007
[3] T.Y.Bazarov, B.L.Yeremin: "Heyətin idarə edilməsi", Bakı 2012
[4] "Biznesin təşkili və idarə edilməsi", İqtisad Universiteti nəşriyyatı 2011.

Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri, İl 3, Cilld 3, İyul – Sentyabr, 2015, səh. 134-141
Scientific Reviews in Azerbaijan State University of Economics, Year 3, Volume 3, July -September, 2015, pp. 134-141

BANK SEKTORUNDA ÇİRKLİ PULLARIN YUYULMASİNA QARŞI MÜBARIZƏ PROQRAMININ ƏSAS ELEMENTLƏRİ

K.F.Lətifov
Magistr, Pulların Yuyulmasına Qarşı Mübarizə üzrə Sertifikatlı Ekspertlər Assosiasiyasının üzvü, xidmət direktoru, "Bank of Baku" ASC
e-mail: kflatifov@bankofbaku.com
tel.: (+99412) 447-00-55; (+99455) 655-01-50

Məqalə redaksiyaya daxil olmuşdur 17 avqust 2015; Çapa qəbul edilmişdir 27 sentyabr 2015; Online-da çap edilmişdir 6 oktyabr 2015
Received 17 Augast 2015; accepted 27 September 2015:
published online 6 October 2015

Xülasə

Tədqiqatın əsas məqsədi, ölkə iqtisadiyyatının əsas aparıcı maliyyə qurumu olan banklarda çirkli pulların yuyulması və terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizə üzrə bankdaxili proqramının əsas elementlərinin müəyyən edilməsidir. Tədqiqat işi sistemli təhlil, nəzəri ümumiləşdirmə kimi elmi yanaşma üsullarına əsaslanır. Məqalədə ölkəmizin kommersiya banklarının təcrübəsinə istinad edilmiş, Dünya Bankının hesabatlarından və bu sahədə mövcud olan beynəlxalq standartlardan istifadə edilməklə əməli təhlillər aparılmışdır. Tədqiqatın məhdudiyyətləri: praktik əhəmiyyət kəsb edən məlumatların çatışmaması və real dəqiqləşdirilmiş statistik məlumatların olmamasıdır. Tədqiqatın elmi yeniliyi, banklar üçün praktiki əhəmiyyətə malik olan çirkli pulların yuyulması və terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizə proqramını müəyyən etmək və nəzəri-praktiki təklif və tövsiyələr irəli sürməkdən ibarətdir.

Açar sözlər: bank, çirkli pulların yuyulması, beynəlxalq standartlar, terrorizmin maliyyələşdirilməsi.
JEL Classification Codes: G32

ОСНОВНЫЕ ЭЛЕМЕНТЫ ПРОГРАММЫ БОРЬБЫ С *ОТМЫВАНИЕМ* ДЕНЕГ, ПОЛУЧЕННЫХ ПРЕСТУПНЫМ ПУТЕМ В БАНКОВСКОМ СЕКТОРЕ

Резюме

Основная цель исследования заключается в том, что в секторе внутрибанковских операций установить основные элементы программы борьбы с отмыванием денег, полученных преступным путем, и финансированием терроризма. Исследование проводилось на основе таких методов научного подхода, как сис-

темный анализ и теоретическое обобщение. В статье ссылаются на опыт коммерческих банков нашей республики. Используя отчеты Международного Банка и существующих международных стандартов, проведен обоснованный анализ. Ограниченность исследования в недостатке информации, имеющей практическое значение, и нехватка точных статистических данных. Новизна исследования в разработке программы, имеющей практическое значение для банков в борьбе с отмыванием денег, полученных преступным путем, и финансированием терроризма, и выдвижении теоретических и практических идей для осуществления этой программы.

Ключевые слова: банк, отмывание денег, международные стандарты, финансирование терроризма.

THE MAIN ELEMENTS OF ANTI-MONEY LAUNDERING PROGRAM IN BANKING SECTOR

Abstract

The primary purpose of the research is to determine the main elements of the anti-money laundering and financing of terrorism compliance program in the banks, which are the leading finanacial organizations of the economy. This research is based on the scientific methods such as a systematic review and a theoretical generalization. The analysis in the article has been conducted by using a practice of the local commercial banks, the World Bank reports and the available in this field international standards. The limitation of the investigation is a lack of a practical and a revised statistical data. The scientific novelty of the investigation is in defining the anti-money laundering and financing of terrorism compliance program and proposing theoretical and practical recommendations for the banks.

Keywords: bank, anti-money laundering, international standards, financing of terrorism.

Giriş. Bankların çirkli pulların yuyulmasına qarşı mübarizə siyasətinin ilkin və əsas komponenti çirkli pulların yuyulmasına qarşı mübarizə proqramıdır. Proqramın əsas məqsədi bankı pulların yuyulmasına qarşı qorumaq və əmin olmaqdır ki, bank müvafiq qanunvericiliyin tələblərinə tam əməl edir. Bu səbəbdən, proqramın müəyyən edilməsi, qurulması və tətbiqi hər bir bank üçün ən mühüm amillərdən biri hesab olunmalıdır.

Çirkli pulların yuyulmasına qarşı mübarizə proqramının əsas, ilkin elementləri aşağıdakılardır:

- Daxili qayda, prosedur və nəzarət sistemi;

- Müəyyən olunmuş "Məsul şəxs", hansı ki, gündəlik əsasda bu proqramın işləməsinə, tətbiqinə nəzarət edir;
- İşçilərə təlim keçmə, məlumatlandırma proqramı;
- Bu proqramı yoxlayan müstəqil audit funksiyası.

Bankdaxili siyasət, prosedurlar və nəzarət. İlk növbədə hansı qayda, siyasət, prosedurların vacib olduğunu müəyyən etmək üçün ölkədə bu sahədə mövcud olan qanunları və normativ aktları müəyyən etmək və anlamaq lazımdır. Bu bank üçün minimum standartları təşkil edəcək. Sonra Bank öz risklərinə nəzər salmalıdır və qiymətləndirməlidir. Məsələn, yüksək riskli olduğu üçün bank hansı ölkələrlə, müştərilərlə əməliyyatları, məhsulları qadağan edib? Bunlar bankdaxili siyasətlə qadağan edilməlidir və bunu dəstəkləyən müəyyən nəzarət mexanizmi olmalıdır. Bank həmçinin qanunvericilikdəki dəyişikliklərə həssas olan, onlara çevik uyğunlaşan proseslərə – prosedurlara malik olmalıdır.

Çirkli pulların yuyulmasına qarşı bankdaxili mübarizə *siyasəti* ali rəhbərlik tərəfindən müəyyən edilməli və təsdiqlənməli, bankın bu sahə ilə bağlı əsas ifadə forması olmalıdır. Bu, qanunvericiliyin tələblərinə riayət etmək üçün daha detallı olan bankdaxili qayda, prosedur və nəzarət mexanizmi üçün baza rolunu oynayır.

Standart əməliyyat *prosedurları* siyasətdən fərqli olaraq adətən orta rəhbərlik tərəfindən təsdiq edilir və tez-tez dəyişən məhsul şərtləri, motivasiya növləri, işçi rotasiyası kimi amillərə uyğun olaraq, çevik şəkildə yenilənir, dəyişdirilir. Prosedur siyasətlə müqayisədə daha detallı olur. Prosedurlar bankdaxili siyasəti praktik, işlək formaya çevirir. Siyasət və prosedurlardan əlavə, bunların effektiv tətbiqini asanlaşdıran və dəstəkləyən *proses* də olmalıdır. Proses mütəmadi olaraq nəzərdən keçirilməli və yenilənməlidir.

Yuxarıda qeyd edilənlərdən başqa, pulların yuyulmasına qarşı mübarizə proqramı müxtəlif növ daxili nəzarət mexanizmlərini, həmçinin rəhbərliyə hesabatların təqdim edilməsi və s. elementləri nəzərə almalıdır, hansı ki, proqramın düzgün işləməsini təmin edir. Bu nəzarət mexanizmləri məsul şəxsə imkan verməlidir ki, standart prosedurlardan kənarlaşmaları müəyyən etsin və qarşısını alsın. Nümunə olaraq, müəyyən məbləğ limitini keçən əməliyyatlarda, əməliyyatı icra etmək üçün, əlavə olaraq, məsul şəxsin imzasına tələb qoymaq olar. Bu isə qeyri-adi əməliyyatların diqqətdən kənarda qalmasının qarşısını almış olar. Əlavə olaraq nəzarət mexanizmi kimi bankdaxili əməliyyat proqramından istifadə olana bilər. Məsələn, hesab açan zaman əməliyyat sistemində müəyyən qrup məlumat xanalarının doldurulmasını məcburi etmək olar ki, bu da məsul şəxs üçun analiz (təhlil baxımından) əhəmiyyətli olar. Həmçinin əməliyyat proqramında qeyri-adi əməliyyatları müəyyən edən avtomatik mexanizm, habelə hesabın açılmasının monitorinqi proqramı qurmaq proqramın tətbiqinin effektivliyini artırar.

Aşağıdakı elementləri nəzərə alan bankdaxili siyasət, prosedur və proseslər pulların yuyulmasına qarşı mübarizə proqramına daxil edilməlidir:

- Yüksək riskli əməliyyatların müəyyən edilməsi (məhsul/xidmət riski, müştəri riski, coğrafi risk)
- Şübhəli əməliyyatlar, nəzarət mexanizmlərindəki çatışmazlıqlar, yeniliklər və s. barədə rəhbərliyin daim məlumatlandırılması;
- Bankın bütün aidiyyatı əməkdaşlarına pulların yuyulmasına qarşı mübarizə proqramı ilə bağlı məsuliyyətlərinin izah edilməsi;
- Əməkdaşların, rəhbərliyin dəyişməsindən asılı olmayaraq, proqramın işlək formada qalmasının təmin edilməsi;
- Qanunverciliyin bütün tələblərinə tam şəkildə əməl olunmasının təmin edilməsi;
- Ən azı ildə bir dəfə bütün aidiyyatı qayda, prosedurların nəzərdən keçirilməsinin, qanunvericiliyə uyğunlaşdırılmasının və yenilənməsinin təmin edilməsi;
- Şübhəli əməliyyatların zamanında müəyyən edilməsi və hesabat verilməsi üçün zəruri nəzarət və monitorinq sisteminin qurulması;
- Əməkdaşlar arasında məsuliyyət bölgüsünün həyata keçirilməsi. Məsələn, şübhəli əməliyyatları müəyyən edən və hesabat verən şəxslə gündəlik olaraq, limit çərçivəsində məlumatları təqdim edən şəxslərin məsuliyyəti eyni olmamalıdır;
- Sənədlərin və məlumatların qorunub saxlanılması, bərpası, saxlanılması müddətinin uzadılması təmin edilməlidir;
- Gündəlik olaraq hesabat təqdim edən, şübhəli məlumatları müəyyən edən, əməliyyatları monitorinq edən əməkdaşlara adekvat nəzarətin həyata keçirilməsi;
- Qanunvericiliyin tələblərindən, bankdaxili qayda, prosedur və məsuliyyətlərdən xəbərdar olmaları üçün əməkdaşlara mütəmadi olaraq təlimlərin keçirilməsi;
- Proqramın tətbiqinin və tələblərin icrasının effektivliyini qiymətləndirən mexanizmin müəyyən edilməsi, tətbiq edilməsi və daim inkişaf etdirilməsi.

Proqramın əsasını təşkil edən pulların yuyulmasına qarşı mübarizə departamentinin strukturunun necə qurulması, kim tərəfindən və necə idarə edilməsi məsələsi isə bir qədər kritik məqamdır, çünki bu, bankın böyüklüyündən, işçi heyətinin sayından, bankın və təqdim etdiyi məhsulların, xidmətlərin növündən asılıdır. Bunula bağlı qərar isə proqramı quran zaman lap əvvəldə, ilkin olaraq müəyyən edilməlidir.

Məsul şəxs. Pulların yuyulmasına qarşı mübarizə üzrə məsul şəxs programın müəyyən olunması və tətbiqinə və ya çatışmazlıqlar barədə rəhbərliyə hesabat verməyə, əməkdaşların bu sahə ilə bağlı maarifləndirilməsi üçün təlim proqramının müəyyən edilməsinə, bu sahədə baş verən yeniliklər, dəyişikliklər barədə xəbərdar olmağa məsul olan şəxsdir. Yuxarıda qeyd edildiyi kimi, pulların yuyulmasına qarşı mübarizə departamentinin dəqiq strukturu bankdan banka dəyişir. Bəzən bir şəxs

proqramın strateji aspektlərinə dair məsuliyyət daşıyır, digər şəxs isə əməliyyat aspektlərinə, həmçinin monitorinqin aparılması və şübhəli əməliyyata dair məlumatın ötürülməsinə görə məsuliyyət daşıyır. Nümunə olaraq, departamenti aşağıdakı altqruplara bölmək olar:

- Tədqiqat qrupu. Əməkdaşlardan məlumatları və ya əməliyyat sisteminin avtomatik olaraq müəyyən etdiyi müştərilərin qeyri-adi əməliyyatlarına dair indikatorları monitorinq edir. Bu qrup həmçinin araşdırdığı qeyri-adi əməliyyatlarda pulların yuyulması və ya terrorçuluğun maliyyələşdirilməsinə dair şübhəli hallar müəyyən edərsə, o zaman şübhəli əməliyyat hesabatı hazırlayaraq, maliyyə monitorinqi orqanına təqdim edir.
- Biznesə dəstək qrupu. Orta və yüksək riskli hesab edilən müştəri kateqoriyaları üzrə əlavə eyniləşdirmə tədbirləri görür. Müştərilərə xidmət göstərən əməkdaşların bu sahə ilə bağlı suallarını cavablandıran ilk əməliyyatçı olurlar.
- Proqrama nəzarət qrupu. Pulların yuyulmasına qarşı bankdaxili proqramı dövri olaraq nəzarətdən keçirir, yeniləyir. Qanunvecilikdə, standartlarda olan yenilikləri araşdırır və proqrama ehtiyac duyulan dəyişiklikləri müəyyən edir. Əməkdaşlara təlimlə bağlı təlim materiallarını hazırlayır. Həmçinin daxili və kənar yoxlayıcıların koordinatoru rolunu oynayır.

Təlimlər. Qanun və normativ aktlar tələb edir ki, Bankda pulların yuyulmasına qarşı mübarizə üzrə formal və yazılı təlim proqramı olsun. Keyfiyyətli təlim proqramı ancaq qanunvericiliyin banka olan tələblərini əks etdirməməlidir, həmçinin bankdaxili qayda, prosedurları, beynəlxalq standartları/yanaşmaları əhatə etməlidir ki, bankın pulların yuyulması və ya terrorçuluğun maliyyələşdirilməsi hədəfinə çevrilməsi riski minimuma ensin. Təlimlərin keçirilməsi bu məsələlərin necə vacib bir amil olduğunu və əməkdaşların potensial pulların yuyulması və ya terrorun maliyyələşdirilməsi hallarını müəyyən etdikdə, hansı addımların atılmasının zəruri olduğunu çatdırmaq üçün ən effektiv vasitələrdən biridir. Təlim dedikdə yalnız üzüzə formal təlim kursları nəzərdə tutulmur. Həmçinin korporativ mail, kitabçalar, məlumat paylaşmasını asanlaşdıran digər texnoloji vasitələrdən istifadə də nəzərdə tutulur.

Effektiv təlimin bir neçə əsas elementlərinə nəzər salaq:

Kimlərə təlim keçirilməlidir. Effektiv təlim qurmanın ilkin addımı hədəf auditoriyanın müəyyən edilməsidir. Bankda bir çox bölmələr bu sahə ilə bağlı təlim keçməlidir və hədəf auditoriya işçilərin çoxunu əhatə etməlidir. Lakin hər bir seqment auditoriya onlara uyğun formada, mövzuda təlim keçməlidir. Nümunə olaraq aşağıdakılara baxaq:

- Müştərilərlə təmasda olan işçilər: bankı pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsi riskindən qoruyan ön xəttdəki işçilərdir. Bu əməkdaşlara daha

dərin, praktik və asan başa düşülən formada təlim keçirilməlidir ki, bu sahənin vacibliyini və atmalı olduqları addımları anlasınlar. Nümunə üçün, kredit verən əməkdaşlara keçirilən təlim pulları yuyan şəxslərin kredit sxemlərindən necə istifadə etdiklərini, işçilərin bunu müəyyən etmə üsullarını və indikatorları, həmçinin bu zaman onların atmalı olduqları addımları əhatə etməlidir.

- Arxa ofis əməkdaşları. Bu əməkdaşların da müəyyən seqmenti bu sahə ilə bağlı xüsusi təlim keçməlidir. Məsələn: xəzinədarlıq sahəsi, partnyorlarla iş sahəsi, bank əməliyyatı sahəsi və s. Bu sahələrin əməkdaşları da yalnız qanunvericilik və nəzəri biliklərlə deyil, həmçinin praktik, onların işlərinə müvafiq formada maarifləndirilməlidir.
- Audit edən əməkdaşlar. Bu şəxslər nəzarət edən, monitorinq edən, nəzarət mexanizmini yoxlayan əməkdaşlardır və bunlara qanunvericilikdəki dəyişikliklər və onların banka təsiri, pulların yuyulması üsulları/metodları barəsində ətraflı təlim keçmək lazımdır.
- Pulların yuyulmasına və terrorun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə bankda məsul olan əməkdaşlar. Bu şəxslər bu sahə ilə bağlı bankdaxili proqramı quran və icra edən əməkdaşlardır. Bu şəxslərə digər əməkdaşlara keçirilən formadakı təlimlərə ehtiyac yoxdur. Onlara xüsusi ixtisaslaşdırılmış, bu sahədəki trendləri əhatə edən, bütün yeniliklərdən xəbər verən təlimlər lazımdır ki, bunların banka təsirini anlasınlar və riskləri idarə etmək üçün adekvat addımlar atsınlar.
- İdarə Heyəti və Müşahidə Şurası. Pulların yuyulmasına dair məsələlər, təhlükələr barəsində məlumatı mütəmadi və davamlı olaraq rəhbərliyə çatdırmalıdır. Vacib məsələlərdən biri də odur ki, bu sahənin tələblərini icra edən departament rəhbərlikdən dəstək alsın və o da öz növbəsində rəhbərliyi bankın əməliyyat risklərindən xəbərdar etsin.

Təlimdə hansı mövzular nəzərə alınmalıdır. Hədəf auditoriya müəyyən edildikdən sonra növbəti faktor təlim mövzusunun müəyyən edilməsidir. Bu, bankdan, bankın strukturundan, təklif olunan məhsul və xidmətlərdən asılı olaraq dəyişir. Aşağıdakı əsas mövzulara nəzər salaq:

- Ümumi informasiya: tarixi və pulların yuyulmasının və terrorçuluğun maliyyələşdirilməsinin nə olduğu, nəyə görə mövcud olduğu və bunun qarşısının alınmasının niyə vacib olduğuna dair məlumat;
- Qanunvericilik tərəfi: qanunvericiliein hansı formada banka və onun əməkdaşlarına təsir göstərməsi;
- Məsuliyyət tərəfi: bu sahə ilə bağlı cərimələr, cinayət məsuliyyətləri, həmçinin bankdaxili töhmət, xəbərdarlıq, işdən azadetmə və s. kimi məsuliyyət növləri;
- Şübhəli əməliyyatla və ya müştəri ilə üz-üzə gəldikdə hansı addımların atılması;

- Bankdaxili prosedurlara, tələblərə əməl etmək istəməyən müştəri ilə qarşılaşdıqda hansı formada davranmalı;
- Bankdaxili qayda, prosedur, proseslərin tələbləri və s.

Təlimi təşkil edən əməkdaş hədəf auditoriyaya hansı mövzunun uyğun gəldiyini əvvəlcədən müəyyən etməlidir. Həmçinin təlimin zamanının və məkanının düzgün seçilməsi də vacib amillərdəndir. Məsələn, iş saatlarında və nahardan sonra keçirilən təlimlər effektiv olmur. Təlim məkanının hamıya əlverişli olan yerdə seçilməsi və eyni zamanda çox sayda işçini bir anda toplanmaması, əksinə kiçik qruplarda təlimin keçirilməsi daha yaxşı nəticə verir.

Effektiv təlimə nail olmaq üçün real həyat hadisələrindən, pulların yuyulması sxemlərindən, bankda baş vermiş hadisələrdən, bunların banka təsirindən və həlli yollarından da bəhs etmək lazımdır.

Audit funksiyası. Bankdaxili proqramı işlək vəziyyətə gətirmək kifayət deyil. Proqram monitorinq olunmalı və qiymətləndirilməlidir. Banklar öz proqramlarının effektiv işlədiyinə əmin olmaq və yeni risk faktorlarını müəyyən etmək üçün mütəmadi olaraq qiymətləndirmə aparmalıdır.

Audit funksiyası bankda müstəqil olmalıdır və o, birbaşa Müşahidə Şurasına hesabat verməlidir. Müstəqil audit aşağıdakıları yoxlamalı və müəyyən etməlidir:

- Bankdaxili qayda, prosedurların adekvat səviyyədə olmasını;
- əməkdaşların daxili qayda, prosedurlara hansı formada əməl etdiklərini;
- qeyri-adi, yüksək riskli əməliyyatların müəyyən olunması prinsipini, səviyyəsini;
- vaxtlı-vaxtında təlimlərin keçirilməsini və təlim materiallarının keyfiyyətini;
- qanunvericiliyə əməl olunması səviyyəsini;
- rəhbərliyin vaxtlı-vaxtında məlumatlandırılmasını;
- bank əməliyyatı proqramının adekvat vəziyyətdə olmasını;
- sənədlərin qorunub saxlanılmasını və s.

Daxili audit planlı və plandankənar olmalıdır. Audit prosesi başa çatdıqdan sonra yoxlanılan sahələr, risklər və çatışmazlıqlar yazılı şəkildə aktlaşdırılmalı, imzalanmalı və rəhbərliyə təqdim edilməldir. Audit başa çatdıqdan sonra tapılan çatışmazlıqlar müvafiq işçilərə bildirilməli və bank zəruri dəyişiklikləri, düzəlişləri yerinə yetirməlidir.

Nəticə

Tədqiqat zamanı müəyyən edilmişdir ki, yerli bankların bir çoxu çirkli pulların yuyulması və terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizə proqramını tam və effektiv tətbiq etmir və nəticədə risklərə qarşı adekvat qoruna bilmir. Pulların yuyulmasına qarşı mübarizə proqramının düzgün müəyyən olunması və qurulması banklara imkan verir ki, daha az resurs xərcləməklə effektiv şəkildə risklərdən müdafiə olunsunlar.

Ədəbiyyat

[1] Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanunu, № 767-IIIQ 10.02.2009

[2] Bazel Komitəsi, Prevention Of Criminal Use Of The Banking System For The Purpose Of Money-Laundering, dekabr 1988

[3] Maliyyə Tədbirləri üzrə İşçi Qrupu (FATF) Tövsiyələri+Lügət+Şərh Qeydləri (2012)

[4] Methodology for Assessing Compliance with the FATF 40 Recommendations and the FATF 9 Special Recommendations, 27.02.2004 (fevral 2009-ci il tarixdə yenilənmiş)

[5] Guidance on the risk-based approach to combating money laundering and terrorist financing, İyun 2007

[6] ACAMS, Study Guide for the CAMS Certification Examination, Fifth Edition.

[7] www.cbar.az (Azərbaycan Respublikasının Mərkəzi Bankı)

[8] www.fatf-gafi.org (Financial Action Task Force)

[9] www.fiu.az (Maliyyə Monitorinqi Xidməti)

[10] www.acams.org (Association of Anti-money Laundering Specialists)

[11] www.acamstoday.org (ACAMS magazine)

ŞƏKI-ZAQATALA IQTISADI RAYONU ÜZRƏ STATISTIK MƏLUMATLARIN EKONOMETRIK TƏHLILI

S.Ş. Nəsirov

dissertant, UNEC

Məqalə redaksiyaya daxil olmuşdur 28 avqust 2015; Çapa qəbul edilmişdir 25sentyabr 2015; elektron çap edilmişdir 6 oktyabr 2015.
The article was received 28Augast 2015; accepted 25 September 2015; published online 6 October 2015.

Xülasə

Tədqiqatın əsas məqsədi regionların iqtisadiyyatında əmək resurslarından səmərəli istifadə, enerji istehlakı və əsas fondların dəyəri hesabına məhsul buraxılışı həcminin gələcəkdə artırılması imkanlarını aşkara çıxarmaqdır. Tədqiqatın nəticəsi olaraq - məhsul buraxılışına əhəmiyyətli təsir göstərən amillər korrelyasiya təhlili metodu ilə müəyyənləşdirilmiş, reqressiya modeli tərtib edilmişdir. Tərtib edilmiş modelin interpretasiyası göstərir ki, bəzi rayonlarda məhsul buraxılışının hesablanmış qiyməti faktiki qiymətdən yüksək, bəzilərində isə aşağı olmuşdur. Tədqiqatın elmi yeniliyi - ekonometrik təhlildə çoxfaktorlu reqressiyanın əhəmiyyətinin SPSS (Statistical Package for Sosial Science) - məlumatların statistik işlənməsi sistemi vasitəsilə qiymətləndirilməsidir.

Açar sözlər - ekonometrik təhlil, göstərici, xətti korrelyasiya, iqtisadiyyat, parametr.
Jel Classification: R13, C13

ECONOMETRIC ANALYSIS OF STATISTICAL DATA OF THE SHEKI-ZAKATALA EKONOMICAL REGION

Abstract

The main objective of the study - the rational use of human resources, to identify opportunities to increase of volume of production at the expense of power consumption and cost of fixed assets. The study identified the main factors that significantly affect the volume of production by correlation analysis and regression model is made. The interpretation of the model shows that in some areas of the calculated volume value higher than the actual output values, and elsewhere below. Scientific novelty of research - assessment of the importance of the multiple regression in econometric analysis using a system of statistical data - SPSS (Statistical Package for Social Science).

Keywords econometric analysis, indicator, linear correlation, economy, parameter.

ЭКОНОМЕТРИЧЕСКИЙ АНАЛИЗ СТАТИСТИЧЕСКИХ ДАННЫХ ЭКОНОМИЧЕСКОГО РАЙОНА ШЕКИ-ЗАКАТАЛА

Резюме

Основная цель исследования - рациональное использование трудовых ресурсов, выявление возможностей повышения обьема выпуска продукции за счет энергопотребления и стоимости основных фондов. В результате исследования определены основные факторы, значительно влияющие на объем выпуска продукции методом корреляционного анализа и составлена регрессионная модель. Интерпретация модели показывает, что в некоторых районах расчетное значение объема выпуска продукции выше фактического значения, а в других районах ниже. Научная новизна исследования - оценка значимости множественной регрессии в эконометрическом анализе с применением системы статистической обработки данных - SPSS (Statistical Package for Sosial Science).

Ключевые слова: эконометрический анализ, показатель, линейная корреляция, экономика, параметр.

Ekonometrik təhlilin məqsədi, iqtisadiyyatda əmək resurslarından səmərəli istifadə, enerji istehlakı və əsas fondların dəyəri hesabına məhsul buraxılışı həcminin gələcəkdə artırılması imkanlarını aşkara çıxarmaqdan ibarətdir. Region üzrə məhsul buraxılışının səviyyəsi ancaq ona təsir edən faktorların öyrənilməsi vasitəsilə hərtərəfli xarakterizə oluna bilər. Sosial-iqtisadi hadisələr arasında qarşılıqlı əlaqələrin qiymətləndirilməsi üçün ekonometrik metodların səmərəli tətbiqi və onların əsasında proqnozların verilməsi metodun mahiyyətindən və onun informasiyanı qiymətləndirmə imkanlarından asılıdır [1]. Məhsul buraxılışının ona təsir göstərən faktorlardan asılılığı korrelyasiya-reqressiya təhlili yolu ilə həyata keçirilir. Reqressiya təhlilinin metod və modelləri ekonometrikanın riyazi aparatında mərkəzi yer tutur. Reqressiya təhlilinin başlıca məsələləri dəyişənlər arasında asılılıq formasının qurulması, reqressiya tənliyinin qiymətləndirilməsi, asılı dəyişənin naməlum kəmiyyətlərinin (proqnoz qiymətlərinin) qiymətləndirilməsidir. Ekonometrik modelləşdirmə prosesi bir neçə mərhələdə aparılır. Əlaqələrin statistik öyrənilməsinin birinci mərhələsində hadisənin təhlili durur. İkinci mərhələ əlaqə modelinin qurulmasıdır, o statistik metodlara - qruplaşdırma, orta kəmiyyət və i.a. əsaslanır. Üçüncü mərhələ - nəticələrin interpretasiyasıdır [2]. Ekonometrik təhlilin tətbiqi o vaxt optimaldır ki, təhlil obyektlərinin sayı tədqiq olunan göstəriciyə (məhsul buraxılışına) təsir edən faktorların sayından ən azı 3 dəfə artıq olsun. Ən yaxşı nəticələri almaq üçün obyektlərin sayının faktorların sayından 6-8 dəfə çox olması gərəkdir. Riyazi-statistika üsullarının tətbiqinin zəruri şərtlərindən biri obyektlər məcmusunun həmcinsliyidir.

Şəki-Zaqatala iqtisadi rayonu üzrə təhlil aparmaq üçün regionun rayonları üzrə məhsul buraxılışı (min manat) - Y, iqtisadiyyatda muzdla işləyənlərin sayı (nəfərlə) - X_1, enerji istehlakı (ton neft ekvivalenti ilə, bura əhalinin enerji istehlakı daxil deyildir) - X_2 göstəricilərindən istifadə edilmişdir. Göstəricilər üzrə statistik məlumatlar aşağıdakı cədvəldə verilmişdir:

Cədvəl 1. 2012-ci ildə Şəki-Zaqatala iqtisadi rayonu üzrə statistik məlumatlar

N	Rayon və şəhərlər	Məhsul buraxılışı, min manat, Y	İqtisadiyyatda muzdla işləyənlərin sayı, nəfər, X_1	Enerji istehlakı, NET, X_2	Əsas fondların dəyəri (qalıq dəyəri ilə), min manat,X_3
1.	Balakən	149600	9700	25094.2	84306
2.	Qax	139200	8800	13825.0	68768
3.	Qəbələ	226300	10300	42373.8	78104
4.	Oğuz	129100	5600	12381.6	44262
5.	Zaqatala	466800	14600	29069.2	89775
6.	Şəki	365400	22100	114282.2	225839
	Cəmi	**1476400**	**71100**	**237026.0**	**591054**

Verilən faktorların məhsul buraxılışına təsiri fərqli olduğu üçün məhsul buraxılışı ilə faktorlar arasında əlaqənin sıxlığını göstərən korrelyasiya matrisini qurmaq lazımdır. Hər bir faktorun məhsul buraxılışına kəmiyyət təsirinin ölçülməsi məqsədilə reqressiya tənliyi qurulmalıdır. Xətti reqressiya tənliyi modelləşdirilmiş prosesi kifayət qədər adekvat əks etdirir, yaxşı təhlil edilir və interpretasiyası nisbətən mürəkkəb deyildir. Reqressiya tənliyi əhəmiyyət kəsb edir və yaxud kəsb etmir (praktiki əhəmiyyəti yoxdur). Ona görə də reqressiya tənliyinin əhəmiyyətliliyi F-kriterisi, reqressiya əmsallarının əhəmiyyətliliyi isə t-kriterisinə (Styudent) görə yoxlanılır.

Rayonlar üzrə verilmiş göstəricilərin korrelyasıya təhlilini aparsaq, aşağıdakı nəticəni alarıq:

Cədvəldən göründüyü kimi, nəticə əlaməti ilə faktor əlamətləri arasında birbaşa əlaqə vardır. Korrelyasiya matrisinə nəzər saldıqda, məhsul buraxılışı ilə iqtisadiyyatda muzdla işləyənlərin sayı arasında korrelyasiya 0,771117, əsas fondların dəyəri arasında 0.545584 və enerji istehlakı arasında korrelyasiya əmsalı 0,518791 olmuşdur. Bildiyimiz kimi, nəticə əlamətinə təsir göstərən faktorlar arasında yüksək korrelyasiya kollinearlıq yaradır. Belə ki, iqtisadiyyatda muzdla işləyənlərin sayı ilə enerji istehlakı arasında korrelyasiya əlaqəsi 0.913198, əsas fondların dəyəri ilə isə 0.97409872 olduğuna görə onların arasında kollinearlıq mövcuddur [3]. Bu səbəbdən də enerji istehlakının faktor kimi təhlildən çıxarılması məqsədəuyğundur.

Cədvəl 2. Korrelyasiya əmsalları

	Məhsul buraxılışı, min manat, Y	İqtisadiyyatda muzdla işləyənlərin sayı, nəfər, X_1	Əsas fondların dəyəri, min nəfər, X_2	Enerji istehlakı, NET, X_3
Məhsul buraxılışı, Y	1			
İqtisadiyyatda muzdla işləyənlərin sayı, X_1	0.771117	1		
Əsas fondların dəyəri, min nəfər, X_2	0.545584	0.949938	1	
Enerji istehlakı, X_2	0.518791	0.913198	0.97409872	1

Bu üç faktorla məhsul buraxılışı arasında reqressiya təhlilini apardıqda məlum olur ki, $F_{kriteri}$-nə görə tənlik az əhəmiyyətlidir, çünki, $F_{kriteri} < F_{cədvəl}$, yəni 15.864283<19.16. Reqressiya əmsallarının əhəmiyyətliliyini yoxladıqda isə görürük ki, sabit kəmiyyətlə, enerji istehlakının $t_{kriteriləri}$ t-nin cədvəl qiymətindən kiçikdir. Tənliyin və reqressiya əmsallarının əhəmiyyətliliyinin yoxlanılması nəticəsində reqressiyanın əhəmiyyət kəsb edən əmsalları tənlikdə qalır, yəni məhsul buraxılışına əhəmiyyətli təsir göstərən faktorlar qalır.

İndi isə rayonlar üzrə məhsul buraxılışına təsir edən qalan faktorların reqressiya təhlilini aparaq. Çoxfaktorlu reqressiya modelinin ümumi görünüşü aşağıdakı kimidir:

$$\hat{Y} = a_0 + b_{1*}X_1 + b_{2*}X_2 + \varepsilon$$

Reqressiya modelində Y asılı dəyişəni X_1 və X_2 faktorlarının funksiyasıdır.

Əvvəlcə hər bir göstəricinin riyazi-statistik xarakteristikasını təhlil edək:

Cədvəl 3. Şəki-Zaqatala iqtisadi rayonu üzrə göstəricilərin statistik xarakteristikası

	Məhsul buraxılışı, Y	İqtisadiyyatda muzdla işləyənlərin sayı, X_1	Əsas fondların dəyəri (qalıq dəyəri ilə), X_3
N	6	6	6
Orta kəmiyyət	246066.6667	11850	98509
Median qiyməti	187950	10000	81205
Orta kəmiyyətin standart xətası	57085.27929	2366.537555	26289.77303
Cəmi	1476400	71100	591054
Minimum	129100	5600	44262
Maksimum	466800	22100	225839
Variasiya genişliyi	337700	16500	181577
Birinci	149600	9700	84306
Sonuncu	365400	22100	225839
Standart kənarlaşma	139829.8061	5796.809467	64396.52938

	Məhsul buraxılışı, Y	İqtisadiyyatda muzdla işləyən-lərin sayı, X_1	Əsas fondların dəyəri (qalıq dəyəri ilə), X_3
Dispersiya	19552374667	33603000	4146912996
Eksess	-0.791481726	1.644718165	4.842979347
Eksesin standart xətası	1.74077656	1.74077656	1.74077656
Asimmetriya	0.957722213	1.249824757	2.096737612
Asimmetriyanın standart xətası	0.845154255	0.845154255	0.845154255
Variasiya_əmsalı	**56.8**	**48.9**	**65.4**
Eksess	**-0.5**	**0.9**	**2.8**
Asimmetriya	**1.1**	**1.5**	**2.5**

Verilmiş göstəricilərin statistik xarakteristikasının qiymətlərindən görünür ki, variasiya əmsalı məhsul buraxılışı üzrə 56,8%, iqtisadiyyatda muzdla işləyənlərin sayı üzrə 48-,9%, əsas fondların dəyəri üzrə 65,4% olmuşdur. Variasiya əmsallarının 33%-dən böyük olması həmin məlumatların qruplaşdırılmasını şərtləndirir. Lakin bəzi hallarda variasiya əmsalı 50%-ə qədər qəbul olunduğuna görə məlumatların qruplaşdırılmasına ehtiyac qalmır.

Eksess əmsalının onun standart xətasına nisbəti məhsul buraxılışı üzrə -0.5, muzdlu işçilərin sayına görə 0.9, əsas fondların dəyərinə görə 2.8 olmuşdur. Sübut olunmuşdur ki, bu nisbət -2 və +2 arasında dəyişdiyi halda ədədlərin paylanması normal paylanmaya yaxındır. Deməli, eksess üçün qoyulmuş şərtlər tam ödənilir.

Asimmetriya əmsalının qiymətinin onun standart xətasına nisbəti məhsul buraxılışı üzrə 1.1, muzdlu işçilər üzrə 1.5, əsas fondlar üzrə 2.5 olmuşdur. Deməli, bütün göstəricilər üzrə normallıq şərtləri qismən ödənilir. Yəni, nisbət -2 və +2 arasında dəyişir.

Determinasiya və korrelyasiya əmsallarının qiymətləri aşağıdakı cədvəldə verilmişdir:

Cədvəl 4.Çoxfaktorlu korrelyasiya əlaqəsinin göstəriciləri

Multiple R	0.97599819					
R Square	0.95257247					
Adjusted R Square	0.920954121					
Analysis of variance table						
	Sum of Squares	d.f.	Mean Square	F Change	Sig. F Change	Durbin-Watson
Regression	93125269418	2	46562634709	30.127202	0.01033	1.2434
Residual	4636603916	3	1545534639			
Total	97761873333	5				
a. Predictors: (Constant), Əsas fondların dəyəri, iqtisadiyyatda muzdla işləyənlərin sayı						
b. Dependent Variable: Məhsul buraxılışı						

R^2 = 0.95 kəmiyyəti ***məcmu determinasiya əmsalı*** öyrənilən amillərin təsiri altında nəticə əlamətinin variasiyasının payını göstərir. Reqressiya təhlili parametrlərinin keyfiyyətini yoxlamaq üçün determinasiya əmsalı R^2-dan istifadə olunur. Təhlildə məcmu korrelyasiya əmsalı R=0.98, determinasiya əmsalı isə R^2 =0.95-dir, kiçik kvadratlar metodunda $0<=R^2<=1$ şərti ödənilir. Determinasiya əmsalı reqressiyanın köməyi ilə şərh edilən asılı dəyişənin dispersiyasının payını göstərir, yəni məhsul buraxılışının variasiyasının 95,25%-i əsas fondların dəyəri ilə məşğul əhalinin sayının variasiyası ilə izah olunur. R^2 reqressiya tənliyinin keyfiyyət ölçüsüdür. Bu əmsal vahidə nə qədər çox yaxınlaşarsa, modeldə nəzərə alınmayan amillərin rolu bir o qədər azalar, bununla da reqressiya modelinin parametrləri ona daxil olan amillərin səmərəlilik dərəcəsini əks etdirir. Reqressiya modelinin etibarlılığının statistik qiymətləndirilməsi üçün məcmu determinasiya əmsalının mümkün ola bilən qiymətləri aşağıdakılardır [4]:

0.01-0.09 - nəzəri olaraq lazımi təsdiqini tapmayıb;

0.09-0.49 - əlaqə ortadır;

0.49-1.00 - əlaqə kifayət qədər güclüdür, təhlildə reqressiya modelindən istifadə nəzəri olaraq əsaslandırılmışdır.

Məcmu korrelyasiya əmsalı R məhsul buraxılışının faktorlarla əlaqəsinin kəmiyyət xarakteristikasını verir.

Məcmu korrelyasiya əmsalının (R=0.98) əhəmiyyətliliyini qiymətləndirmək üçün F-Fişer meyarından istifadə olunur. P.Fişer meyarının hesablama qiyməti F= 30.1272-dir, k_1=l-1=3-1=2), k_2=n-l=6-3=3 (l - tənliyin parametrlərinin sayıdır) və α=0,05 əhəmiyyətlilik səviyyəsində Fişer meyarının cədvəl qiyməti $F_{2,3,0.05}$=9,55-dir. Göründüyü kimi, FChange>$F_{2,3,0.05}$ - dir, yəni, faktor əlamətlərinin təsiri rədd edilmir və reqressiya əmsalları 0-dan fərqlidir.

Durbin-Watson stat - DW=1,243402 qiyməti 0<DW<4 intervalında olduğu üçün reqressiya modeli yaxşı hal kimi qəbul olunur.

Reqressiya əmsalları - b_j-ın əhəmiyyətini yoxlamaq üçün t-statistikadan istifadə olunur. t-statistikadan ötrü sıfır hipotezi H_0, yəni t-nin "0"-a bərabərliyi hipotezi yoxlanır. t-nin qiyməti sərbəst hədd üçün |-1.85424698|, X_1 üçün |6.4363025|, X_2 üçün |-4.7583564|-dir. Styudent paylanmasının n-3 sərbəstlik dərəcəsində t_b-nin cədvəl qiyməti $t_{0.10,6}$=1,9432 olduğundan $t_b>t_{kritik}$ şərti X_1 və X_2 dəyişənləri üçün ödənilir və müvafiq olaraq b_1, b_2 şərti-xalis reqressiya əmsalları modelə daxil edilir. Sabit kəmiyyətin t-statistikası |-1,85424698| t-nin cədvəl qiymətinə yaxın olduğu üçün onu reqressiya tənliyində saxlamaq olar. Lakin b_1, b_2 şərti-xalis reqressiya əmsalları müxtəlif ölçü vahidləri ilə ifadə olunmuş adlı rəqəmlər olduğuna görə bir-birilə müqayisə olunmurlar. Onları müqayisəli nisbi göstəricilərə çevirmək üçün *standartlaşdırılmış reqressiya əmsallarını və yaxud β-əmsallarını* hesablamaq lazımdır [5]:

$$\beta_j = b_j * \frac{\sigma_{x_j}}{\sigma_y}$$

$$\beta_1 = b_1 * \sigma_{x1} / \sigma_y = 62.4792*5796.81/139829.81 = 2.59$$

$$\beta_2 = b_2 * \sigma_{x2} / \sigma_y = (-4.15798)*64396.53/139829.81 = -1.92$$

X_j faktoru üzrə verilən β_j əmsalı - X_j faktorunun variasiyasının y nəticə əlamətinin variasiyasına təsir dərəcəsini müəyyən edir (reqressiya tənliyinə daxil olan digər faktorların yanaşı variasiyasından ayırmaqla).

Şərti-xalis reqressiya əmsallarını əlaqənin müqayisə oluna bilən nisbi göstəriciləri - *elastiklik əmsalları* kimi göstərmək olar:

$$e_j = b_j * \frac{\overline{x_j}}{\overline{y}},$$

$$e_1 = b_1 * \overline{X}_1 / \overline{y} = 62.4792*11850/246066.7 = 3.0089$$

$$e_2 = b_2 * \overline{X}_2 / \overline{y} = (-4.1579831)* 98509/246066.7 = -1.6646$$

Beləliklə, iqtisadiyyatda muzdla işləyənlərin sayı faktorunun nəticə əlaməti məhsul buraxılışına təsiri daha çoxdur. Məhsul buraxılışının iqtisadiyyatda muzdla işləyənlərin sayından, əsas fondların dəyərindən asılılıq modelini tərtib etmək üçün SPSS proqram paketindən istifadə edilmiş və alınmış nəticə cədvəl 6-da verilmişdir [5].

Cədvəl 5.Reqressiya tənliyinin göstəriciləri

Variables	Reqression Coefficients	Std. Error	Standardized Coefficients, Beta	t (d.f. =6)	Partial, R^2
1	2	3	4	5	7
X_1	62.4792255	9.707316442	2.590149955	6.436302543	0.594621816
X_2	- 4.157983089	0.873827587	- 1.914897029	- 4.7583564	0.297661709
Constant - -84713.39941					
Std.error of estimate - 45686.1466					

Cədvəlin göstəriciləri reqressiya əmsalları və onların ehtimal qiymətləndirməsindən ibarətdir: 1-ci sütun dəyişənləri, yəni amilləri; 2-ci sütun şərti-xalis reqressiya əmsallarını - b_j; 3-cü reqressiya əmsallarının orta xətasını; 4-cü - variasiyanın 14 sərbəstlik dərəcəsində t-statistikanı; 5- reqressiya əmsallarına nəzərən H_0 hipotezinin rədd edilməsi ehtimalını; 6-cı sütun isə fərdi determinasiya əmsallarını bildirir.

Hər bir faktorun məhsul buraxılışına kəmiyyət təsirinin ölçülməsi və yalançı faktor əlaqəsini həqiqi faktorlardan ayırmaq məqsədilə reqressiya tənliyi qurulur. Modelləşdirilən prosesi daha yaxşı əks etdirdiyinə görə xətti reqressiya tənliyi aşağıdakı kimi olacaqdır:

$$\hat{Y}_i = -84713,40+62,4792255*X_1-4,157983089*X_2$$

burada, X_1 - iqtisadiyyatda muzdla işləyənlərin sayı;

X_2 - əsas fondların dəyəridir.

Reqressiya tənliyi müəyyən edildikdən sonra $\hat{Y}_i$-in hesablanmış qiymətlərinə görə onun etibarlılığı qiymətləndirilir. Məlumdur ki, müşahidə nöqtələri reqressiya xəttinə nə qədər yaxın olarsa, reqressiya tənliyi qiymətləndirmə funksiyası kimi daha etibarlı sayılır. Hər bir parametrin dispersiyası reqressiyanın xətasının (qalıqların) dispersiyası - σ_e^2 -dan asılı olacaqdır [6].

σ_e^2 -nı qiymətləndirmək üçün çoxfaktorlu reqressiyanın standart xətasının kvadratını nəzərdən keçirmək lazımdır:

$$S_y^2 = s_\varepsilon^2 = \frac{\sum(y-\hat{y})^2}{n-k-1},$$

burada, n - müşahidə vahidlərinin sayı;

k - parametrlərin sayı.

$$S_y^2 = s_\varepsilon^2 = \sqrt{\frac{4636603917}{6-2-1}} = \sqrt{\frac{4636603917}{3}} = \sqrt{1545534639},$$

$$s_\varepsilon = 39313.288$$

s_ε^2 və s_ε kəmiyyətləri müvafiq olaraq, qalıq dispersiyası və qalıq standart kənarlaşması adlanır. Korrelyasiya asılılığı tənliyinin etibarlılığını qiymətləndirmək üçün qalıq standart kənarlaşmasının nəticə əlamətinin orta qiymətinə nisbətinin faizlə ifadəsindən istifadə olunur:

$$\frac{s_\varepsilon}{\bar{y}} * 100 = \frac{39313.288}{246066.67} * 100 = 0.1597668$$

Cədvəl 6.Reqressiya tənliyi əsasında hesablanmış qiymətlər

Ərazinin adı	Məhsul buraxılışı, Y, min manat	İqtisaiyyatda muzdla işləyənlərin sayı, X_1, nəfər	Əsas fondlar (qalıq dəyəri), X_2, min manat	$\hat{Y}$= -84713,40+62,4792255*X_1-4,157983089*X_2	Y-$\hat{Y}$
Balakən	149600	9700	84306	170792.2	-21192.2
Qax	139200	8800	68768	179167.6	-39967.6
Qəbələ	226300	10300	78104	234067.5	-7767.5
Oğuz	129100	5600	44262	81129.6	47970.4
Zaqatala	466800	14600	89775	454200.4	12599.6
Şəki	365400	22100	225839	357042.7	8357.3
Cəmi	**1476400**	**71100**	**591054**	**1476400.0**	**0.0**
Orta kəmiyyət	**246066.7**	**11850**	**98509**	**246066.7**	**0.0**

Bu nisbət 10-15%-i aşmırsa, belə hesab etmək olar ki, reqressiya tənliyi təhlil edilən asılılığı yaxşı əks etdirir.

Reqressiya tənliyinə görə hesablanmış qiymətlər aşağıdakı cədvəldə verilmişdir:

Cədvəldən göründüyü kimi, Balakən, Qax və Qəbələ rayonları üzrə məhsul buraxılışının hesablanmış qiyməti faktiki qiymətdən yüksək, Oğuz, Zaqatala və Şəki rayonlarında isə məhsul buraxılışı üzrə hesablanmış qiymətlər faktiki qiymətlərdən aşağı olmuşdur.

Nəticə

Aparılmış ekonometrik təllildən aşağıdakı nəticələrə gəlmək olar:

- iqtisadi rayonlar üzrə məhsul buraxılışını proqnozlaşdırmaq üçün müəssisələr iqtisadi fəaliyyət növləri üzrə qruplaşdırılmalıdır;
- müəssisələr işçilərin sayına və digər əsas göstəricilərə görə qruplaşdırılmalıdır;
- ekonometrik modellərin tərtibindən əvvəl göstəricilərin statistik xarakteristikası təhlil edilməli və müxtəlif testlər vasitəsi ilə paylanma qanunauyğunluqları müəyyən edilməlidir;
- tərtib edilmiş modelin adekvatlığı və dəqiqliyi yoxlanmalıdır.

Ədəbiyyat

[1] Е.И.Кулинич. Эконометрия. Москва, "Финансы и статистика", 2001.
[2] Н.Ш.Кремер, Б.А.Путко. Эконометрика: Учебник для вузов. Под редакцией проф. Н.Ш.Кремера,- М.: ЮНИТИ-ДАНА, 2002.
[3] Доугерти К. Введение в эконометрику: Пер. с англ.-М.:ИНФРА-М,2001.-XIV, 402 с.
[4] Сошникова Л.А., Тамашевич В.Н., Уебе Г., Шефер М. Многомерный статистический анализ в экономике: Учеб. Пособие для вузов/ Под ред. проф. В.Н.Тамашевича. –М.:ЮНИТИ-ДАНА, 1999. 598 с.
[5] Елисеева И.И., Юзбашев М.М. Общая теория статистики: Учебник/Под ред.чл.-корр. РАН И.И.Елисеевой.-4-е изд. Перераб. и доп.-М.: Финансы и статистика, 1998.-480 с.
[6] В.Н.Сулицкий. Методы статистического анализа в управлении. Москва, 2002. Академия народного хозяйства при Правительстве Российской Федерации.
[7] Yadulla Həsənli. Ekonometrikaya giriş, Dərslik. Bakı-2008.-200 s.

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNİN ELMİ XƏBƏRLƏRİ
(rüblük elmi və praktik)

MÜƏLLİF ÜÇÜN QAYDALAR

1. Məqalənin adı, müəllif(lər)i, müəllif(lər)in elmi dərəcəsi, vəzifələri, ad və soyadları, çalışdıqları qurum və elektron poçt (e-posta) ünvanları, iş və mobil telefon nömrələri göstərilməlidir.

2. Məqalə xülasə açar söz (azərbaycan, ingilis və rus dillərində, ən çox 5 söz), (azərbaycan, ingilis və rus dillərində), giriş, əsas hissə, nəticə, mənbələr, əlavələr, şəkil və cədvəllər daxil olmaqla **10 səhifədən** az olmamalıdır. Elektron ünvanı: **nazimxx@yahoo.com; n.hajiyev@aseu.edu.az**.

3. Məqalənin xülasəsi **200-250 sözdən** çox olmamalı, tədqiqatın məqsədini, əhəmiyyətini və elmi dövriyyədəki yerini, istifadə edilən və ya formalaşdırılan metodları, hansı suallara cavab verildiyini və tətbiq dairəsini göstərməli, giriş və nəticə hissəsi kimi yazılmamalıdır.

4. Məqalənin xülasəsi məqalənin məzmumuna uyğun olmalıdır. Xülasə elmi və qramatik baxımdan ciddi redaktə olunmalıdır.

5. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və. s aydın şəkildə qeyd olunmalıdır.

6. Məqalə A4 formatında, **1,5 (bir tam onda beş) intervalla**, **Times New Roman 14 şriftilə** yazılmalı, kənarlarından (soldan 30 mm, sağdan 15 mm, yuxardan 25 mm və aşağıdan 20 mm**)** boşluq buraxılmalıdır.

7. Məqalə **azərbaycan, ingilis və rus dillərində** qəbul ediləcəkdir.

8. Məqalədə elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı əlifba ardıcıllığı ilə deyil, istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməli və məsələn, [1] və ya [1, s.119] kimi işarə olunmalıdır. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

9. Ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir.

10. Məqalələr orijinal olmalı və əvvəllər başqa milli və ya beynəlxalq jurnallara və konfranslara təqdim edilməməlidir.

11. Məqalələr rəyçilərin gizli rəyindən sonra sahə redaktoru və ya redaksiya heyətinin mütəxəssis üzvlərindən biri tərəfindən çapa tövsiyə və ya təqdim ediləcəkdir.

12. Məqalənin qəbulu və rədd edilməsi redaksiya heyətinin müzakirəsindən sonra elan ediləcəkdir.

SCIENCE REVIEWS AZERBAIJAN STATE UNIVERSITY OF ECONOMICS

(quarterly scientific and practical)

NOTES FOR CONTRIBUTORS

1. Articles not published or submitted for publication elsewhere are accepted in Azerbaijani, English and Russian.

2. Articles should be typed in A4 format, **with 1.5 line spacing, font Times New Roman**, of **not less than 10 pages**, with gaps at the edges (left 30 mm, right 10 mm, 25 mm from the top and bottom 20 mm). Articles should be sent official e-mail address of the journal **(nazimxx@yahoo.com; n.hajiyev@aseu.edu.az).**

3. **Article shall not be less than 10 pages**, including: keywords (in Azerbaijani, English and Russian), abstracts (Azeri, English and Russian), record, main part, conclusions, references, applications, graphics and tables.

4. Abstract of the article should be appropriate to its content.

5. The first page should include (i) the title of the article; (ii) the name(s) of the author(s); (iii) institutional affiliation(s) of the author(s); (iv) an abstract of not more than 200-250 words in English (text of abstracts must be consist of sections of "purpose", "design/methodology/approach", "findings", "research limitations/ implications", "practical implications" and "originality/value"); (v) keywords must not be more than 5 words; (vi) JEL codes. The name, address, e-mail address, phone and fax numbers and academically sphere of interest of the author(s) should be indicated on a separate page.

6. The article should contain links to scientific sources. Provided later in the article references must be numbered not in alphabetical order, and in a sequence that occurs in the text link literature and denoted as [1] or [1, p 119]. If the text is repeated reference to the same literature, the other in the text, this refers literature should be given the previous number. In the list of references should be given priority monographs, etc. the last 5-10 years.

7. Articles recommended or submitted for publication by the editor or one of the specialist members of the Editorial Board after reviewing secret reviewed.

8. Consent or refusal of articles declared after a discussion of the Editorial Board.

НАУЧНЫЕ ВЕСТИ АЗЕРБАЙДЖАНСКОГО ГОСУДАРСТВЕННОГО ЭКОНОМИЧЕСКОГО УНИВЕРСИТЕТА

(квартальный научный и практический)

ПРАВИЛА ДЛЯ АВТОРОВ:

1. Статьи принимаются на азербайджанском, английском и русском языках.

2. Статьи должны быть написаны в формате А4, **с интервалом в 1,5**, шрифтом **Times New Roman**, с пропусками по краям (слева 30 мм, справа 10 мм, сверху 25 мм и снизу 20 мм). Электронная почта: **nazimxx@yahoo.com; n.hajiyev@aseu.edu.az**

3. Должны быть указаны: название статьи, автор(ы), ученая степень, должность, структуры, где они работают, электронная почта, номера рабочего и мобильного телефонов автора (ов).

4. **Статья не должна быть меньше 10 страниц**, включая: резюме на (азербайджанском, английском и русском языках), ключевые слова (на азербайджанском, английском и русском языках), введение, основную часть, выводы, источники, приложения, рисунки и таблицы.

5. Резюме статьи должно быть не менее 200-250 слов, показывать цель, значение и место исследования в научной периодике, используемые или формируемые методы, на какие вопросы отвечает и область применения, не должно быть написано как введение и выводы.

6. Резюме статьи должно соответствовать ее содержанию.

7. В конце научной статьи должны быть четко отмечены научная новизна, практическая значимость, экономическая эффективность и т.д. работы в соотвеетствии с характером научной области статьи.

8. В статье должны быть ссылки на научные источники. Предоставляемый в конце статьи список литературы должен быть пронумерован не в алфавитной последовательности, а в последовательности, в которой встречается в тексте ссылаемая литература и обозначаться как [1] или [1,стр. 119]. Если в тексте есть повторная ссылка на одну и ту же литературу, то эта ссылаемая литература должна быть указана предыдущим номером. В списке литературы должно быть отдано предпочтение научным статьям, монографиям и т.д. последних 5-10 лет.

9. Статьи должны быть оригинальны и ранее не представлены в другие национальные или международные журналы.

10. Статьи рекомендуются или представляются к печати редактором или одним из специалистов-членов редакционного совета после тайного рецензирования рецензирующих.

11. Согласие или отказ в приеме статьи объявляется после обсуждения редакционным советом журнала.

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNİN
ELMİ XƏBƏRLƏRİ
(rüblük, elmi və praktiki)

MÜƏLLİFLƏR ÜÇÜN QAYDALAR

1. Məqalənin adı, müəllif(lər)i, müəllif(lər)in elmi dərəcəsi, vəzifələri, ad və soyadları, çalışdıqları qurum və elektron poçt (e-posta) ünvanları, iş və mobil telefon nömrələri göstərilməlidir.

2. Məqalədə xülasə (azərbaycan, ingilis və rus dillərində), açar söz (azərbaycan, ingilis və rus dillərində, ən çox 5 söz), giriş, əsas hissə, nəticə, mənbələr, əlavələr, şəkil və cədvəllər daxil olmaqla 10 səhifədən az olmamalıdır. Elektron ünvanı: nazimxx@yahoo.com; n.hajiyev@aseu.az .

3. Məqalənin xülasəsi 200-250 sözdən çox olmamalı, tədqiqatın məqsədini, əhəmiyyətini və elmi dövriyyədəki yerini, istifadə edilən və ya formalaşdırılan metodları, hansı suallara cavab verildiyini və tətbiq dairəsini göstərməli, giriş və nəticə hissəsi kimi yazılmamalıdır.

4. Məqalənin xülasəsi məqalənin məzmununa uyğun olmalıdır. Xülasə elmi və qrammatik baxımdan ciddi redaktə olunmalıdır.

5. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və. s aydın şəkildə qeyd olunmalıdır.

6. Məqalə A4 formatında, 1,5 (bir tam onda beş) intervalla, Times New Roman 14 şriftilə yazılmalı, kənarlarından (soldan 30 mm, sağdan 15 mm, yuxardan 25 mm və aşağıdan 20 mm) boşluq buraxılmalıdır.

7. Məqalə azərbaycan, ingilis və rus dillərində qəbul ediləcəkdir.

8. Məqalədə elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı əlifba ardıcıllığı ilə deyil, istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməli və məsələn, [1] və ya [1, s. 119] kimi işarə olunmalıdır. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

9. Ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir.

10. Məqalələr orijinal olmalı və əvvəllər başqa milli və ya beynəlxalq jurnallara və konfranslara təqdim edilməməlidir.

11. Məqalələr rəyçilərin gizli rəyindən sonra sahə redaktoru və ya redaksiya heyətinin mütəxəssis üzvlərindən biri tərəfindən çapa tövsiyə və ya təqdim ediləcəkdir.

12. Məqalənin qəbulu və rədd edilməsi redaksiya heyətinin müzakirəsindən sonra elan ediləcəkdir.

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNİN ELMİ XƏBƏRLƏRİ